
CAMAL ZEYNALOĞLU
TALELƏR
DÜNYASI

Camal Zeynaloğlu

# Talelər dünyası

## I kitab

“Ünsiyyət” nəşriyyatı
Bakı - 2013

**Az 2**
**----------**
**2013**

**Redaktor: Həqiqət Kərimova,**
fəlsəfə elmləri namizədi.

**C- 44. Camal Zeynaloğlu: “Talelər dünyası”**
(Azərbaycan dilində)

**Bakı, “Ünsiyyət” nəşriyyatı – 2013, - 212 səh.**

Bu kitab C.Zeynaloğlunun oxucularla **onuncu** görüşüdür. İctimai həyatımızda baş verən hadisələr müəllifi həm bir vətəndaş kimi, həm də qələm əhli kimi gözgörəsi narahat edir. Xalqımızın ən öyünməli, ən güvənməli cəhətləri olan milli dəyərləri – ailə məsələləri, qadın ləyaqəti, qadın şərəfi, isməti mənəvi, əxlaqi, etik baxımından təhlükə qarşısında olduğunu cəmiyyətə mesaj verir. Bütün bunlar Camal Zeynaloğlunun narahat ürəyindən keçib özünün, eləcə də oxucuların sinirlərinə, varlıqlarına sirayət edir.

Qadın dünyasına yaxından bələd olan müəllif sizləri uğurlu-uğursuz qadın taleləri ilə baş-başa buraxır, eyni zamanda bilməyərəkdən hisslərinin əsirinə çevrilmiş, sevgi və məhəbbətdə uğursuzluğa düçar olmuş, yanlış yollara varmış qızlarımıza doğru yol göstərərək, həyatda bu yanlışlarını düzəltmək üçün onlara daha bir şans verir.

Biz əminik ki, bu kitabı oxuduqdan sonra həyatınızda mütləq bir dəyişikliklər baş verdiyinin şahidi olacaqsınız.

**26470000**
**C--------------------------------- Qrifli nəşr**
**095 – 2013**

**© C.Zeynaloğlu - 2013**

**İSBN 978-9952-4400-07-03**

# Böhtan

(Həyat hekayəsi)

***“İnsanın yaşadığı bu aləm başdan-başa iztirablarla doludur... İnsan tənha, qaranlıq, perspektivi məlum olmayan zülmət bir diyara atılmışdır. Daim qorxu, təhlükə, ölüm onda təngə gəlib, canadoyma, dünyadan bezar olmaq əhvali-ruhiyyəsi yaratmışdır.”***

**M.Xeydeqqer.**

Bilsəydim ki, həyatda bu qədər ağrılara, iztirablara, insan dönüklüyünə, böhtan və iftiralara, etibarsızlığa məruz qalacağam, onda bu amansız həyata heç gəlməzdim. Amma digər tərəfdən o da məlumdur ki, bu dünyaya gəlişimiz və bu dünyadan gedişimiz öz əlimizdə deyildir. Ona görə də həyatda hər birimiz ona bəxş edilmiş bir tale yaşayır. Haradan biləsən ki, səni qabaqda nələr gözləyir; xoşbəxtlikmi, yoxsa bədbəxtlik?!

İnsan haqsız yerə başına gətirilən müsibətlərlə, ağrı-acılarla başa-başa qalanda, dəli olmaq dərəcəsinə gəlir. Amma bu dərd-səri, iztirabları kiminləsə paylaşanda adam istər-istəməz yüngülləşir, rahatlaşır. Mən də həyatda başıma gələnləri sizlərə anlatmaq istəyirəm. Bu da mənim həyat hekayəmdir.

Mən 1983-cü ildə kəndçim Əsədlə ailə həyatı qurdum. Qaynanamın və həyat yoldaşımın dediklərindən belə məlum olurdu ki, qaynım Rəsul hələ uşaq vaxtlarından qardaşı Əsədlə heç cür yola getmirmiş. Daha doğrusu, Rəsulun Əsədi nədənsə görən gözü yoxmuş.

Mən atamı görməmişəm. Biz ailədə 5 uşaq olmuşuq. Bizi anam əmilərimin köməyi ilə böyüdüb, boya-başa çatdırıb. Dörd uşağı yerbəyer etdikdən sonra anam da vəfat etdi. Ağır günlərimiz idi. Qardaşım həm oxuyur, həm də işləyirdi. Biz əmilərimizin himayəsində yaşayırdıq. Mənim artıq 23 yaşım vardı. Təsadüfən Əsəd məni qonşuluqda toyda görüb bəyənmişdi. Mənim onunla evlənməyimdə əsas rolu bibim oynayıb. Əsəd Rusiyanın Narılsk şəhərində əsgərilikdə olmuşdu. Sonradan o, yenidən Narılska qayıtdı. Biz onunla tanış olanda, o, Narılsk qeydiyyatında idi. Toyumuz olandan sonra Əsəd məni də Narılska aparmaq fikrində idi. Amma ata-anası yaşlı olduğundan Narılskdə yaşamaqdan vaz keçdi və oraya gedərək, qeydiyyatdan çıxıb kəndə gəldi.

Əsədgilin ev şəraiti o qədər də yaxşı deyildi. Atası həyətyanı torpaq sahəsindən bizə ev tikmək üçün yer ayırıb vermişdi.

Kənddə yaşadığımız müddətdə Əsədin bacısı haqqında söz-söhbətlər təzə-təzə yaranırdı. Bütün kənd baldızım Tahirənin ayrı-ayrı kişilərlə gəzdiyini danışırdı. Mənimsə bu söz-söhbətlərdən həqiqətən də xəbərim yox idi.

Bir gün həyat yoldaşım evə gəlib, anasından bacısının harada olduğunu soruşdu. O, çox əsəbi görünürdü. Qaynanam qızının harada olduğunu bilmədiyini söylədi. Sonra Əsəd anasından tələb etdi ki, onunla getsin. Anası getmədi. Mən Əsədi sakitləşdirməyə çalışdım. Amma o məni dinləmədi, acıqlı halda evdən çıxıb, harasa getdi.

Bir saatdan sonra Əsəd yenidən geri qayıtdı. Qayıdanda onun sifəti pörtmüş, əlləri əzilmişdi. Mənim heç nədən xəbərim yox idi. Atası qızından ötrü oğlundan polisə şikayət etdi. Polislər kəndə gələrək həyat yoldaşımı tutub apardılar. Həmin vaxt mən qorxudan qonşuda gizlənmişdim. Əsəd də mənə heç nə deməmişdi. Ərimə 15 sutka həbs verdilər. On beş gündən sonra yoldaşımı buraxdılar. Əsəd heç bir yerdə işləmədiyi üçün onu işlə təmin etdilər. Amma o, işləmədi. Bir ay keçəndən sonra o, işləmədiyinə görə onu yenidən tutub, il

yarım iş verdilər və cəzasını çəkmək üçün Volqaqrada göndərdilər.

Əsəd bir müddət orada qaldıqdan sonra məcburi əməkdən qaçdı. O, qaçdığı üçün onu Bakıya 9-cu kalona göndərdilər.

Baldızım Tahirə qonşu kənddə yaşayan bir sürücüyə qoşulub qaçdı...

Qaynım Rəsul ata-anasına baxmırdı. O, atasını aldadıb, tualet tikmək bəhanəsilə bizim həyətə girdi. Bir də gördük ki, qardaşı türmədə ola-ola Rəsul bizim həyətdə ev tikir. Qaynatam bunu görəndə, çox əsəbiləşdi və oğlu ilə savaşdı. Ərim türmədən çıxandan sonra qardaşının tutduğu hərəkətinə görə ona iradını bildirdi. Rəsul Əsəd türmədə olan zaman bircə dəfə də olsun onun yanına getməmişdi. O, bunu pulunun olmaması ilə əsaslandırmağa çalışdı. Əsəd isə qardaşına belə cavab verdi: “Demək, mənim yanıma gələndə, pulun olmur, amma mənim yerimdə ev tikmək üçün pul tapırsan. Bu necə olur?” Rəsul isə dedi ki, o, ev tikməyib, tövlə tikib. O həm də qardaşına dedi ki, guya onu mənim əmim Əli tutdurub. Bu isə tamam ağ yalan idi. Rəsul çox haqsız danışdı. Əlbəttə, ərimin buna nə dərəcədə inanıb-inanmadığını bilmədim. Ərim türmədə olduğu zamanlarda Rəsulla Səlimənin mənim başıma açdıqları oyunlar barədə ona bircə kəlmə də deməmişdim. Oğlumun 6 yaşı vardı. Səlimə qonşuların uşaqlarını öyrədib, onunla əxlaqsız hərəkətlər ediblər. Mən bu barədə sonralar bildim. Yenə də Əsədə bu haqda heç nə demədim...

Nəhayət, 1990-cı ilin martında Əsəd evə bir maşınla gəldi. Hiyləgər qaynım Rəsul maşını görən kimi, ərimlə barışdı. Onu evlərinə qonaq da apardı. Rəsul bundan sonra qardaşının yanından bircə saat belə ayrılmırdı. Əsəd mənə demişdi ki, bir-iki aya yenidən Rusiyaya gedəcək. Rəsul səhərdən axşama qədər Əsədin yanından əl çəkmirdi, o, nə barədəsə ərimlə elə hey söhbət edirdi. Mən isə bu işə məəttəl qalmışdım. Axı, neçə vaxtdı ki, biz onlarla küsülü idik.

Mən bu ailənin bu cür əxlaq sahibləri olduğunu bilmirdim. Çünki bibim bu ailəni mənə tərifləmişdi və bibimə görə Əsədə

“hə” cavabı vermişdim. Mən Rəsulgili daha yaxından tanıyandan sonra bibimlə sözləşdim və onunla aramız dəydi. Sonra bibimgillə qaynatam və qaynanam da savaşdı. Hətta, işimiz polisə düşdü...

Hələ Əsəd türmədə olduğu vaxtlarda Səlimə ilə Rəsul qaynatamın qulağını doldururmuşlar ki, guya Aybəniz tezliklə bu evdən çıxıb gedəcək. O, bu evdə çox qalmayacaq. Amma mən bütün çətinliklərə dözərək, bircə balam üçün hər cür işlər görmək məcburiyyətində qalırdım; sovxozda işləyir, qaynanamla həyəti əkir, həsir toxuyur, lığ eşir, qışda jaket, corab, köynək, çarıq toxuyub satırdım. Eyni zamanda dolanışığıma həm də qardaşım, əmilərim, əmim oğlanları, dayılarım, dayım gəlinləri də kömək edirdilər. Bir sözlə, dolanışıqdan o qədər də korluq çəkmirdim. Uşağımın geyim paltarlarını da bacılarım alırdı. Səliməgil isə hər vasitə ilə çalışırdılar ki, mən uşağı da götürüb, bu evdən baş götürüb gedim. Sən demə, onların planları varmış. Onlar bizim həyətdə oğlanlarına ev tikmək istəyirlərmiş.

Ərim türmədən çıxdıqdan sonra bir müddət bu söz-söhbətlərə ara verildi. Ərimin yumşaq xasiyyəti vardı. Məni də çox istəyirdi. Qəlbimə dəyməzdi, sözümdən də çıxmazdı. Amma o, çox sadəlövh idi, təsir altına tez düşərdi, əgər eyni sözü iki nəfər deyirdisə, o buna dərhal inanardı.

Bir gün Əsəd mənə axşam yoldaşları ilə bizə şam yeməyinə gələcəklərini söylədi. Mən də axşama hazırlıq gördüm. Həmin axşam ərim yoldaşlarıyla bizdə yeyib-içdilər. Mən bayıra çıxıb, su gətirəndə gördüm ki, həyətdəki tut ağacının arxasında kimsə var. “Ey, kimsən? Orada nə işin var?” deyə səsləndim. Adam onu gördüyümü bilib, iti addımlarla çəpərə tərəf gedərək qaranlıqda gözdən itdi. Yerişindən və paltarından onun qadın xeylağı olduğu aydın görünürdü. Suyu götürüb, evə girdim. Bu barədə Əsədə bir söz demədim. Mən istəmirdim ki, evdə yersiz söz-söhbətlər olsun. Sonra qonaqlar dağılışıb getdilər. Həmin vaxt soyuqlamışdım. Ertəsi gün Əsəd məni həkimə apardı. Həkim məni müayinə

etdikdən sonra müalicə olunmağımı məsləhət gördü və dərmanlar yazdı. Ərim həmin dərmanları aptekdən alıb gətirdi və mən evdə müalicə olunmağa başladım. Xəstə olduğuma görə, Əsəd Rusiyaya getməyi təxirə saldı. O, iki aya yaxın yanımda qaldı. Sonra yaxşılaşdım. Əsəd mənim yaxşılaşdığımı görüb, Rusiyaya getdi. Həmin vaxt oğlum artıq 1-ci sinfə gedirdi. Amma oğlumun burnundan vaxtaşırı qan gəlirdi. Nə edəcəyimi bilmirdim. Bir müddətdən sonra Əsəd qayıdıb gəldi. Qonşular, qohum-əqraba yığışıb bizə gəldilər. Qonşuluqda yaşayan Zakir adlı oğlanla ərim dostluq edirdi. Onun arvadı da bizə tez-tez gəlib-gedirdi. Ərim evdə bir həftə qaldıqdan sonra, yenidən mənə bir söz demədən, maşını minib harasa getdi.

Dörd gün olardı ki, Əsəddən xəbər yox idi. Həmin vaxt oğlum Nicatın burnundan yenə də qan gəldi. Mən əlacsız qalıb, Əsəddən xəbər tutmaq üçün ərimin dostu Zakirgilə getdim. O, evdə yox idi. Bu barədə Zakirin həyat yoldaşı Vəsiləyə söylədim. Ona dedim: "Əsəd evdən çıxanda haraya getdiyini mənə söyləməyib. Bəlkə, Zakir onun haraya getdiyini bilir. Nicatın burnundan tez-tez qan gəlir, nə edəcəyimi bilmirəm. Əgər Zakir Əsədin yerini bilirsə, ona oğlunun xəstə olduğunu çatdırsın. Bundan sonra o, harada olsa, mütləq qayıdıb evə gələr."

Həmin vaxt bətnimdə artıq Əsədin ikinci uşağını daşıyırdım. Əvvəlki müalicələr də heç bir nəticə vermədi. Bu zaman Vəsilə çəkinə-çəkinə mənə söylədi ki, Zakir Əsədin harada olduğunu bilir. Çünki əri onun yanına tez-tez gedib-gəlir. Vəsilə onu da qeyd etdi ki, bu xəbərin ondan çıxdığın heç kəs bilməsin. Zakir yoldaşına tapşırıbmış ki, onun Əsədin yerini bildiyini Aybəniz duymamalıdır. Mən bunu başa düşə bilmirdim ki, Zakir Əsədin yerini məndən niyə gizlədir. Mən də qaynanama dedim ki, kənddən Rusiyaya gedən digər uşaqlardan Əsədin yerini soruşsun. Bəlkə, başına bir iş gəlib. Yoxsa, bu qədər müddəti niyə evlə əlaqə saxlamasın ki?! Qaynanamın da cəhd göstərməsi bir nəticə vermədi.

Bir gün küçədə təsadüfən Zakirlə rastlaşdım. Ondan Əsədin yerini bilib-bilmədiyini soruşdum. Zakir cavabında dedi: “Aybəniz, mən Əsədi səndən soruşacaqdım. Mən onun yerini bilmirəm. O, kənddən gedəni ondan xəbərim yoxdur.” Bu sözdən sonra daha ondan heç nə soruşmadım...

Nəhayət, Səliməgil mənim hamilə olduğumu bildilər. Onu da deyim ki, Rəsulgillə savaşandan sonra daha onlarla danışmırdım. Amma qonşulardan eşidirdim ki, Səlimə hər yerdə haqqımda olmazın iftiralarını, şər-böhtanlarını danışır. Mən isə bunlara qətiyyən əhəmiyyət vermirdim.

Bir gün oğlum Nicat qaça-qaça gəlib dedi ki, Səlimənin oğlu Akif bizim döşəmənin altında nəsə axtarır. Mən evə gələndə, Akif qaçdı. O, qaçarkən ondan soruşdum ki, bizim döşəmənin altında nə axtarır? Akif dedi: “Anam deyir ki, mən onun oynaşlarını qovuram.” Bunu eşidən qaynanam uşağın üstünə acıqlandı: “ Küçük, o nə sözdür danışırsan? Ayıb deyilmi? Rədd ol, bu həyətdən! Səlimə sizi də iyrənc əməllərinə şərik edib?! Ona de ki, onun hiylələri heç zaman baş tutmayacaq. Çünki ən böyük şahid Tanrıdır. O, tutduğu çirkin əməllərinə görə, Allah qarşısında gec-tez hesab verəcək. Ona deyin ki, heç olmasa Allahdan qorxsun!”

Bir dəfə də Səlimə yenə uşaq göndərib ki, Aybənizi telefona çağırırlar. Mən onunla danışmadığımdan oğlumu göndərdim ki, görsün məni soruşan kimdir. Az keçməmiş oğlum Nicat qayıdıb dedi ki, “telefonun dəstəyi yerindəydi, Səlimə bizi aldadır, sənə kimsə zəng vurmayıb.” Sonra o, yenə də uşaq göndərdi ki, onlara gəlim, guya mənə deyiləsi sözü var. Mən onunla danışmadığım halda, onunla necə söhbət edə bilərəm. Anladım ki, bütün bunlar mənim üçün qurulan yalançı planlar imiş. Onun bu dəfəki planı ondan ibarət imiş ki, mən onlara gedim, sonra Səlimə də mənim yad bir adamla telefonla danışdığımın şahidi olduğunu yalandan qonşulara yaysın. Amma Səlimənin bu planı baş tutmadı.

Mən növbəti dəfə oğlum Nicatı rayondakı həkimə aparanda, dedi ki, uşağı hökmən Bakıya aparmaq lazımdır.

Həkim mənə Bakıda kimin yanına gedəcəyimizi də söylədi. O, dedi ki, professor Asif Məmmədov bu sahənin ən yaxşı mütəxəssisidir. Mən qərara gəldim ki, iyunun 27-də Nicatı Bakıya qardaşımla aparım. Bir gün öncə qardaşım bizə gəldi. Sabah yola çıxacaqdıq. Yol tədarükü gördüm. Həmin gecə birdən-birə sifət sinirlərim pozuldu, ağzım əyildi və qardaşım məni təcili rayon xəstəxanasına aparmalı oldu. Həkimlər bunu əsəbilərimin tamam korlanması ilə əlaqələndirdilər. On gün xəstəxanada yatdım. Evdən mənim yanıma cəmi bircə dəfə gəldilər. Xəstəxanadan çıxanda bir stəkan suyu götürməyə gücüm çatmırdı, yeməyi özüm yeyə bilmirdim. Mənim bu vəziyyətimi görən, qonşu kənddə yaşayan bacım məni öz evlərinə apardı və iki aya yaxın onlarda qalıb müalicə olundum. Özümü azca yaxşı hiss edən kimi, Nicatı da götürüb, yenidən kəndə, evimizə gəldik. Qohum, qardaş, qonşular hamı yanıma gəlib mənə ürək-dirək verir, halıma acıyır və təskinlik verirdilər. Nicatın atasından isə hələ də bir xəbər yox idi. İkinci övladım da dünyaya gəldi. Bundan sonra təkbaşına iki uşağı saxlamaq o qədər də asan deyildi.

1992-ci ilin mart ayında xəbər gəldi ki, Əsədi Qırğızıstanda tutublar. Məni və böyüklərimi oraya çağırırdılar. Mən hələ tam sağalmamışdım, həm də iki uşaqla soyuqda yola çıxa bilməzdim. Mən bir neçə ay yenə də müalicə olunduqdan sonra “nevropataloq” Piriyev qardaşıma məsləhət gördü ki, mən “iqlaterapeya” ilə müalicə olunum. Qardaşım məni Sumqayıt şəhərində yaşayan bacımgilə apardı. Məni orada təcrübəli həkim, həm də gözəl ana olan Əsmər xanım Talıbova müalicə etdi. Bir kurs müalicədən sonra həkim dönə-dönə tapşırdı ki, mənə qətiyyən əsəbiləşmək olmaz. Müalicədən sonra mən bacım ilə birlikdə kəndə qayıtdım. Həyətə girəndə, üzüm tənəklərinin söküldüyünü, suyun ayağı axan iri həcmli dəmir su borusunun yerində olmadığını görüb, qaynatam və qaynanamdan bu turbaların haraya qeyb olduğunu soruşdum. Onlar bütün bunların Rəsulun işi olduğunu söylədilər. Özü də Rəsul bunu ata-anasının sözünə baxmadan, onları saymadan

edibmiş. Bunları görcək istər-istəməz yenidən əsəbilərim pozuldu. Gördüm ki, Rəsul həyətimdəki dəmir turbaları götürüb, özünə saray tikib, altına da mal-qarası üçün ot, qışda yandırmaq üçün isə odun yığıb. Bundan başqa, mən xəstəxanada olduğum müddətdə qaynanam-qaynatam xəstələnib. Onların qulluğunu kimsə tutmayıb. Nə oğlu Rəsul, nə də ki, gəlini Səlimə bircə dəfə də olsun onlara baş çəkməyib, onlardan xəbər tutmayıb, onlara içməyə bircə stəkan su belə verməyib. Bunu görən qaynanam Sərvinaz qonşu kənddə ərdə olan qızı Tahirəni onlara qulluq etmək üçün çağırmaq məcburiyyətində qalıb. Amma həkimin mənə dediyi məsləhətləri xatırlayıb, bu barədə nə Rəsula, nə də Səliməyə bir söz demədim. Onlar hər vasitə ilə çalışırdılar ki, məni bu evdən qovsunlar və bizim həyətimizə, ev-eşiyimizə sahib çıxsınlar. Rəsulla Səlimə mənə olmazın böhtanlarını atır, məni əxlaqsız söyüşlərlə təhqir edirdilər. Bütün bunlara rəğmən mən susurdum. Başımı aşağı salıb, qardaş və bacılarımın köməyi ilə xəstə canımla iki uşağımı saxlayırdım.

Qaynatam Rəsulla Səlimənin bu cür həyasızlığını görüb, həyətyanı təsərrüfatı mənim adıma yazdırdı. Mən bu evə 1983-cü ildə gəlin gələndə, evdə adicə nə bir plitka, nə də bir maşınka yox idi. Onlar yeməyi yay-qış həyətdə ocaqda bişirirdilər. Mən ata evində işlədiyim zaman xeyli pul mükafatı almışdım. Həmin pula 2500 ədəd qırmızı kərpic aldım. Analıq məzuniyyətimə aldığım pulla də sement, qum aldım. Qardaşlarımın və bacılarımın köməyi ilə mən bu uçuq daxmanı təmir edib, ev halına saldım. Mən qışda jaket, jilet, corab, çarıq toxuyub, satırdım. Onların pulu ilə evə qaz çəkdirdim. Evdə ayrıca mətbəx tikdirdim, evi suvaqlatdırdım, şüşəbənd düzəltdirdim, su bakı aldım, dəmir boru ilə su çəkdirdim, kalonka alıb, evi isti-soyuq su ilə təmin etdirdim. Tualet tikdirdim, evə sayğac alıb, yenidən işıq çəkdirdim. Bütün bunları görən qaynatam Musa əmi haqqım olanı mənə vermişdi. Rəsul bunu eşidən kimi, dəliyə dönmüş və atasının üstünə qışqırmışdı. Qaynatam da demişdi: “Oğul, nahaq yerə

qışqırırsan. Mən həm sənin, həm də Cəmilin payını lazımınca vermişəm. Daha bundan artıq nə istəyirsiniz? Gəlinim Aybəniz bu evə gələndən bəri, mənə həm oğul, həm də doğmaca qızım əvəzi olub. Unutma ki, sizin doğma ata-ananıza göstərmədiyiniz qayğını, hörməti, övladlıq borcunu gəlinim Aybəniz bizlərə göstərdi. De görüm, nə vaxt gəlib, biz qocaların kef-əhvalını soruşmusan? Sən ancaq hər zaman özünü düşünmüsən, özünçün çalışmısan, bu günə qədər kimsəyə zərrə qədər də olsa, köməyin dəyməyib. Amma Aybəniz özü xəstə olduğu halda, yenə də bizim qayğımıza qalır, bizim hər cür nazımızı çəkirdi. Allah onun köməyi olsun. Onun bizə etdiyi yaxşılıqları unutmaq nankorluq olardı. O, xəstə olanda onu xəstəxanaya sən aparmalıydın. Çünki o, qardaşının əmanətidir. Ona sahib çıxmaq sənin borcun idi. Amma Aybənizə çətin günündə yenə də qardaşları, əmiləri, əmisi oğlanları, dayıları, bacıları həyan durdular. Buna görə sən xəcalət çəkməliydin. Sən isə gəlinimə arvadın vasitəsilə şər-böhtan atmaqla məşğul oldun. Bu haqsızlığın qarışılığını hökmən ödəyəcəksiniz! Gördüyün kimi, bu evi də Aybəniz təkbaşına öz pulu ilə tikdirdi. İndiyə kimi bizdə qaz, su olmamışdı. Onun sayəsində evimizə qaz, su çəkild. Sizin görmədiyiniz kişi işini o, gördü. Hamam, tualet tikdirdi. Əslində onun bu evdə sizdən daha çox haqqı var. Sənin gözün isə həmişə başqalarının halal malında olub. Belə işlər Allah-Təalaya xoş getməz, oğul! Haqsız iş görməkdən, başqalarına böhtan, iftira atmaqdan vaz keçin, yoxsa bunun cəzasını gec-tez çəkəcəksiniz...”

O gündən sonra Rəsul ata-anası ilə qanlı-bıçaq oldu.

1992-ci il aprelin 20-də qaynatam rəhmətə getdi. Qonum-qonşular həyətə yığışmışdılar, amma Rəsul həmin vaxt atasının ölümünü bilə-bilə maşını ilə İran sərhədinə müştəri aparmışdı. Yas mərasiminə də mollanı qonşular gedib gətirdilər. El-oba qaynatamı basdırdıqdan sonra Rəsul həyətə gəldi...

Qaynatamın ölümündən sonra Rəsulgil mənə qarşı açıq erməni siyasəti aparmağa başladılar. Onlar mənim məktub və teleqramların Əsədə çatmasına, həm də Əsədin yazdığı məktubların mənə gəlməsinə hər cür maneçilik yaradırdılar. Onlar mənə gələn məktub və teleqramları poçtdan götürürdülər. Bir sözlə, mənimlə Əsəd arasındakı əlaqələrimizi hər vasitə ilə kəsirdilər. Mən məcbur qalaraq, Əsədə yazdığım məktubları Moskvaya gedən kəndçilərimizə verib, oradan yola saldırırdım.

Əsəd Bakıya gətiriləndən sonra onunla görüşə getdim. Mən görüş zamanı hiss etdim ki, Zakir mənim barəmdə Əsədə nəsə deyib. Sonradan məlum oldu ki, ərim hələ Qırğızıstanda türmədə olarkən kənd uşaqları onun yanına gedib və ikinci uşağının olduğunu Əsədə xəbər veriblər. Əsəd də sevindiyindən türmə yoldaşlarına qonaqlıq verib. Kimsə uşaqlardan gülərək deyib ki, Əsəd qanunsuz uşağına qonaqlıq verir. Bu sözdən sonra Əsəd mənim haqqımda şübhələnməyə başlayır. Mən isə Əsədə bu söz-söhbətlərin qardaşı Rəsul və onun arvadı Səlimə tərəfindən uydurulduğunu söylədim. Əsəd atasının ölümünü artıq bilirdi. Mən isə Rəsulun yaramaz hərəkətləri barədə bircə kəlmə də olsa, ona demədim. Sonra eşitdim ki, məndən bir həftə sonra Rəsul Əsədin yanına gedib. Bu xəbəri mənə oğlum Nicat söylədi. Nicata da Rəsulun oğlu deyibmiş.

Bir gün teleqram gəldi ki, Əsəd xəstələnib. Mən Nicatı evdə qoydum, kiçik oğlumu da götürüb, bacımın qızı ilə Bakıya getdim. O, texnikuma sənəd vermək üçün gedirdi. Əsəd 11-ci kalonda yatırdı. Oraya gedib, görüş üçün ərizə yazdım. Məndən Əsədin nəyi olduğumu soruşdular. Mən də dedim ki, həyat yoldaşıyam. Onlar mənə nədənsə təəccüblə baxırdılar. Əsəd görüşə çox gec gəldi. Mənimlə çox soyuq görüşdü. Uşağı qucağımdan alıb, yerə qoydu və mənim niyə gəldiyimi soruşdu. O, dedi: “Mən səni deyil, anamın gəlməyini istəmişdim. Anamı niyə gətirmədin? Elə bilirdin ki, mən olmadığım zamanlarda sənin etdiyin əxlaqsız hərəkətlərdən

xəbər tuta bilməyəcəyəm?! Artıq mən hər şeyi bilirəm. Onu da bilirəm ki, bu uşaq mənim deyil. Bu uşağın kimdən olduğunu da mənə sən söyləyəcəksən. Rəsul mənə hər şeyi anlatdı. Qardaşımda hətta, sənin əxlaqsızlığın barədə şəkillər də var. Sən düşündün ki, mən türmədəyəm deyə, daha heç nədən xəbərim olmayacaq? Amma sənin bütün hərəkətlərin barədə mənə hər şeyi xəbər verirdilər. Sən Zakirgildə verilən qonaqlıqda iştirak etmisən. Həmin qonaqlıqda boyunbağınının necə qırıldığından da xəbərim var. Burdan birbaş rayona qayıdırsan və uşağın qan analizini mənə göndərirsən! Mən evə qayıdana kimi, sən o evi tərk etməlisən! Mən türmədən çıxandan sonra səni evdə görməyim!..” Əsədi ilk dəfəydi ki, bu cür görkəmdə görürdüm. Onun gözləri qanla dolmuşdu. Mən də nəsə demək istədim. Amma o buna imkan vermədi və dərhal çıxıb getdi.

Mən kor-peşman kəndə qayıtdım. Bütün əhvalatı olduğu kimi qaynanama danışdım. Qaynanam əsəbiləşdi, oğlunun dalısıyca əsib-coşdu. Rəsul və arvadı barəmdə yaydığı şər-böhtan və iftiralar haqqında indiyə qədər nə qardaşıma, nə də əmilərimə bircə kəlmə də söz deməmişdim. Artıq əsəbilərimi cilovlaya bilmirdim...

Bir gün qonşuluqda toy idi. Mən isə əkin sahəsində işləyirdim. Günorta vaxtı idi, gördüm ki, qaynanam məni evə çağırır. Evə gəldim. Səlimə bizim eyvanda oturmuşdu. Mən onunla danışmadığımdan Səliməyə heç fikir vermədim. O, əlində bir kağız parçası tutmuşdu. Üzünü mənə tutub ucadan dedi: “ Bunu sən yazmısan?! Bilirəm ki, sən yazmısan, çünki sənin xəttini yaxşı tanıyıram!”

Mən qaynanamdan soruşdum: “Ana, bu nə danışır?”
Qaynanam dedi: “Qızım, nə danışdığını mən də anlamıram. Guya əlindəki kağıza sən nəsə yazmısan, onu da sizin döşəmənin altından çıxardı. ”Səlimə qolumdan tutub, məni yanında oturtmağa çalışdı. Mən ona qarşı müqavimət göstərməli oldum. Belə ki, onun əlini geri itələyərək, gedib aralıda oturdum. Bundan sonra Səlimə ağzına gələn

söyüşlərlə məni təhqir etməyə başladı. Mən hələ də nə baş verdiyini anlamırdım. Birdən yadıma düşdü ki, bir neçə gün bundan əvvəl Səlimənin kiçik oğlu Akif bizim döşəmənin altında nəsə axtarırdı. Bunu həm oğlum Nicat, həm də mən özüm görmüşdüm. Hətta, həmin vaxt Akif mənə qarşı pis ifadə işlətdiyi üçün Sərvinaz xala ona acıqlanmış və onu həyətdən qovmuşdu. Mən üzümü Sərvinaz xalaya tutub dedim: "Anacan, Səlimənin əlindəki məktubu özü yazıb. Buna siz də şahid olmuşdunuz. Yadınızdadırsa, bir neçə gün bundan öncə, Akif bizim döşəmənin altında guya nəsə axtarırdı. Bax, bu məktubu həmin vaxt bizim döşəmənin altına o, qoyub. Bütün bunlar Səlimənin oyunlarıdır." Sərvinaz xala gülərək dedi: "Bilirəm, qızım, bilirəm. Görünən dağa daha nə bələdçilik." Səlimə bu dəfə də yalanının üstünün açıldığını görüb, sifəti təndirdən təzəcə çıxmış çörəyin üzü kimi qızardı. Bu zaman Səlimənin oğlu və qızı da gəldi. Onlar dedilər ki, analarını evdə çağırırlar. Səlimə ayağa qalxıb gedəndə, birdən əl atıb mənim saçlarımdan tutdu və məni həyətdə sürüməyə başladı. Bunu görən oğlu Ramin və qızı Aygün də analarına kömək edərək, məni şillə-təpiyin altına saldılar. Səsim aləmi götürmüşdü. Bunu görən qaynanam da əlindən heç nə gəlmədiyini görüb, başına-gözünə döyərək, haray-həşir qopardı və qonşuları köməyə çağırdı. Körpə uşağım çığırmağa başladı. Az qaldı ki, uşaq ayaqlar altında qalsın. Qaynanam bircə onu etdi ki, tez uşağı ayaq altından götürdü. Bu zaman qonşumuzun oğlu gəlib, məni onların əlindən aldı. Sonra Səlimə qaynanama da ağzına gələni söylədi. Bu zaman Rəsul, oğlu Rasim, böyük əmim, bir də dayım oğlu Ramil həyətə girdilər. Onlara Rəsul qabaqcadan nəsə demişdi, çünki onların hər ikisi pərt və əsəbi görünürdü. Əmim mənə yaxınlaşdı və heç nə soruşmadan sifətimə bir şillə vurdu. Mən and-aman edərək bu işdə günahsız olduğumu onlara anlatmağa çalışdımsa, kimsə məni dinləmədi. Səlimə üzünü yol ilə gedənlərə tutub deyirdi ki, daha biz bu həyasızla bacara bilmirik, axırda məcbur qalıb əmisini gətirdik ki, bu işi birdəfəlik yoluna qoysun. Sonra

Səlimənin “jildomda” yaşayan bacıları Samirə və Minayə də gəlib, çəpərin qırağında dayanaraq mənə əxlaqsız söyüşlər deməyə başladılar. Onlar səs-küyə toplaşmış adamlara yalandan deyirdilər ki, guya mən gedib Səliməni evində döymüşəm. Bu yalan idi. Əvvəla, mən onunla çoxdan idi ki, danışmırdım, ikincisi də mən onu döyə bilməzdim, çünki Səlimənin evində 6 böyük uşağı vardı. Belə olan halda mən onu necə döyə bilərdim.

Həmin gün əynimdəki təzə aldığım paltarımı Səliməgil cırıb lazımsız hala saldılar. Mən dedim ki, onlardan şikayət edəcəyəm. Onlar dedilər ki, hökumət var ki, şikayət də edəsən.

Həmin axşam dayım oğlu Rəsulu evlərinə çağırıb ki, mənim barəmdə çıxarılan şayiələrə aydınlıq gətirsin. Rəsul orada mənim haqqımda yayılan söz-söhbətlərin onun tərəfindən yayılmasına qəti etirazını bildirmiş və demişdi ki, bu şayiələri guya Aybəniz özü yayır ki, kişilər onunla maraqlansın. Dayım deyib: “Rəsul, bu söz-söhbətlər heç kimsəyə yaraşan və baş ucalığı gətirən işlər deyil. Namus hər ikimizin namusudur. Aybəniz mənim bacım qızıdır, sənin isə qardaşın arvadıdır. Belə biabırçı söz-söhbətlərə birdəfəlik son qoyun! Bu işin axırı yaxşı olmaz! Yox əgər, sənin Aybəniz barəsində əlində dəlil-sübutun varsa, qoy ortalığa, biz də lazımı ölçü götürək!” Bu sözlərdən sonra Rəsul daha bir kəlmə belə demədən çıxıb gedib.

Mən qaynanamla ikinci dəfə Əsədin yanına getdim. Qaynanam mənə qarşı olan haqsızlıqları, Rəsul, Səlimə və Zakir tərəfindən atılan iftira və böhtanları ətraflı şəkildə oğluna danışdı. Və mənim günahsız olduğumu Əsədin nəzərinə çatdırdı. Bundan sonra Əsəd bərk əsbiləşdi və böhtançıların dalısıyca hədə-qorxu gələrək dedi: “Qoy bir burdan çıxım, kimin ailəsinə şər, böhtan atdıqlarını onlara göstərəcəyəm. Xüsusən də Zakirin anasını ağlar qoyacağam. Çünki o, Aybəniz haqqında mənə olmazın yalanlarını danışmışdı. Hər dəfə yanıma gələndə, o mənə ancaq Aybənizdən danışırdı.

Mən də onun yalanlarına inanmışdım. Onlar kimdilər ki, ailəmi, uşaqlarımı ləkələyirlər. Mən onlara göstərəcəyəm! Mənim ailəmə kimsə bir söz deyə bilməz! Deməli, mən içərdəyəm deyə, hər kəs ağzına gələni danışır, eləmi? Burdan çıxandan sonra o, alçaqlardan bunun hamısının hesabını soruşacağam!"

Biz Əsədi güclə sakitləşdirdik. Görüşdən sonra qaynanamla yenidən kəndə qayıtdıq.

Əsəd 24 avqust 1992-ci ildə türmədən buraxılıb evə gəldi.

Ertəsi gün səhər tezdən bir də gördük ki, Səlimə Əsədin gəldiyini bilib, yenə də həyəti başına götürüb, ağzına gələni danışır, mənim ardımca əxlaqsız söyüşlər söyləyir. Əsəd bunu eşidən kimi, onlara yüyürmək istədi, amma qaynanam oğlunun qarşısını kəsib dedi: "Əsəd, bala sən o, ifritəyə baş qoşma, qoy nə qədər danışır, danışsın. O bu həyətə qan salmaq istəyir. Sən ona fikir vermə. Onun məqsədi hamımıza aydındır. Qoy o, it kimi hürsün özüyçün. Sən onlara baş qoşma. O, çalışır ki, sən nəsə deyəsən, ondan sonra arılar kimi tökülüşsünlər bu həyətə. Ona görə də onun dediklərinə əhəmiyyət vermə. Başını aşağı salıb, öz işinlə məşğul ol, oğul." Bundan sonra Əsəd anasının sözündən çıxmadı. Mən də həyətdə işimlə məşğul olmağa başladım. Əsədin türmədən çıxdığını eşidən bütün qohum-əqraba, tanışlar, qonşular, kənd camaatı gəlib, ərimə "keçmiş olsun" dedilər. Rəsul isə qardaşının gəlişini eşitsə də, gəlib ona baş çəkmədi.

Cümə axşamı ailəlikcə həyətdə oturub söhbət edirdik. Bu zaman qonşumuz İlham bizə gəldi və Əsədə dedi ki, gedək bir az təmiz hava alaq. Onların gedişindən bir saat keçmişdi. Mən həyətdə axşam süfrəsi açdım. Bir də eşitdim ki, Səlimənin səsi İlhamgildən gəlir. O, yenə də mənim, əmilərimin, əmim qızlarının ünvanına əxlaqsız söyüşlər söyürdü. Bu zaman qaynanam şam namazını qılırdı. O, namazını qılıb, qurtarandan sonra Səlimənin bizim barəmizdə dediyi ləkəli söyüşləri eşitdi. Sərvinaz xala yenə də böyüklük göstərib, Səliməyə fikir verməməyi tapşırdı. Bir az keçəndən sonra Əsəd pörtmüş və əsəbi halda evə gəldi. Onun gözlərindən qan

damırdı. Mən sakitcə yeməyi stolun üstünə qoyub, yataq otağına keçdim. Əsəd şam yeməyini yemədən yataq otağına gəldi və məni sorğu-suala tutdu: “Aybəniz, bilirəm ki, sənin günahın yoxdur. Səni boşamayacağam, sənə bir çırtma da vurmayacağam. Bilirəm, səni kimsə aldadıb, çünki sən elə qadın deyilsən. Ancaq sən bir dəfə orada olmusan. Əgər mənə düzünü deməsən, səni öldürəcəyəm. De görüm, Səlimədən səni soruşan sürücü kim olub?”

Mən dedim: “Əgər bunu sənə Səlimə deyibsə, elə isə qoy həmin sürücünün adını da desin. Məni soruşan adam gəlib, mənim həyətimdə soruşardı. Əgər belə bir şey olardısa, bunu hökmən anan da bilərdi. Əgər mənə inanmırsansa anandan soruşa bilərsən. Mənim barəmdə söz-söhbəti niyə ancaq Səlimə yayır? Niyə başqaları bircə dəfə də olsun haqqımda artıq-əksik söz danışmayıb? Sən türmədə olanda, mənim hansı əzab-əziyyətlər çəkdiyimdən xəbərin olmadı. Mən ağır xəstə idim, əsəbimindən ağzım qulağımın dibinə getmişdi, gözüm çevrilmişdi, canımla əlləşirdim. Mənə ancaq əmilərim, bacılarım, dayılarım kömək etdilər. Onlar olmasaydılar, mən çoxdan ölmüşdüm. Anan Allah şahididir. Bütün bu olaylar hamısı torpaq üstündədir. Qardaşın bizim həyəti də almaq istəyirdi. Onlar məni bezdirib, bu evdən qaçırtmaq istəyirdilər. Rəsul ilə Səlimə başıma olmazın müsibətlərini gətiriblər. Amma rəhmətlik atan Rəsulun cavabını verəndən sonra o, atan ilə də düşmən kəsildi. Məni həyətdə döydülər, saçımdan tutub sürüdülər. Anan olmasaydı, kiçik oğlum Səlimənin ayaqları altında qalacaqdı. Mən bütün olanları sənə deyib, qanını qaraltmaq istəmirdim. Sən isə yenə də başqalarının yalan sözlərinə inanıb, məni günahkar çıxarmaq istəyirsən. Bax, gör qardaşın mal-heyvan tövləsini harada tikib? Heç kimə demədən, o sənin yerində həm də tualet tikib. Atan qardaşlarının torpaq payını verib. Rəsul istəyir ki, sənin də torpağına şərik olsun. O, deyirdi ki, onun dörd oğlu var və bu həyətdən onlara da pay düşməlidir. Torpaq üstündə Rəsul hər gün qoca atanla savaşırdı. O, istəmirdi ki, atan sənə bu

həyətdən torpaq versin. Atanın bütün mülkünə o, sahib çıxmaq istəyirdi.Onlar mənim barəmdə yalandan böhtanlar, iftiralar söyləyirdilər ki, mən acıq edib, bu evdən gedim. Amma mən bu evdə atanın, ananın, uşaqlarımın və bir də sənin xatirinə qaldım. Sizə görə bu evi tərk etmədim. Rəsul təkcə mənə deyil, hətta əlil əmimə də böhtan atmışdı. Guya, əmim gecə vaxtı onun qarajına girib. Halbuki yazıq əmim yaxınlıqdakı bərbərxanaya gedənə qədər yarım saat vaxt çəkir."

Həmin axşam Əsəd məni dinlədikdən sonra daha bir söz demədi. Səhərisi o, evdən çıxıb harasa getdi. Və axşamtərəfi yenidən qayıtdı. Əsəd yenə də əsəbi görünürdü. O məni yataq otağına çağırdı, qapını arxadan bağladı və bir söz demədən yumruğunu işə saldı. Ərimdən məni niyə vurduğunu soruşdum. O, dedi ki, mən ona düzünü deməmişəm, onu aldatmışam. Bildim ki, yenə də onun qulağını kimsə doldurub. Səsə qaynanam gəldi, oğlunun üstünə qışqırdı: "Bəsdir, Əsəd, bəsdir! Mən gəlinimə inanıram. Oğul, başqalarının sözü ilə oturub-durma. O, adamlar səni istəməyənlərdir ki, Aybənizin haqqında bohtanlar söyləyirlər. Sən onlara inanma! Onlar sənin evini dağıtmaq istəyirlər. Sənin gül kimi iki balan var, heç olmasa onlara yazığın gəlsin!"

Bu dəfə Əsəd anasını dinləmədi. O, dedi:

- Ana, Aybəniz daha bu evdə yaşaya bilməz, çünki o mənə yalan söyləyib.
- Hardan bilirsən ki, Aybəniz sənə yalan söyləyib? Sənin qulağını yenə kim doldurub, evə göndərib? Başqalarının yalan sözlərinə inanmaqdan usanmadınmı?! Oğul, Aybənizdən ötrü müqəddəs kitabımız olan Qurani-Kərimə də and içə bilərəm. Gəl, sən Aybəniz barədə haqsız günaha batma, sonra peşman olarsan. Sənin evini öz əlinlə yıxmaq istəyirlər. Niyə bunu görmək istəmirsən?! Rəhmətlik atanı da Rəsulla Səlimə çərlədib öldürdülər!
- Yox, ana, Aybəniz bu evdən getməlidir!
- Oğul, gəl daşı tök ətəyindən. İnadkarlıq etmə! Ananı dinlə. Ana balasına heç zaman yalan söyləməz. Mənə inan! Aybəniz

sənin kəndində ən namuslu, ən ləyaqətli, ən işgüzar, ən hörmətli, ən bacarıqlı, ən səliqəli və ən zəhmətkeş gəlindir, həm də çox mehriban, qayğıkeş anadır. Əsəd, gəl şeytana uyub, günah işlətmə!

- Ana, dedim ki, Aybəniz bu evdən bu gün, elə bu dəqiqə getməlidir! - Əsəd vəhşi heyvan kimi bağırdı.

- Axı, niyə getməliyəm? Günahım varsa, onu sübut elə, mən də bilim. Əgər günahımı sübut eləsən, dinmzə-söyləməz uşaqlarımı da götürüb gedərəm.

- Sübut etməyə heç bir ehtiyac yoxdur. Sən burdan rədd olub getməlisən! Uşaqlar isə burada qalacaq. Tək gedəcəksən! - Əsəd yenə qəzəblə çığırdı.

- Uşaqlar mənsiz, mən də uşaqlarsız qala bilmərik, Əsəd. Sən Allah uşaqları da ver, özümlə aparım - dedim.

- Dedim ki, sən bu evdən təkcə itilib, getməlisən! Sənin burada daha yerin yoxdur! - Əsəd ucadan qışqırdı.

Mən mübahisə etməyin yersiz olduğunu anladım. Çünki Əsəd barəmdə artıq qərarını vermişdi. Ona görə də qaynanamla görüşüb, gecəykən əmimgilə gəldim. Gedərkən qaynanam məni qucaqlayıb ağladı və dedi:

- Qızım, sən heç narahat olma. Allah-Təala gec-tez sənə nahaqdan böhtan atanların cəzasını verəcək!

Əmim məndən uşaqları niyə gətirmədiyimi soruşdu. Mən də əhvalatı olduğu kimi ona söylədim. Əmim əsbiləşdi:

- Deyəsən, bunlar lap ağını çıxardılar. Başa düşmürlər ki, kimsə sahibsiz deyil. Aybəniz, sən fikir eləmə. O, Əsəd də bir ay keçməz it kimi peşman olub, özü sənin ayağına gələcək. O zaman görəcəyik, o mənə nə cavab verəcək?

Mən analıq məzuniyyətində olan süpürgəçi Aynişanın yerində bir neçə aylıq işləməyə qərar verdim. Kimsəyə yük olmaq istəmirdim, zəhmətimlə qazandığım çörəyi yemək istəyirdim. Evdən ayrıldığımın on beşinci günü idi. Bir də gördüm ki, Əsəd gəldi və məndən utanırmış kimi, başını aşağı dikib astadan dedi:

- Əlindəki süpürgəni at, evə gedək. Uşaqlar xəstədir, anam onları saxlaya bilmir. Balaca İlqar da ağlayaraq, hey səni soruşur.

Mən briqadirimizə uşaqlarımın xəstə olduğunu, həyat yoldaşımın dalımca gəldiyini ona söylədim və ondan getmək üçün icazə aldım. Avtobus dayanacağına kimi Əsədlə birlikdə gəldik. Tanış adamlardan kimsə qarşıma çıxmadı ki, ondan əmimgilə sifariş göndərib, kəndə getdiyimi söyləyim. Dayanacaqda Mədinə xalanı gördüm. Ona dedim ki, uşaqlar xəstədir, yoldaşım gəlib, onunla kəndə getdiyimi əmimgilə xəbər versin. Bu zaman yanımızda bir qırmızı rəngli maşın dayandı. Əsəd mənə dedi ki, evə bu maşınla gedəcəyik. Biz həmin maşına mindik. Maşın çaya yaxınlaşanda, Əsəd sürücüyə dedi ki, maşını meşəyə tərəf sürsün. Mən gördüm ki, sürücü maşını kənd yolundan kənara çıxarıb, başqa istiqamətə döndərdi. Mən bunu görcək ucadan qışqırdım:

- Qardaş, sən Allah oraya sürmə! Maşını saxla, mən düşüm, ərim məni öldürmək istəyir!

Bu zaman sürücü üzünü Əsədə tutub dedi:

- Bəs deyirdin, hər şey sakitliklə həll olunacaq?
- Maşını saxla, yoxsa özümü yerə atacağam! - deyə yenidən qışqırdım.
- Bacım, bir sakit ol! - sürücü dedi.

Mən maşının qapısını açmaq istədim, ancaq qapılar bağlı idi. Mən bir əlimlə “knopkanı”, bir əlimlə də qapının ruçkasını açdım. Əsəd bunu gördü və əl atıb, qolumdan tutdu. Sürücü maşını saxladı. Mən özümü yerə atdım, Əsəd də arxamca yerə düşdü. Mən dönüb maşının nömrəsinə baxmaq istədim, ancaq Əsəd buna imkan vermədi. O, tez əllərimi tutub, arxaya qavırdı və üzümü meşəyə tərəf çevirdi. Əsəd məni itələyə-itələyə meşənin dərinliklərinə tərəf aparmağa başladı. Mən ona müqavimət göstərirdim. Ona yalvardım ki, məni öldürməsin. Ona heç bir günahımın olmadığını söylədim, nahaqdan onun qatil olmasını istəmirdim. Ondan heç olmazsa balalarına yazığı gəlməsini rica etdim. Ərimə yalvardım ki,

uşaqlarımı yetim qoymasın. Əsəd isə yalvarışlarıma məhəl qoymayaraq, məni sürüyə-sürüyə meşəyə tərəf aparırdı. Əsəd bərkdən bağırdı:

- Mən əvvəlcə sənin sağ qolunu, sonra isə sol qolunu sındıracağam ki, mənə düzünü deyəsən. Əgər düzünü deməsən, səni öldürəcəyəm. İndi de görüm, kiminlə olmusan? Düzünü desən, sənə heç bir şey etməyəcəyəm. De görüm, o, adam kimdir? Bilirəm ki, o, adam mənim düşmənimdir, mənə görə səni yoldan çıxarıb. Onun adını söyləsən, canını bağışlayacağam.

Mən and-aman etdim:

- Əsəd, nəyə deyirsən and içim ki, mən sənə heç bir zaman xəyanət etməmişəm. Sənin qulağını yalanlarla doldurublar. Bu bohtanın, iftiranın adıma kim tərəfindən atıldığını sən də yaxşı bilirsən. Gəl, nahaqdan günaha batma! Əgər həmin adamı tanıyırsansa, söylə, mən də bilim. Əgər bu doğru olarsa, o zaman mən özüm-özümü öldürərəm. Bir də ki, mən kənddə nəslimizin başını aşağılayan heç bir əksik hərəkət etmərəm. Heç vaxt isəmərəm ki, qardaşım, əmilərim, dayılarım, qohum-əqrabam el içində, kənd arasında rüsvay olsun. Rəsul getsin, bacısının dərdini çəksin, onun etdiyi əxlaqsız hərəkətlər barədə bütün kənd danışır. Rəsul da istəyir ki, nəslimizi ləkələsin. Əmilərim, qardaşım, dayılarım gəldi Rəsula dedilər ki, Aybəniz haqqında deyilənləri sübut etsin. Rəsul isə heç bir söz deyə bilmədi. Həmin vaxt gülməşəkər qardaşın başını aşağı salıb, susdu.

Sözümü qurtarmamış Əsəd qolumu mökəm burdu, hiss etdim ki, qolum sındı, ağrıdan bağırdım. Səsim meşədə əks-səda verdi:

- Əsəd, bunu bilməlisən ki, sənin əsl düşmənin qardaşın Rəsul və onun arvadı Səlimədir. Mən sənə indiyə qədər nə vaxt yalan demişəm?! Sən uşaqlarımın atasısan, sənə necə xəyanət edə bilərəm?! Bir düşün! Sən hələ qardaşın arvadının necə qadın olduğunu yaxşı bilmirsən. Sən türmədə olanda, onların Sərvinaz xala ilə Musa əminin başına gətirdikləri

olmazın oyunlarından sənin xəbərin yoxdur. Qardaşlar arasına qan düşməsin deyə, bütün bunları sənə söyləmədim. Bütün bunlar qardaşın arvadı Səlimənin uydurmasıdır.

Bu zaman Əsəd əl atıb boğazımdan yapışaraq, möhkəm sıxdı, nəfəsim kəsilirdi, xırıldamağa başladım. O, xırıldadığımı görüb, boğazımı buraxdı və yenidən sorğu-suala tutdu. Bu zaman o, səs eşitdi. Əsəd məni tez iri kolluğa itələdi ki, kimsə görməsin. Amma deyəsən, gələn yox idi. O məni kolluqdan çıxardıb, yenidən işgəncə verməyə başladı. Mən taqətdən düşmüşdüm, ayaq üstündə dura bilmirdim, başım hərlənirdi. Birdən gözlərim qaraldı, başım üstə palçıqlı dərin kanala yıxıldım. Ayılanda başımın üstündə Əsədin dayandığını gördüm. Deyəsən, o, etdiyi hərəkətə görə peşman olmuşdu. O, dedi ki, məni evə aparacaq. Üst-başım palçıq idi. Bu halda evə necə gedəcəkdim?! Mən dedim ki, indi bu halda onlara gedə bilmərəm. Yaxşı olar ki, əmimgilə gedim. İndi onlar məni axtarırlar. Mən saat 5-də evdə olmalı idim. Əsədə dedim:

- Əsəd, əgər məni kəndə aparsan, sənin barəndə şikayətçi olmaram. Bu barədə kimsəyə bir söz deməröm.

Əsəd razı oldu. O məni kəndə gətirdi.

Mən Rəsul və arvadı Səlimə barədə mənə bohtan atdıqlarına görə, dəfələrlə polisə şikayət etmişdim. Amma buna baxmayaraq, indiyə kimi onlar haqqında heç bir tədbir görməmişdilər. Sonradan məlum oldu ki, onlar polisləri də qandırıblar ki, guya mən əxlaqsız qadınam və mənə baş qoşmasınlar.

Bu hadisədən az müddət keçəndən sonra yerli hökumətlə özümə əyin-baş götürmək üçün evimə gəldim. Gördüm ki, evimin səliqə-sahmanı pozulub, qızıl-zinət əşyalarım, palaz, xalça, yorğan-döşək, divar örtüklərim, balışlarım, pərdələrim, 29 metrlik “daroşka”larım, bir sözlə, evdə nə qiymətli əşyalarım varsa, hamısını daşıyıb aparıblar. Məlum oldu ki, Əsəd iştirakım olmadan, məhkəmə yolu ilə məni boşayıb, özü də harasa çıxıb gedib. Onlar kiçik oğlumu da məndən gizlətdilər və yerini söyləmədilər. Nicatı özümlə aparmaq istədim, amma

onu da vermədilər. Mən kor-peşman yenidən əmimgilə qayıtdım.

1992-ci il dekabrın əvvəlində bir də gördüm ki, Nicat əynində bir mayka ilə əmimgilə gəldi. Mən onu bu halda görəndə, bir ana kimi ürəyim sızladı, qəzəbləndim. Nicatı geri göndərdim ki, gedib paltarlarını alıb gətirsin. Nicat yenə də lüt qayıdıb üstümə gəldi. Uşaq dedi ki, Rəsulun uşaqları ona paltarlarını vermədilər. Sonra Rəsul məndən polisə şikayət edərək bildirib ki, guya mən onun evinə daş atmışam. Məni polisə çağırdılar. Mən də izahatımda yazıb göstərdim ki, Rəsulgil mənə bohtan atır və yalandan şikayət ediblər. Sonra mən südəmər körpəmi onlardan almaq üçün məhkəməyə müraciət etdim. Qanunla hər iki uşaq anada olmalı idi. Amma onlar haqsız yerə uşaqları anadan zorla alaraq, qanunsuz hərəkətə yol vermişdilər. Üç dəfə məhkəmə oldu.

Nəhayət, 1993-cü ildə mən qanuni yolla uşaqlarımı onlardan geri aldım. Rəsulgil uşaqlarımı mənə qarşı öyrətmişdilər ki, guya mən onların anası deyiləm, onların anası ölüb. Mən isə bütün bunlara dözür, səbr edirdim.

Bir müddət keçəndən sonra kənddən mənə xəbər göndərdilər ki, gəlib cehizlərini aparsın. Mən də dedim ki, evdə cehiz qoyublar ki, gedib nəsə gətirim? Sonra Əsəd deyib ki, bəlkə onun yenidən bu evə gəlmək fikri var. O bunu ancaq yuxusunda görə bilər. Bir də eşitdim ki, min bir əzab-əziyyətlə tikdiyim evi yandırıblar. Daha bu qədər də vicdansızlıq olmazdı, onlar mənim başıma gətirdilər. Mənim illər uzunu çəkdiyim zəhməti heç eylədilər. Amma mən buna da dözdüm.

Bir dəfə yol ilə Nicatı məktəbə aparanda, Rəsulun oğlu Akif maşını üstümüzə sürdü. Oğlum Nicat bərk qorxmuşdu. Əsəd mənə dəfələrlə sifariş göndərmişdi ki, gəlib məni qaldığım yerdə öldürəcək. Daha sonra öyrəndim ki, Rəsulgil məni analıqdan məhrum etmək üçün məhkəməyə müraciət ediblər. Rəsul dayısı oğlu Oktayla məhkəməyə gəlib, vəkillə mənim barəmdə olmazın haqsız söhbətlərini ediblər. Onlar vəkilə çoxlu pul təklif ediblər ki, məhkəmə məni analıqdan məhrum

etsin. Amma vəkil nədənsə onlardan şübhələnib və onları otağında sorğu-suala çəkib. Onlar and-aman ediblər ki, guya məndən daha boğaza yığılıblar, el içində biabır olublar. Guya mən əxlaqsızın, pozğunun birisiyəm, dayılarım, əmilərim, qardaşım, bütün qohum-əqrabam məndən üz döndərib. Bu zaman kəndçilərimdən biri notariusda sənəd təsdiq etdirirmiş. O, söhbətin mənim barəmdə olduğunu eşidib, ayaq saxlayaraq vəkillə onlar arasındakı danışığın şahidi olub. Axırda Rəsul vəkilə deyib ki, nə edirsənsə et, ancaq bizi bu qancığın əlindən qurtar. Bunu eşidən kimi, kəndçimiz İltifat içəri girib, üzünü Rəsula tutub onun cavabını layiqincə verib. O, deyib:

- Rəsul, Aybəniz sənin bacının tayı deyil. İndicə dediyin o əxlaqsız sözlərə Aybəniz deyil, bacın Tahirə layiqdir. Bütün kənd sənin bacını da, Aybənizi də yaxşı tanıyır. Bəsdir, yazıq qız haqqında bu qədər bohtan atdınız! Sizin heç Allahdan qorxunuz yoxdur?! Niyə o, qızı evindən-eşiyindən didərgin salmızınız? Niyə onların evini dağıtmısınız? Allah-Təala bu cür haqsızlığın əvəzini gec-tez sizdən alacaq!

Sonra İltifat Rəsulgilin mənim başıma gətirdikləri müsibətləri yerli-yataqlı vəkilə danışıb. Allah onun köməyi olsun. Bundan sonra vəkilə həqiqət aydın olub və işi götürməkdən vaz keçib.

Bir müddət keçdikdən sonra ailəmin dağılmasında, iki azyaşlı uşağımın qapılara düşməsində, əmlakımın dağıdılmasında, evimin yandırılmasında Rəsulun və onun ailə üzvlərinin günahkar olması barədə rayon məhkəməsinə şikayət ərizəsi yazdım. Məhkəmənin keçirilməsinə Rəsulgil bilərəkdən hər vasitə ilə maneçilik törətməyə çaslışırdılar. Onlar məhkəməyə gəlməyərək, qəsddən onun müddətini uzadırdılar. Sonradan bizə məlum oldu ki, Rəsul məhkəməyə çoxlu pul verib. Ona görə də, iş bu qədər uzanırmış. Biz işin yubanması barədə məhkəməyə müraciət etdikdə, onlar dedilər ki, guya bu barədə hələ ki məhkəmə təhqiqatı davam edir.

Bir gün eşitdik ki, Rəsulun on dörd yaşlı oğlunu maşın vurub öldürüb. Mən ürəyiyumşaqlıq edib, məhkəməni təxirə

saldırdım. Bu hadisəyə görə üzüldüm. Övlad acısı ağırdır. Allah heç düşmənimə də övlad dağı göstərməsin.

Bir ildən sonra Rəsulu da narkotika üstündə həbs etdilər. Sonra Səlimə sağalmaz xəstəliyə düçar oldu. Həkimlər onun ömrünə 6-7 ay qaldığını söyləyiblər. İndi o, evdə oturub, həyatının son günlərini sayır...

Bu hadisədən sonra Əsəd Rusiyadan qayıdıb gəldi. O, əmimgilə gələrək, bizdən və əmimdən üzr istədi, mənə qarşı etdiyi hərəkətlərdən son dərəcə peşman olduğunu bildirdi. Əsəd etiraf etdi ki, bütün olanların əsas səbəbkarı qardaşı Rəsulla onun arvadı Səlimə olublar. O zaman məni dinləsəydi, indi ailəsi bu günə qalmazdı. Hər halda ziyanın yarısından qayıtmaq da xeyirlidir. Allah-Təala hər şeyi yoluna qoydu. İndi ailəmizlə yenidən bir yerdəyik. Həyatın bütün ağrı-acıları artıq geridə qaldı. Həyat yenə də əvvəlki tək öz axarıyla davam edirdi...

**24.09.2013.**

# Həyat üzümə gülmədi

(Həyat hekayəsi)

***“İnsan öz varlığını, ölüm qorxusunu müəyyən edir. Daim həyəcanda və təhlükədə olmaq insanın yarandığı gündən ömrünün axırına kimi onun yol yoldaşıdır. İnsan heç zaman qorxudan xilas ola bilmir. Ən yaxşı halda belə o bu qorxunu bir qədər azalda bilir. Mən indi başa düşə bilirəm ki, daim həyəcan keçirmək, qorxu və iztirablar içində yaşamaq insanın əsl mahiyyətidir.”***

**M**ən də başqaları kimi həyatda sevib-sevilmək, xoşbəxt olmaq istəyirdim. Ancaq ailəmizdə elə vəziyyət yaranmışdı ki, kiminləsə ailə qurmaq məsələsini ancaq valideynlərim, xüsusən də atam həll edirdi. Ailədə üc bacı, iki qardaş idik. Ucqar dağ rayonunun bir kəndində yaşayırdıq. O zaman kəndimizdə üçuq-sökük bir səkizzillik məktəb vardı. Kimsə bu məktəbi bitirdikdən sonra, təhsilini davam etdirmək istəyirdisə, o, bizim kənddən 7-8 kilometr aralıda yerləşən qonşu kənddəki orta məktəbə getməli idi. Mən isə kəndimizdəki məktəbin yalnız dördüncü sinfini bitirdim. Bundan sonra atam məni bir daha məktəbə getməyə buraxmadı. Mənim isə oxumağa böyük həvəsim vardı. Müəllimlərim də dəfələrlə evimizə gəlib, atamdan mənim məktəbə gəlməyimi xahiş etmişdilər. Amma hər dəfə də atam qapımıza gələn müəllimlərə: “Qız uşağı hara, oxumaq hara?!” deyərdi. Atam mən də daxil olmaqla, bacılarımın heç birisinin orta təhsil almasına imkan vermədi. Beləliklə, uşaqlıq arzularımızı, xəyallarımızı erkən yaşda qəlbimizdə əbədi dəfn etdik. Hər bir insan uşaqlığını yaşamalıdır, yoxsa yaşanmayan bu arzular gələcəkdə daxildə “travma”ya çevrilərək, yaşadığın müddətcə sənə əzab verir.

Bəzən belə "travma"lar sakit təbiətli adamı, aqressiv bir insana çevirə bilir. Məndən böyük bacılarımı atam ərə verəndən sonra növbə mənə çatdı. Digər bacılarım kimi, atam məni də sevmədiyim, xasiyyətinə bələd olmadığım, yaşca məndən 10 il böyük olan bir adama ərə verdi. Rəşid əvvəllər Rusiyada olmuşdu, ancaq orada işləri düz gətirmədiyindən yenidən kəndə qayıtmışdı. Bilirsiniz ki, sevmədiyin birisi ilə yaşamaq hər bir bəşər övladı üçün cəhənnəm əzabıdır. Düzü, mən kəndimizə başqa yerdən gələn, məktəbimizdə riyaziyyat fənnindən dərs deyən, mənlə həmyaşıd olan cavan müəllimi sevirdim. Amma onun bu gizli sevdamdan xəbəri yox idi. Vaqif müəllim kənd soveti tərəfindən ona ayrılmış evdə, Pakizə xalagildə qalırdı. Pakizə xalanın iki oğlu var idi. Onların hər ikisi ali təhsil almışdılar, şəhərdə yaşayırdılar. Oğlanları arada analarına baş çəkməyə gəlirdilər. Pakizə xala Vaqif müəllimin yeməyini hazırlayır, pal-paltarını yuyurdu.

Bir axşam mən evdəkilərdən xəbərsiz yemək hazırlayıb, Pakizə xalagilə getdim və yeməyi xalaya verdim ki, Vaqifə yedizdirsin. Amma yeməyi mənim gətirdiyimi müəllimə bildirməməsini Pakizə xaladan dönə-dönə xahiş etdim. Bu hadisə hələ mən ərə getməmişdən əvvəl baş vermişdi.

Bir dəfə də Vaqif müəllim məktəbdə olanda Pakizə xalagilə getdim. Gördüm ki, o, həyətdə müəllimin paltarlarını yuyur. Mən Pakizə xalaya kömək etmək məqsədilə ondan paltarları yumağımı xahiş etdim. Pakizə xala gülərək xahişimi yerə salmadı və əlini paltar yuyulan vannadan çəkib:

- Elə isə mən də bir çay dəmləyim, ana-bala içərik - dedi.

Mən paltarları yuyub, qurumaq üçün ip üstünə sərdiyim zaman Vaqif müəllim gəlib çıxdı. Düzü, müəllimin qəfil gəlişindən Pakizə xala da çaşıb qaldı. O, Vaqif müəllimdən soruşdu:

- Oğlum, xeyir ola, bu gün nə tez gəldin?!

- Pakizə xala, dərs zamanı nədənsə özümü çox pis hiss etdim. Həmkarım məni əvəz etdi. Direktor evə gedib, bir az dincəlməyimi məsləhət bildi. Başım bərk ağrıyır. Heç bilmirəm

nədəndir. Tibb məntəqəsinə də getdim. Kənd həkimi Əflatun mənə bir ağrıkəsici dərman verdi, ancaq o da işə yarımadı.
- Oğlum, sən heç narahat olma, mən onun çarəsini bilirəm. İndi sənə bir qəşəng kəklikotulu çay dəmlərərm, sən də içərsən. Ondan sonra baş ağrısından əsər-əlamət qalmayacaq.
- Pakizə xala , deyirsiniz bu işə yarıyacaq?
- Əlbəttə, yarıyacaq. Bu resepti artıq xalan çoxdan sınaqdan çıxarıb. Hə, tanış etməyi unutdum. Vaqif, oğul, bu qonşumuz Nərgiz baladır. Bax, bu paltarların hamısını əlimdən alıb o, yudu, mənə imkan vermədi.
Mən utandığımdan başımı aşağı dikib, dərsini bilməyəm şagird kimi Pakizə xalanın yanında dayanmışdım.
- Çox şad oldum, Nərgiz xanım. Böyük zəhmət çəkmisiniz.
- Heç bir zəhməti yoxdur, mən sadəcə Pakizə xalaya kömək etmək istədim, - deyə başımı qaldırmadan dilləndim.
- Pakizə xala , mən bir az uzanım, bəlkə başımın ağrısı ötüb keçdi. Məni bağışlayın, Nərgiz xanım, - Vaqif müəllim üzünü mənə tutub üzrxahlıq etdi.
- Yaxşı, oğlum, sən get, uzan, istirahət et. Mən də kəklikotulu çayı həmən dəmləyirəm. - Pakizə xala əl-ayağa düşdü.
Mən Pakizə xalayla sağollaşıb, evimizə getmək istərkən:
- Hara gedirsən, Nərgiz? Görmürsən, çay dəmləyirəm. Dəmlədiyim kəklitotulu çaydan içməmiş səni heç haraya buraxan deyiləm. - Pakizə xala mənə evə getməyə icazə vermədi.
- Pakizə xala, yaxşı düşməz, qonşulardan görən olar. Sonra adıma söz çıxararlar. Kəndimizin adamlarının xasiyyətini məndən yaxşı bilirsən ki. Atam eşidər, mənimçün heç də yaxşı olmaz, - deyə mən qalıb, çay içməyə qəti etiraz etdim.
- Elə isə başqa zaman səni hökmən gözləyəcəyəm. Mən də tək qalıb darıxıram, vaxtın olan kimi, bizə baş çəkərsən. Sən haqlısan, qızım. Yersiz söz-söhbətdən, dedi-qodudan mənim də zəhləm gedir. Yaxşı get, ancaq məni yaddan çıxarma ha! - Pakizə xala məni həyətin başına kimi ötürdü.

Evə gəldim. Yaxşı ki, atam evdə deyildi. Mən boş otaqların birinə girib, çarpayıda uzandım və Vaqif müəllim haqqında düşünməyə başladım. İçimdə indiyə qədər hiss etmədiyim, duymadığım qəribə hallar baş qaldırdı.Hiss edirdim ki, ürəyim tez-tez döyünür, həyəcanlanıram, üzümdə qəribə təbəssüm yaranır, gözlərimin önündə tez-tez Vaqifin gülümsəyən sifəti canlanırdı. Darıxmağa başladım, sıxıldım, otaq mənə darısqal gəldi, nəfəs almağım çətinləşdi, sanki otaqda hava çatışmırdı. Tez yerimdən qalxıb, həyətə düşdüm, bağçaya girdim. Gülləri qoxuladım, dərindən bir neçə dəfə nəfəs aldım. "Axı məndə heç zaman belə bir hal olmamışdı. Niyə birdən-birə canım sıxıldı?" deyə düşündüm.

Ertəsi gün yenidən Pakizə xalagilə getmək istədim. Amma oraya getmək üçün bir bəhanə tapa bilmədim. Məni oraya çəkib aparanın hansı qüvvə olduğunu çox-çox sonralar anladım. Anladım ki, bu istək imiş, bu bir sevgi imiş. Yəni heç kimin bilmədiyi, duymadığı, hiss etmədiyi gizli bir eşq yaşamışam həmin vaxt. O zaman mən hara eşq, məhəbbət hara. Mən bütün bunları sonradan anladım. Mən hər dəfə Vaqif müəllimi görəndə, özümdən asılı olmayaraq nitqim tutulur, danışa bilmir, bədənim titrəyirdi. Pakizə xala bunu Vaqifə utandığım üçün bu hala düşdüyümü izah edirdi. Vaqif müəllim isə həmin vaxt sadəcə gülümsəyərdi. O, güləndə sifəti daha da cəlbedici görünürdü...

Rəşidlə evlənməyimizdən 3 il keçməsinə baxmayaraq, hələ də uşağımız olmurdu. Hər ikimiz ayrı-ayrı həkimlər tərəfindən müalicə olunmağımıza baxmayaraq, nəticəsi olmadı. Conradan qadın həkimim dedi ki, problem sənin kişindədir. Mən bunu Rəşidə söyləyəndə, o mənim üstümə bərk qəzəbləndi. Dedi ki, onda heç bir problem yoxdur. Bir il də ötüb keçdi. Rəşid içkiyə qurşanmışdı. Buna görə atam onu bir neçə dəfə məzəmmət etmişdi. Amma ərim atamı da dinləmədi. Atama cavabında dedi ki, o, kefindən deyil, dərdindən içir. Beynimdə heç kəsin ağlına gəlmədiyi bir fikir dolaşırdı. Əlbəttə, bu çox riskli bir plan idi. Bu işi etsəydim və kimsə bundan

xəbər tutsaydı, o zaman gərək özümü öldürərdim. Amma gələcəkdə ailəmin dağılmaması üçün mən bu planı həyata keçirməyə qərar vermişdim. Biz qadınların beyninə nə düşdüsə, onu etmək üçün hər vasitəyə əl atırlar. Hətta, bu onların həyatı bahasına başa gəlsə belə.

Bir gün yuxu dərmanı əldə etdikdən sonra, bir bəhanə ilə yenə də Pakizə xalagilə gəldim. Pakizə xala məni görcək çox sevindi, onu yaddan çıxarmadığıma görə mənə dualar etdi. O, uşağımın olmadığını bilirdi. Ona görə də Pakizə xala Allahdan mənə tez bir zamanda bir övlad verilməsini istədi və bunun üçün əlini Tanrının dərgahına qaldırdı. Həmin vaxt Rəşid nəyə görəsə Bakıya getmişdi. Mən ev işlərində Pakizə xalaya kömək etdim. O, dedi ki, bir azdan Vaqif müəllim də məktəbdən gələcək, ona yemək hazırlamaq lazımdır. Mən dedim ki, yeməyi özüm hazırlaram. Pakizə xalaya dedim ki, oturub bir az istirahət etsin. Bir saatdan sonra Vaqif müəllim də gəldi. Yemək artıq hazır idi. Vaqif müəllim məni görcək dedi:

- Nərgiz xanım, xoş gəlmisiniz. Çoxdandır ki, görünmürsünüz. Pakizə xaladan soruşurdum sizi.

- Çox sağ olun, Vaqif müəllim. Düzdür, çoxdan idi ki, gələ bilmirdim. Cəmi bir neçə dəfə gəlmişdim, o zaman siz də məktəbdə idiniz. Amma Pakizə xala üçün çox darıxmışdım. Ona uzun müddətdir ki, kömək əlimi yetirə bilmədiyimə görə utanırdım. Bilirsiniz də kənd yeridir, hərənin ağzından bir hava çalınır. Ərli qadının belə yerə gəlməsinə yaxşı baxmırlar.

- Haqlısınız, Nərgiz xanım. Doğrudan da, kəndinizin qəribə xüsusiyyətləri var, - deyə Vaqif müəllim həyətdəki vannikdə əl-üzünü yuyub, paltarını dəyişmək üçün evə girdi.

Vaqif müəllim yeməyini yedikdən sonra dedim:

- Pakizə xala, indi bir çay dəmləyim, birlikdə içək.
- Yaxşı, qızım, dəmlə içək. - Pakizə xala tez dilləndi.

Xəyalımda isə nəyin bahasına olursa-olsun kimsəyə məlum olmayan planımı gerçəkləşdirmək idi.

Çayı dəmlədikdən sonra mən həm Vaqif müəllimin, həm də Pakizə xalanın stəkanına yuxu dərmanı atdım. Çayı içdikdən

10 -15 dəqiqə sonra Pakizə xala dedi ki, nədənsə yuxusu gəlir. Vaqif müəllim də mənimlə sağollaşıb, otağına keçdi. Bildim ki, onun da yuxusu gəlir. Mən də dedim ki, artıq gecdir, evə gedim. Vaxt keçsin deyə, ayağa qalxıb, stəkanları yığışdıraraq mətbəxə apardım. Qəsdən bir neçə dəqiqə mətbəxdə yubandım. Gördüm ki, Pakizə xalanın xorultusu eşidildi, Vaqif müəllimin də səsi gəlmir. Mən asta addımlarla Vaqifin otağına yaxınlaşdım. O da çarpayısında yuxuya getmişdi. Mən fürsəti əldən verməyərək, tez otağa girdim və Vaqifin həqiqətən də yatdığına tam əmin olmaqdan ötrü onu bir neçə dəfə səslədim. Ondan cavab gəlmədiyini görüb, Vaqifin yanında uzandım...

Sonradan nə baş verdiyini o, hiss etməsin deyə, hər şeyi səliqə-sahmana saldım.

Ertəsi gün ərim şəhərdən qayıtdı. Həmin axşamı Rəşid yenə içmək istədi, amma mən qoymadım. Ona dedim:

- Rəşid, bu içki səni kişilikdən də salıb. Heç olmasa bu axşam içmə! Gəl bu gecəni bir-birimiz üçün yaşayaq. Bəlkə, bunun bir nəticəsi oldu. “Allahdan ümid kəsilməz!” deyirlər.
- Demək, sən indiyə kimi kişiliyimə şübhə etmisən?! Elə isə bu gecə mən sənə necə kişi olduğumu göstərəcəyəm! - Rəşid qızmış aslanlar tək bağırdı.

O gecə Rəşid mənə sübh çağına qədər yatmağa imkan vermədi, sanki bütün illərin ağrı-acısını canımdan çıxarırdı. O, bədənimdə sağ yer qoymamışdı, hər tərəfim gömgöy idi.

Bir sözlə, həmin gecə Rəşid mənə yaxşı “dədəlik” etdi...

Mən bir ayın gəlib keçməsini səbirsizliklə gözləyirdim. Amma vədə tamam olanda, gözlədiyim olmadı, yenə də xəstələndim. O qədər “zəhmətim” də hədər getdi. Bu arzum da içimdə qaldı.

Rəşid rayonda özünə münasib iş tapa bilmirdi. Bir axşam o mənə dedi:

- Nərgiz, rayonda iş tapmaq çətindir. Bəlkə, şəhərə gedək, orada tikintidə hökmən iş olar.
- Nə deyirəm, əgər Bakıda iş tapa biləcəksənsə, gedək. - Mən də razı oldum.

Bakıya gəldik. Kirayə ev tutduq. Rəşid bir neçə gün iş axtarmalı oldu. Nəhayət, tikintilərin birində iş tapdı. Ərimin aldığı maaş ancaq ev kirayəsinə və yeməyə güclə çatırdı.

Bir axşam şam yeməyində Rəşidə dedim:

- Rəşid, evi təkbaşına dolandırmaq sənin üçün çətindir. İcazə versəydin, mən də bir iş tapıb işlərdim. Bu yenə də dolanışığımıza kömək olardı.

- Olmaz! Sən qadınsan, ev işləriylə məşğul olsan yetər! Bir də ki, iş haradadır? Görmədinmi, mən zorla iş tapdım. Qadının yeri evdir, mətbəxdir! - Rəşid əsəbi halda üstümə qışqırdı.

Altı ay işlədikdən sonra Rəşid bir gün dedi ki, bu cür yaşamaq olmaz. O, məsləhət gördü ki, Rusiyaya gedək. Hər halda orada burdan yaxşı olar. Mən ərimin qərarına qarşı çıxmadım:

- Sən necə istəyirsən, elə də olsun, Rəşid. Mən Rusiyaya getməyimizin əleyhinə deyiləm, amma elə et ki, oraya gedəndən sonra peşman olmayasan - dedim.

- Çelyabinskaya gedəcəyik, çünki orada köhnə tanışlarım var. Vaxtilə onlara çox köməyim dəyib, bəlkə onlar mənə iş qurmaqda köməklik etdilər. Bir də ki, özüm onlardan əksik oğlan deyiləm ki. Onların hər birindən bacarıqlıyam. Çətini əlimi bir yerə ilişdirdim, sonrası işləri yoluna qoyacağam. - Rəşid özünə arxayınlıqla dedi.

... Bir ay olardı ki, Çelyabinskə gəlmişdik. Rəşid iş tapmışdı, yaxşı da qazanırdı. Amma qazandığının evə faydası yox idi. Çünki o, yoldaşlarıyla demək olar ki, hər gün içirdi, axşam evə gələndə özündə olmurdu. Ona verdiyim öyüd-nəsihətlər isə boşuna gedirdi. Son vaxtlar Rəşid qumara da qurşanmışdı. Əvvəllər o mənə pul verirdisə, qumar oynayandan sonra daha ondan da əlim üzüldü. Hətta, bəzən elə gün olurdu ki, Rəşid gecələr evə gəlmirdi. Bundan sonra narahatçılığım artdı. Ondan gecələr evə niyə gəlmədiyinin səbəbini soruşduqda:

- Bu səni maraqlandırmaz. Harada gecələdiyimi bilmək üçün sənə hesab verməliyəmmi?! Arvadsan, qaxıl otur yerində!

Kişidən hesab sormaq arvad işi deyil! Mən harada gecələmək lazım olduğunu özüm bilərəm - dedi.

Bir axşam isə Rəşid yoldaşı və dostlarıyla bərabər bizə gəldilər. O, dedi ki, qumarı bu dəfə bizdə oynayacaqlar. Mən buna etiraz etdikdə, o, başıma bir yumruq ilişdirdi. Başım gicəlləndi, yerə yıxıldım. Handan-hana özümə gəldim. Buna baxmayaraq Rəşid məndən çay dəmləyib, qonaqlara verməyimi əmr etdi. İlk dəfə olaraq Rəşiddən iyrəndim, qəlbimdə ona nifrət etdim. Onu da deyim ki, ərim mənə içki içməyi də öyrətmişdi. Axşamlar şam yeməyində onunla yoldaşlıq edim deyə, mənə də məcburən spirtli içki içirdirdi. Mən artıq bu cür yaşamaqdan bezimişdim.Tənhalıqdan sıxılırdım, dərdini kiminlə paylaşacağımı bilmirdin; qərib ölkə, yad insanlar...

Bir gün Rəşidə dedim ki, artıq buralarda qala bilmirəm, məni Bakıya yola salsın. Rəşid isə sanki bu sözü məndən çoxdan gözləyirmiş kimi gülə-gülə dedi:

- Bakıya getmək istəyirsənsə, günü sabah səni yola salaram. Pal-paltarını hazırla, sabah Vətənə gedəcəksən.

Mən əvvəlcə bunu zarafat sandım. Amma ertəsi gün Rəşid doğrudan da məni qatarla Bakıya yola saldı. Yola salarkən o, dedi:

- Nərgiz, narahat olma, hər ay sənə pul göndərəcəyəm.

Amma həmin gündən sonra nə Rəşidin özünü gördüm, nə də ki pulunu.

Mən Bakıya çatandan sonra Sumqayıtda ərdə olan bacımgilə getdim. Rayona getmək istəmədim. Yeznədən mənə bir iş tapmasını xahiş etdim. O mənə mağazaların birində satıcı işi tapdı. İki ay olardı ki, mağazada işləyirdim. Sonra Çelyabinskdən xəbər gəldi ki, Rəşid qumar oynayarkən "yoldaşlar"ıyla mübahisə edərək onlardan birini bıçaqla ağır yaralayıb. Rəşidi həbs ediblər. Bu xəbəri eşidəndə, heç vecimə də olmadı. "Su səhəngi suda sınar" deyə düşündüm. Mən anladım ki, sevmədiyin birisi ilə ailə həyatı qurmaq ən böyük işgəncədir. Həm də başa düşdüm ki, bu cür

işgəncələrdən qurtulmaq üçün ətrafında baş verə biləcək hər hansı hadisələrə seyrçi münasibət bəsləyib, onlara laqeyd yanaşmaq lazımdır. Beləliklə, həyatımı dəyişmək qərarına gəldim. Daha əvvəlki tək sadəlövh, hər kəsə inanan, müti, söz eşidən, buyruq qulu olmaq istəmirdim. “Bu həyatda mən də varam!” deyə özümü təsdiq etmək istəyi baş qaldırdı. Və bundan sonra həyatda mücadilə etmək yolunu seçdim.

Bu arada rayondan xəbər gəldi ki, atam xəstələnib. Mən, bacım və yeznəm birlikdə rayona getdik. Həkimlərin dediyinə görə, atamın təzyiqi qalxdığından beyninə qan sızmış, sol tərəfi iflic olmuşdu, danışa bilmirdi. O bizə baxır, nəsə demək istəyirdi. Amma danışa bilmədiyi üçün gözlərindən yaş axaraq, qırışmış yanaqlarında donub qalırdı. Atamı bu halda görəndə, içim acıdı, ona yazığım gəldi...

Üç gündən sonra atam rəhmətə getdi. Atamın yeddisini verib, yenidən Sumqayıta qayıdırdıq. Avtobus dayanacağına gedərkən, küçədə təsadüfən Vaqif müəllimlə rastlaşdıq. O məni görcək: “Nərgiz xanım, Allah rəhmət eləsin! Başınız sağ olsun!” deyə başsağlığı verdi. Vaqif müəllimə qarşı etdiyim hərəkətdən utandığım üçün başımı qaldırıb, onun üzünə baxa bilmədim. Sadəcə, astadan:“Çox sağ olun, Vaqif müəllim” deyib daha durmadan yolumuza davam etdik.

On gündən artıq idi ki, işə getmədiyimdən mağazanın müdiri məni işdən azad etmişdi. O, haqlı idi, çünki müdir mənə cəmi üçgünlük icazə vermişdi. İşimi itirdiyim üçün kefim yox idi. İşdə yenə də başım qarışırdı, günün nə vaxt keçdiyindən xəbərim belə olmurdu. İş olmayanda, insan tənha qaldığından sıxılmağa başlayır, qəlbindən, beynindən ağılasığımaz fikirlər keçir. Bəzən həyata gəldiyinə peşman olursan, yalqız qalmaq istəyirsən, insanlardan qaçırsan, onlara nifrət edirsən. Sonra da bütün qadağaları vecinə almadan, həyatı öz istədiyin kimi yaşamağa davam edirsən. Və bu zaman sən tamam başqa bir adam olursan. Əvvəlki sadə, təmiz, əxlaqlı, utancaq, məsum, inancıl olan “mən”i qəlbində birdəfəlik dəfn etməli olursan. Bu dəfə üzünə tamamilə fərqli bir maska taxıb, başqa bir “mən”lə

həyatını davam etdirirsən. Yox, əgər sən dəyişmək istəmirsənsə, onda bircə yolun qalır. İntihar!

Bacımgilin qonşuluğundakı qızla işlədiyim mağazada tanış olmuşdum. Qız mənim işdən çıxdığımı bilib, mənə yaxın tanışının yanında işləməyi məsləhət gördü. İradəyə ailə həyatım haqqında danışmışdım. O, yeni işim barədə qısaca məlumat verdi. Kiçik bir ofisdə müdirin katibəsi işləyəcəkdim. Amma iş yeri Bakıda idi. Mən razı oldum.

Ertəsi gün yeni iş yerinə İradə ilə birlikdə getdik.

İradə müdirin yanına mənimlə birlikdə girdi. İradə salam-kəlamdan sonra qımışaraq dedi:

- Vüqar müəllim, sizə dediyim Nərgiz xanım budur.

Müdir mənə baxıb gülümsədi. Sonra üzünü İradəyə tutub soruşdu:

- İradə xanım, pis deyil. Amma deyin görək, sözə baxandırmı, yoxsa...

- Vüqar müəllim, narahat olmayın, Nərgiz xanım sözə baxan xanımlardandır. Sizə necə lazımdır qulluq göstərəcək, - deyə İradə gülümsəyərək mənə göz basdı.

- Yaxşı... Nərgiz xanım, ali təhsiliniz varmı?

- Xeyr, Vüqar müəllim. Ali təhsilim yoxdur, - deyə utana-utana dedim.

Bu arada təhsil ala bilmədiyimə görə, rəhmətlik atamı qınadım. Mən o zaman anladım ki, təhsili, ali savadı olmayan adamın nə hörməti olur, nə də ki, sözünün kəsəri. Savadsız insan istər-istəməz kiminsə quluna, nökərinə çevrilir. Digər tərəfdən də həqiqət savadsızdan çox-çox uzaqda olur, yaşadığı həyatı dərk etmək imkanı olmur. O, həyata şüurlu deyil, seyrçi mövqedən baxır, həyatdan küsür, uzun müddət onun çətinliyinə alışa bilmir. Ona görə də ağır günlər yaşamaq məcburiyyətində qalır. İnsanlardan get-gedə uzaqlaşmağa başlayır, içinə qapanır, çıxış yolu tapa bilmədiyindən fikir və düşüncələr girdabında çabalayıb qalır. Məntiqdən uzaq insanlar yalnız duyğularla, hisslərlə yaşayır. Bu zaman o, hisslərinin əsirinə çevrilərək, dənizdəki yelkənsiz qayığı külək

istədiyi istiqamətə apardığı kimi, onu da həyatın istənilən səmtinə ata bilir. Bəzən isə birdən-birə həyatın heç cür çıxa bilməyəcəyin girdabına düşürsən. Və oradan çıxmaq üçün ömrün boyu çırpınıb durursan. Elm, savad isə həyatı başa düşmək, həqiqəti axtarıb tapmaq deməkdir. Bilik duyğulardan üstündür, gələcək yolun göstəricisidir, xoşbəxtliyinin açarıdır. İndi mən gələcək xoşbəxtliyini itirmiş, küləyin qovduğu səmtə gedən, sükanı əldən vermiş gəmi kapitanına bənzəyən, yazıq, zavallı birisiydim. Bəli, bugünkü durumum mənə kiminsə qulluğunda durub, ona itaət etməyimi diqtə edirdi. Nə etməliydim?! Çörəyimin xatirinə hər şeyə hazır idim...

Bir axşam işdən çıxarkən Vüqar mənə dedi:

- Nərgiz xanım, bu gün mən də Sumqayıt tərəfə gedirəm. Səni də maşınla aparacağam, həm də yolda kafelərin birində birlikdə şam da edərik.

Mən müdirimin ilk təklifini rədd etmədim. Sumqayıta gedən yolda kafelərin birində şam etmək üçün müdirim maşını saxladı. Ayrıca kabinetdə oturduq. Otaqda bir divan da vardı. Az keçməmiş xidmətçi oğlan stolun üstünü müxtəlif salat və yeməklərlə doldurdu. Müdir məndən soruşdu:

- Nərgiz xanım, nə içəcəksiniz?
- Siz nə içsəniz, mən də ondan içəcəyəm - dedim.
- Əhsən sizə, Nərgiz xanım. İlk dəfədir ki, sizin kimi cəsarətli xanıma rast gəlirəm, - deyə Vüqar gülərək əllərini bir-birinə vuraraq şaqqıldatdı.

Əvvəldə dediyim kim, İçkini mənə Rusiyada olarkən ərim öyrətmişdi. Mən içməyəndə, o məni şapalaqlayırdı. Amma bu zəhrimardan heç xoşum gəlmirdi. Vüqar ilk badəni mənim sağlığma qaldırdı. Sonra badələr bir-birinin ardınca dolub-boşaldı...

Vüqar lətifə danışır, hər ikimiz bərkdən gülürdük. Sonra o, ayağa qalxaraq, əlimdən tutub özünə tərəf çəkdi. O, hər iki əliylə məni möhkəm qucaqladı. Bu zaman mən artıq özümdə deyildim. Vüqar acgözlüklə dodaqlarımı ağzına salıb sorurdu. Bundan sonra bütün vücudum müdirimin ixtiyarında oldu.

Vüqar məni divana uzandırdı. Mən ona daha müqavimət göstərmədim, əksinə bunu mən özüm də istəyirdim. Çünki Rusiyadan gələndən bəri kişi üzünə həsrət qalmışdım. Hər ikimiz xoş anlar yaşayırdıq. Bu zaman qəfildən qapı açıldı və iki polis içəri girdi. Onlardan biri gülərək:

- Bəh, bəh! Nə gözəl vaxtda gəlmişik. Amma deyəsən, kişilərin məhəbbətinə mane olduq. Buna görə sizlərdən üzr istəyirik. Bura sizinçün nədir, ay binamuslar?! Sevişməyə başqa yer tapa bilmədiniz?! - dedi.

Polislərin qəflətən otağa daxil olmalarından hər ikimiz çaşıb qalmışdıq. Nə edəcəyimizi bilmirdik. Mən qorxmuşdum, Vüqarın isə rəngi avazımışdı.

- Tez olun, paltarlarınızı geyinin! Bunu sizin burnuzdan fitil-fitil gətirəcəyik! Vüsal, deyirəm bunları əvvəlcə ayrı-ayrı dindirək.

- Düz deyirəsən, Rəşad. Mən erkəyi bayıra çıxardıram, orada söhbət edəcəyəm, sən isə hələlik bu fahişə ilə əylənərsən.

Vüqar tez şalvarını geyindi, polis onun qolundan tutub bayıra çıxardı. Mən də geyinmək istərkən Rəşad adlı polis dedi:

- Daha geyinməyə nə ehtiyac var! Elə birinci sualımızı sən paltarını geyinmədən həll edək, - deyə o məni divana uzatdı...

Mən isə susurdum. Sonra polis nəşəli halda ayağa qalxıb dedi:

- Canın yanmasın, pis deyilmişsən. Bura bax, sənə bir təklifim olacaq. Bu təklifimi qəbul etsən, bundan sonra işlərin "xod" gedəcək. Əgər razı olmasan, o zaman gününü qara edəcəyəm! Səni doğulduğuna peşman edəcəyəm!

- Mənə nə təklif edəcəksən? - Üst-başımı səliqə-sahmana saldıqdan sonra astadan soruşdum.

- Mənə işləyəcəksən. Mən nə dedimsə, ona əməl edəcəksən. Bundan sonra sənin kimsədən qorxun olmayacaq. Anladınmı, əzizim? - Rəşad mənə yaxınlaşıb, əlini sinəmdə gəzdirdi.

Mən fikirləşmədən Rəşadın təklifini qəbul etdim. Həmin axşam Rəşad maşını ilə məni bacımgilə gətirdi. O, maşındaca mənim bütün "dannı"larımı götürdü. Mən maşından düşərkən

məni bir daha xəbərdar etdi ki, ondan qaçmağa cəhd göstərməyim, yoxsa bu işin sonu heç də xoşagələn olmaz. O gündən sonra Rəşad məni daha Vüqarın yanında işləməyə qoymadı. “Səni daha sanballı bir yerdə işə düzəldəcəyəm!” dedi. O mənə Bakıda kirayə bir ev tutdu. Əlbəttə, kirayə pulunu Rəşad özü verirdi. Bu yolla bacımgildən uzaqlaşdım. Bundan sonrakı həyatımdan çox iyrəndim. Çünki Rəşad məni elə işlər görməyə məcbur edirdi ki, bu cür hərəkətlər insanlıqdan çox-çox uzaq idi. Rəşadın təkidilə günahsız insanlara şər-böhtan ataraq, onları həbs etdirmək, ləyaqətli şəxsləri təhqirə məruz qoyaraq onları alçatmaq, vəzifəsini layiqincə icra edən vəzifə sahiblərini ləkələmək, biznesmenlərlə yaxınlıq edib, onların maliyyə qaynaqlarını öyrənib, lazımi adamlara məlumat vermək, müxalifətdə olan gənc siyasətçilərdən “donos” toplamaq, onları narkotika ilə, əxlaqsız təkliflərdə bulunmaqda suçlayaraq barələrində müxtəlif cinayət işlərinin açılmasında göstərdiyim “köməkliyə” görə özümü heç cür bağışlaya bilmirdim. Amma mən qorxduğum üçün məcbur qalıb, Rəşadın çaldığı havayla oynamalı idim...

Bütün bunlara görə, Rəşad məni “mükafat”landırırdı; pal-paltar alır, cibxərcliyi verirdi. Mən artıq Rəşadın alətinə çevrilmişdim.

Bir gün o, gəlib məni maşına mindirib, “28 may” metrosunun qarşısına gətirdi. Maşından düşmədən, mənə kitab satılan yerin sağ tərəfində dayanıb, kimisə gözləyən bir gənci göstərib dedi:

- Nərgiz, növbəti “qonağımız” bax, o, cavan oğlan olacaq. Nə edirsən, et, onunla yaxından tanış ol, onun və onun ətrafı barəsində geniş məlumat əldə etməyə çalış. Axşam isə onu hökmən gecə barların birinə apar. Yerdə qalan təlimatları barda alacaqsan. Mən sizin hər dəqiqənizi izləyəcəyəm. Bunu unutma.

Mən maşından düşüb, oğlana tərəf getdim və gəlib ondan beş metr aralıda dayandım. Özümü elə apardım ki, guya mən də kimisə gözləyirəm. Amma gözümü oğlandan çəkmirdm. O

bunu hiss etdi və mənə baxıb gülümsədi. O, tez-tez saatına baxırdı, deyəsən gözlədiyi adam gecikirdi. Mən bundan istifadə edib, ona yaxınlaşdım. Saatı soruşdum. Cavan oğlan tez qolundakı saata baxıb dedi:
- Xanım, saat on ikiyə iyirmi dəqiqə qalır.
- Çox sağ olun.
- Xoşdur.
- Deyəsən, sizinki də gecikir, - mən söz atdım.
- Bəli, elə görünür. Amma dostum görüşə heç zaman gecikməzdi. Ondan görünməyən işdir. - Oğlan təəccübünü gizlədə bilməyib, yenidən saatına baxdı.
- Mənim rəfiqəm isə görüşə gecikməyi adət edib - dedim.
- Demək, rəfiqəniz ciddi adam deyil. - Cavan oğlan mənə baxıb güldü.
- Haradasa haqlısınız - dedim.

Bu zaman oğlanın telefonuna zəng gəldi. O, deyəsən dostu ilə danışırdı. Çünki dostunun təcili işi çıxdığından görüşə gələ bilməyəcəyini deyirdi. Oğlan telefonla danışığının bitirib, üzünü mənə tutub dedi:
- Deyirəm də, dostum görüşə gecikməzdi. Zəng edən o idi. Təcili işi olduğuna görə, məndən daha gözləməməyi xahiş etdi.
- Belə görürəm ki, mənim tənbəl rəfiqəm də gəlməyəcək. Mən də onu burada nahaqdan gözləyirəm.
- Xanım, hər ikimiz boş olduğundan, bəlkə bağdakı çayxanada oturub bir çay içək, əlbəttə, əgər etiraz etmirsinizsə. Yox, işiniz varsa...
- Xeyr, xeyr! Elə də vacib işim yoxdur. Mən sizin təklifinizə etiraz etmirəm. Gedəyin, - deyə oğlanın bu qədər asanlıqla tora düşəcəyinə inanmadım.
- Elə isə gəlin tanış olaq, adım Səbuhidir.
- Sevda! - əsl adımı demədim. Çünki Rəşad mənə tapşırmışdı ki, bu cür “əməliyyat”larda heç zaman əsl adımı söyləməyim.

Mən Səbuhi ilə çayxanada bir saata yaxın söhbət etdim. Danışığından vətənsevər, qeyrətli, haqsızlığa qarşı barışmaz,

prinsipial və mübariz bir gənc olduğu anlaşılırdı. O, bu gün cəmiyyətdəki haqsız durumdan, idarəetmə sistemindəki harınlaşmış məmurlardan, kasıb təbəqənin nümayəndələri barədə çox danışdı. Səbuhi respublikada gedən inkişafın yalnız insanları aldatmaq üçün zahiri bir görüntü olduğunu vurğuladı. Bunun arxasında isə nələr baş verdiyindən xalqın xəbəri olmadığını bildirdi. Mən ona siyasətin mənlik olmadığını bildirdim. Və sonda ondan soruşdum:

- Səbuhi, axşam gecə klubların birində görüşəkmi? Görürəm ki, maraqlı adama bənzəyirsiniz.

- Bağışlayın, Sevda xanım mən gecə klublarına getmirəm, əxlaqım buna yol vermir. Siz allah inciməyin, məni başqa cür başa düşməyin. - Səbuhi təklifimi centlmensayağı rədd etdi.

- Yaxşı, bəs siz haranı təklif edirsiniz? - Ondan əl çəkmək istəmədim.

- Sevda xanım, sizin təklifinizə indi deyil, axşamüstü telefonla sizə bildirəcəyəm, - deyə Səbuhi sanki məndən şübhələnirmiş kimi cavab verdi.

Biz ayağa qalxanda, telefon nömrələrimizi bir-birimizə verdik. Onu da qeyd edim ki, hər bu cür “tanışlıq”dan sonra Rəşad mənim telefon nömrəmi dəyişdirirdi. Bunun səbəbini soruşanda, o, deyirdi ki, bu izi azdırmaq üçündür.

Axşamtərəfi Səbuhi mənə zəng edib, harada görüşəcəyimizi dedi. Mən görüş barədə Rəşadı məlumatlandırdım. O mənə kiçik kağıza bükülmüş narkotik maddə verib dedi:

- Bunu gizlicə onun cibinə qoyacaqsan, gerisilə işin olmayacaq. Mən səni izləyəcəyəm.

Axşamtərəfi Səbuhi ilə onun dediyi gənclər kafesində görüşdük. Kafedəkilərin doğrudan da hamısı gənclər idi. Səbuhi məni kafenin qarşısında qarşıladı. Küncdəki stolda əyləşdik. Rahat olsun deyə, o, kurtkasını çıxarıb stulun başına keçirdi. Bununla Səbuhi işimi bir daha asanlaşdırdı. Söhbət zamanı o, yenə də siyasi məsələlərdən danışdı. Yarım saatdan sonra o, icazə alıb tualetə getmək istədiyini bildirdi.

Mən də fürsətdən istifadə edib, Rəşadın mənə verdiyi kağıza bükülmüş narkotik maddəni Səbuhinin qoltuq cibinə qoydum. Az keçməmiş yeni tanışım qayıdıb gəldi. Beş dəqiqədən sonra Rəşad iki nəfər mülkü şəxslə kafeyə daxil oldu. O, əvvəlcə qapının yanında oturmuş gənclərdən şəxsiyyət vəsiqələrini tələb etdi. Gənclər də heç bir söz demədən şəxsiyyət vəsiqələrini ona təqdim etdi. Rəşad vəsiqələrə baxıb yenidən onlara qaytardı. Sonra o bizim stola yaxınlaşdı. O, Səbuhinin başının üstündə dayanıb ondan da şəxsiyyət vəsiqəsi tələb edərkən Səbuhi soruşdu:

- Bağışlayın, kim olduğunuzu bilmək olarmı? Siz əvvəlcə özünüzü təqdim etməyi unutdunuz.

Rəşad gülərək özünü təqdim etdi. Bundan sonra Səbuhi şəxsiyyət vəsiqəsini Rəşada verdi.

- Demək, Səbuhi Kərimli sizsiniz?! - Rəşad mənalı-mənalı soruşdu.

- Bəli, mənəm, necə bəyəm?

- Görürəm ki, vaxtınızı pis keçirmirsiniz. Sizin haqqınızda bizdə məlumat var, cavan oğlan.

- Necə məlumat var? Müxalifətçi olduğum barədə? – Səbuhi gülərək soruşdu.

- Xeyr, narkotik maddədən istifadə etdiyiniz barədə! - Rəşadın sifəti ciddiləşdi.

- Sizə yanlış məlumat veriblər, cənab rəis. Mən hara, narkotika hara! - Səbuhi arxayınca dilləndi.

- Əlbəttə, əvvəlcə hamınız elə deyirsiz, amma sonra... Ayağa qalx! Hal şahidlərinin yanındaca üstünüzə baxış keçirəcəyik! - Rəşad səsinin tonunu oğlanın üstünə qaldırdı.

Səbuhi də:

- Buyurun, yoxlayın! - dedi.

Polis əvvəlcə oğlanın şalvar ciblərini, sonra köynək cibini, daha sonra isə kurtkasının ciblərini yoxladı. O, kağıza bükülünü əlində tutub Səbuhidən soruşdu:

- Bu bükülü nədir belə?

- Cibimdə elə bir bükülünün olmasını xatırlamıram. Bu kağız mənə aid ola bilməz! Çünki ciblərimdəki hər bir şeydən xəbərim var. Amma əminliklə deyə bilərəm ki, bu kağız mənim cibimdə olmamalıydı. - Səbuhi təəccüblə bildirdi.

- Yaxşı, elə isə sənin yanında və digər şahidlərin iştirakı ilə bu kağızı açacayıq. Baxaq, görək bu nədir belə? - Rəşad kağızı açıb, onun içindəkini hamıya göstərdi. – Demək, bizə verilən məlumat doğru imiş. Siz narkotik maddədən istifadə etdiyiniz üçün bizimlə şöbəyə gedəcəksiniz. Bu xanım da bizimlə getməlidir, çünki o da şahid kimi ifadə verəcək.

Səbuhinin rəngi qaçmışdı. O, gözlərini zilləyib mənə baxdı və ikrah hissiylə dedi:

- Demək, bu sizin işinizdir?! Siz necə də...

Mən isə özümü müdafiə etmək üçün:

- Mənim bundan xəbərim yoxdur - dedim.

- Yaxşı, gedək, başqalarını günahkar çıxarma! - Rəşad polis yoldaşlarına göz etdi ki, Səbuhini götürsünlər.

Beləliklə, ilk "əməliyyat" uğurlu alındı. Amma mən həmin gecəni səhərə kimi yata bilmədim, vicdanım mənə rahatlıq vermirdi...

Bu hadisədən sonra Rəşad məni bir idarə müdirinin yanında işə düzəltdi. O, işimi bir telefon zəngi ilə həll etdi. O məni təlimatlandırdı ki, bacardıqca müdirə yaxın olmalı, onun etibarını qazanıb, idarədəki "bəzi maliyyə" qaynaqlarını öyrənməliyəm. Mənim o sahədə savadım olmadığından bu sirləri müdirin özündən almalıydım, təbii ki, ona yaxınlıq göstərməklə. Bu dəfə işə başqa adla deyil, öz adımla gedəcəkdim.

Mən ilk gün işə gələn kimi müdir məni kabinetinə çağırdı. O məni sakitcə ayaqdan başacan diqqətlə süzdükdən sonra soruşdu:

- Nərgiz xanım, siz Rəşad müəllimin nəyi olursunuz?

- İsgəndər müəllim, Rəşad müəllimin yaxın qohumuyam - dedim.

Müdir daha dərinə getmədi. O mənim ali təhsilli olmadığımı bilib, hələlik mənə katibəsinin yanında oturmasını tapşırdı və qeyd etdi ki, tezliklə mənə münasib bir iş təşkil edəcək.

Buraya gəldiyimdən artıq bir həftə keçmişdi. Rəşad məndən idarədəki vəziyyət barədə soruşdu. Ona ürəkaçan nəsə söyləyə bilmirdim. Nə deyəcəkdim ki. Ona yalnız hələ də katibənin yanında oturduğumu söylədim. O, əsəbiləşdi. Amma Rəşad mənə bəzi göstərişlər verdi...

Ertəsi gün işdə olarkən mühasibatlıqda işləyən cavan oğlanın qılığına girməli oldum, onun üzünə gülümsədim, ona xoş rəftar göstərdim. Axşam işdən çıxanda cavan oğlan məni ötürməyə icazə istədi. Etiraz etmədim. Onunla yaxından tanış olmalıydım. Bu tanışlıq vasitəsilə oğlandan bəzi maliyyə məlumatları əldə etməliydim.

Üç gündən sonra Elnur məni restorana, şam yeməyinə dəvət etdi. Elnurun məni şam yeməyinə dəvət etməsini müdirin katibəsinə də söylədim. Mən bunu qəsdən etdim ki, Sevda mənim Elnurla şam yeməyinə getdiyimizi müdirə xəbər versin. Şam yeməyində Elnurla ən çox mühasibatlıqda hansı işlə məşğul olduğunu öyrənməyə çalışdım. O mənə bəzi məlumatları verməsinə baxmayaraq, onları yadda saxlaya bilmədim. Daha doğrusu, maliyyə işlərindən anlamadığımdan rəqəmləri tez unutdum. “Bəs nə etməli? Rəşada nə cavab verəcəyəm?” deyə düşündüm. Məcbur qalıb Elnurdan heç maliyyə fırıldaqları edib-etmədiyini soruşdum. O, şübhələnməsin deyə, gülərək əlavə etdim:

- Elnur, özün də bilirsən ki, indi elə bir idarə tapmaq çətindir ki, orada gizli maliyyə maxinasiyaları edilməsin.

- Düzdür, idarələrin əksəriyyəti istər-istəməz gizli maliyyə fırıldaqları edirlər. Çünki bunsuz onlar şəxsi qazanc əldə edə bilməzlər. Amma bizim idarədə bu mümükün deyil. Çünki bizim müdir halal adamdır. Qazandığının əvvəlcə vergisini ödəyir. Hamımıza da təmiz işləməyi, haramdan uzaq olmağı tövsiyə edir. Açığın deyim ki, İbrahim müəllim işçilərinin qayğısına qalan adamdır.

Bu sözlərdən sonra daha Elnurdan nəsə soruşmağa lüzum qalmadı.

Ertəsi gün Rəşad mənim qaldığım evə gəldi və vəziyyətin nə yerdə olduğunu xəbər aldı. Mən Elnurun söylədiklərini olduğu kimi ona anlatdım. Rəşad əsəbiləşdi:

- Bu ola bilməz! Orada hökmən nəsə fırıldaq işlər olmalıdır. Çünki bizə bəzi məlumatlar çatdırıblar.

**-** Bəlkə, sizə düzgün bilgi verməyiblər? Bəlkə, bu məlumatları həmin idarənin müdirini istəməyən biriləri uydurub ki, onu ləkələsin - dedim.

**-** Xeyr, bu işin içində nəsə başqa bir əmma olmalıdır! – Rəşad sağ əli ilə alnını ovuşdurdu. - Bəs müdirin özü ilə əlaqə yarada bilmədin?!

- Xeyr, müdir məni yaxınına buraxır ki, onunla da əlaqə saxlayım. İbrahim müəllim çox ciddi birisinə bənzəyir, başqaları kimi deyil. O, bacardıqca qadınlardan uzaq olmağa çalışır, - deyə Rəşada həqiqəti söyləmək zorunda qaldım.

**-** Yaxşı, onda sabahdan bir daha o idarəyə getmirsən. Deməli, İbrahimə də bir quş. Onunku qalsın sonraya. Onun da çarəsinə baxarıq. Hələlik bundan da vacib işlərimiz var. Zəngimi gözlə! Səni bu yaxınlarda bir iş adamı ilə tanış edəcəyəm. Yağlı müştəridir, bu adam əlimizdən qurtula bilməyəcək! - Rəşad gülərək əllərini bir-birinə sürtdü.

Demək olar ki, bütün "əməliyyat"ların ssenarisini Rəşadgil hazırlayırdı. Onların arxasında "böyük adamlar" dayandığından, söhbət eyni zamanda böyük pullardan gedirdi. Mən isə bu oyunlarda şahmat taxtasındakı hər an qurban veriləsi olan "piyada" rolunu oynayırdım.

İki gündən sonra Rəşad mənə zəng edib, təcili onun yanına gəlməsini bildirdi. Həmən saat ona getdim. Rəşad mənə bir şəkil göstərib dedi:

- Nərgiz, bu adam bizim yeni qurbanımız olacaq. Axşam bu adamla "Hilton" hotelinin restoranında görüşəcəyik. Sən də orada olmalısan. Özümü ona bir iş adamı, səni isə yeni referentim kimi təqdim edəcəyəm.

- Mənə bu rolu oynamaq çox çətin olacaq, çünki mən ingilis dilini bilmirəm. Mən biləni, referent ən azından iki-üç dil bilməlidir, - deyə mən tərəddüd etmək istədim.

- Bu barədə narahat olmağa dəyməz. Çünki o adamla ən uzağı iki gün məşğul olacaqsan. İlk gün tanışlıq, ikinci gün isə sauna. Bundan sonra onunla sənin işin tamamlanmış olacaq. - Rəşad məni əmin etdi.

Həmin axşam hotelin restoranında iş adamı Rəcəblə görüşümüz baş tutdu. Rəşad məni onunla tanış etdi. Görüş zamanı Rəşad onunla iş birliyi qurmağı təklif etdi. Rəcəb isə bu məsələ barədə düşünəcəyini bildirdi. Onlar sağlığıma badə də qaldırdılar. Ayrılarkən Rəşad Rəcəbə dedi:

- Rəcəb bəy, əgər mənimlə əlaqə yaratmaq istəsəniz, Nərgiz xanım sizə yardımçı ola bilər.

Bu zaman mən tez vizit kartımı çıxarıb, Rəcəbə uzatdım. Vizit kartını mənim üçün Rəşad hazırlatdırmışdı. Mən kartı ona verərkən qəsdən əlimi onun əlinə toxundurub bir neçə saniyə saxladım və əlimi geri çəkərkən Rəcəbə göz vurdum. Rəcəb gülümsədi və mənə:

- Tanışlığımıza xeyli məmnun oldum, Nərgiz xanım - dedi.

Düşündüm ki, ən azından ertəsi gün Rəcəb mənə zəng vuracaq. Fikrimdə yanılmamışdım. Ertəsi gün o mənə zəng vuraraq, görüşmək istədiyini bildirdi. O mənə görüş yeri təyin etdi. Bu barədə Rəşada xəbər verdim. Rəşad mənə kiçik dinləmə və çəkiliş üçün video cihazları verərək, bunlardan istifadə qaydalarını da öyrətdi.

Həmin axşam Rəcəblə görüş zamanı özümü onu çoxdan tanıyırmışam kimi göstərdim. Stol başında onunla çox səmimi oldum, qətiyyən sıxılmadım. Rəcəblə çəkinmədən bəzi açıq-saçıq söhbətlər də etdik, məzəli lətifələr danışdıq. Rəcəb onu da qeyd etdi ki, Rəşad heç də iş adamına bənzəmir. Mən isə Rəşadın yaxşı bir iş adamı olduğunu söylədim, hətta, onun bir neçə xarici şirkətlərlə iş birliyində olduğunu da yalandan demək məcburiyyətində qaldım. Amma bütün danışıqlar Rəşadın mənə verdiyi cihazlar vasitəsilə qeydə alınırdı. Şam

yeməyindən sonra hər ikimizin kefi yüksək idi. Sözarası: “Bu gözəl yeməkdən sonra yaxşıca duş qəbul etmək yerinə düşərdi” deyə Rəcəbə eşitdirdim.

- Bu nə sözdür, Nərgiz xanım. İstəsəniz, saunaya gedə bilərik. Əgər siz etiraz etməsəniz, - Rəcəb bic-bic gülümsədi.
- Pis olmazdı, Rəcəb müəllim, - işvə-nazla dedim.

Mən saunadakı bütün hərəkətlərimizi, yalnız sifətim görünmədən əl çantamdakı video cihaz vasitəsilə qeydə aldım. Rəcəbin bundan xəbəri olmadı.

Ertəsi gün mən video və audio cihazını Rəşada verdim. Axşam tərəfi Rəşad bizə gəldi və gülərək işlərin əla getdiyini söylədi. Mənim yaxşı iş bacardığımı və bu videodan çoxlu para qazanacağımızı bildirdi. Rəşad Rəcəb məndən şübhələnməsin deyə, onunla iki gün sonra görüşmək qərarına gəldi. Bu günləri Rəşad mənə heç yerə çıxmamağı tapşırdı.

Bir həftədən sonra o bizə gəldi, mənə çoxlu pul verib dedi:

- Get, özünə istədiyin pal-paltarı al. Sənin sayəndə Rəcəbi yaxşıca “tərlət”dik. Bir bilsəydin Rəcəb videonu görəndə, nə hallara düşdü?! O, diski məndən almaq üçün necə yalvardığını kaş ki, kənardan seyr edəydin. O ciddi, alicənab, qürurlu Rəcəbdən əsər-əlamət qalmamışdı.
- Mən buna görə vicdan əzabı çəkirəm - dedim.
- Narahat olma, Rəcəb səndən şübhələnmədi. Çünki Rəcəblə görüşə mən deyil, həmkarım getmişdi, mən də onları kənardan izləyirdim, - deyə Rəşad məni sakitləşdirməyə çalışdı.

Bir neçə dəfə Rəşaddan xahiş etdim ki, daha bu cür iyrənc işlərdən məni uzaq eləsin. Amma o, gülərək dedi:

- Bu işdən qaçmaq yoxdur. Nə qədər ki, mən varam, sən də mənimlə bərabər çalışacaqsan.
- Rəşad, sən buna çalışmaq deyirsən?! Bu ki insanlığa yaraşmayan işlərdir. Nə vaxtdan ev yıxmaq, günahsız insanları həbsə atdırmaq, övladları atasız qoymaq, ləyaqətli adamları ləkələmək iş hesab olundu?! Amma bilirəm ki, bunların axırı heç də yaxşı olmayacaq. Allah-Təala gec-tez bizim hər ikimizin cəzasını verəcək.

- Ay qız, ağzını xeyirliyə aç! - Rəşad mənə üzünü bozartdı.

Bir neçə gündən sonra Rəşad yanıma gəlib, mənə məhkəmədə bir nəfər tanımadığım adamın üzünə durmağı tapşırdı. Mən etiraz etmək istədim, alınmadı. Məhkəmədə günahsız bir adamın haqsız yerə üzünə durmaq məcburiyyətində qaldım.

Məhkəmə prosesindən üç gün sonra, gecə vaxtı naməlum adamlar mənzilimə girərək, ağzımı dəsmalla bağlayıb harasa götürdülər. Məni qaranlıq bir zirzəmiyə gətirdilər. Onlar məni növbə ilə zorladılar. Onlardan alçaqboylusu gülərək dedi:

- Günahsız insanlara iftira atıb, həbsə göndərməyin aqibəti bax budur!!!

Mənə orada iki gün işgəncə verdilər. İki gündən sonra Rəşad gəlib məni qurtardı. Oğlanların başıma gətirdikləri oyunları Rəşada söylədim. Rəşad tez bir zamanda həmin adamların kimliyini öyrəndi və onları tutub başlarına pis iş gətirtdi.

Bir həftədən sonra Rəşad məni başqa bir "əməliyyata" cəlb etdi. Tapşırığa əsasən mən bir nəfər iş adamının bağ evindəki pulunun yerini öyrənməliydim. On beş günə mən bu "əməliyyat"ı da uğurla başa çatdırdım. Rəşad bu dəfə də mənə çoxlu pul verdi.

Həmin hadisədən bir ay keçəndən sonra yenə də bir nəfər siyasətçini şərləyib həbsə göndərtdim. İki gündən sonra Rəşad mənə məhkəmədə bir nəfərin üzünə durmağı tapşırdı. Mən Rəşada daha bu işlərdən yorulduğumu söyləyəndə o, qəzəblənib dedi:

- Özün bil, növbəti qurban sən ola bilərsən və o zaman "içəridə" yatmağın nə demək olduğunu anlarsan.

Mən yenə də susmalı oldum. Əlimdən nə gələ bilərdi ki. Mən daha bu oyundan çıxa bilməzdim. Çıxsaydım da məni yaşatmazdılar. Amma həmin məhkəmə prosesini heç zaman unuda bilməyəcəyəm. Məhkəmədən bir gün öncə Rəşad məni təlimatlandırdı. Sən demə, üzünə duracağım adam mənim yaxın qohumlarımdan biriymiş. Mən bunu gec anladım. Mən Yasəfin əleyhinə yalan ifadə verəndən sonra o məni nifrət dolu baxışlarıyla süzüb dedi:

- Mənə atdığın bu iftiraya görə, gec-tez Allah sənin cəzanı verəcək! Yazıqlar olsun sənə! Kimlərinsə əlində alətə çevrilib, evlər yıxıb, uşaqları atasız qoymaq sizin vicdanızı heç sızlatmırmı? Ancaq vicdanınız var ki?! Sənin kimi qohumu Allah yox eləsin! Nərgiz, sabah mən həbsdən çıxandan sonra mənim və qohum-əqrəbaların üzünə necə baxacaqsan? Sənin heç Allahdan qorxun yoxdurmu?! Niyə bu yollara düşdün? Mən sənin İdris kişinin qızı olduğuna heç cür inana bilmirəm! Rəhmətlik atanız yaxşı insandı. Yaxşı deyiblər: “Oddan kül törəyər!” Ancaq sən...

Mən daha onu dinləməyib, əllərimlə üzümü tutub bayıra çıxdım. Havam çatışmırdı, ürəyim sıxıldı, başım hərləndi, yıxılmaq istərkən kimsə mənim qolumdan tutdu. Rəşad idi. O, halımın pisləşdiyini görüb maşınla evə gətirdi. O, inandırmağa çalışdı ki, həmin adamın qohumum olduğunu bilmirmiş.

Bu əhvalatdan sonra Rəşad mənə iki ay “iş” tapşırmadı, istirahət edib, özümə gəlməyi gözlədi. O, indiyə kimi, bütün olub-keçənləri unutmağı mənə tövsiyə etdi. Amma bunları unutmaq mümkün idimi?!

Bir axşam yenə də Rəşad yanıma gəldi. Könlümü almaq üçün mənimlə xeyli zarafat etdi. Sonra yeni təlimat verdi. Təlimata əsasən mən atası məmur olan bir oğlanla tanış olmalı, onun etibarını qazanmalı və evimə gətirməliydim. İçkisinə yuxu dərmanı qatıb, onu yuxuya verməliydim. Qalan işləri Rəşadın adamları görəcəkdilər.

Mən bu “əməliyyat”ı da yerinə yetirdim. Amma qorxurdum. Oğurlanmış oğlanın atası məni tapıb, aradan götürə bilərdi. Ona görə də Rəşad mənim bu evi təcili satıb, başqa bir ünvanda yeni ev almağı məsləhət bildi. Elə də etdim; bu evi satıb, nisbətən şəhərin mərkəzindən uzaq bir yerdən yeni bir mənzil aldım. Rəşadgil bu adam oğurluğundan çoxlu pul qazanmışdılar. Bunu mənə Rəşad özü söylədi. Bu “iş”də mənim də payım az olmadı...

Bir axşam Rəşadla birlikdə onun bağ evindən gəlirdik. Rəşad içkili idi. Mən ona bağda qalıb sabah şəhərə getməyi məsləhət gördüm. O isə məni dinləmədi. Dedi ki, ona çox mühüm bir zəng gəlib, hökmən getməlidir. Bu zəngdən sonra hiss olunurdu ki, kefi kök idi. Rəşad, hətta dedi ki, bu zəngi o,

çoxdandır gözləyir. O, onu da vurğuladı ki, bundan sonra həyatı büsbütün dəyişəcək, böyük vəzifə sahibi olacaq. Bundan sonra əmrləri o, verəcək...

Amma həmin gecə baş verən dəhşətli maşın qəzası Rəşadın bütün gələcək arzularına və eləcə də həyatına son qoydu. Qarşıdan gələn maşınla baş-başa toqquşduq. Həmin anda mən ancaq bərkdən qışqırdım...

Gördüm ki, atəş içində yanıram. Hər tərəfimi od-alov bürüyüb. “Yanıram! Kömək edin!” deyə bağırıram. Məndən kənarda çoxlu adamlar dayanıb, mənə baxıb gülürdülər. Kimsə mənə kömək etmək istəmirdi. “Demək, cəhənnəmdəyəm” deyə düşündüm. Bütün vücudum sızlayırdı. Ağrılara dözə bilməyib, yenidən qışqırdım. Ayıldım. Gördüm ki, başımın üstündə həkimlər dayanıb. “Özünə gəldi!” dedilər. İndi anladım ki, xəstəxanadayam. Həkimin dediyinə görə, başım əzilmiş, qılçamın biri dizdən aşağı qırılmış, iki qabırğam sınmışdı. Həkimlər mənə Rəşadın öldüyünü söylədilər.

Bu dəhşətli qəzada möcüzə nəticəsində sağ qalmağımın yeganə səbəbi hər dəfə olduğu kimi, Rəşadın yanında deyil, maşının arxa oturacağında əyləşməyim oldu.

Bir ay xəstəxanada yatdım. Sağalandan sonra evimə getdim. Bundan sonra bütün pis işlərə tövbə etdim. Etdiyim hərəkətlərə görə, yaxınlarımın üzünə baxa bilmirəm, onlardan qaçıram. Məhkəmədə Yasəfin mənə dedikləri hələ də qulaqlarımda səslənir. Yaxşı ki, qardaşlarım və qohumlarım yeni yaşadığım ünvanı bilmirlər. Məni tanıyanların hamısından qaçmağa cəhd göstərsəm də, vicdan əzabından qaça bilmirəm. Küçəyə çıxmağa utanıram. Mənə elə gəlir ki, küçədə hamı məni göstərib deyir: “Baxın, bu o qadındır!..”

**17.10. 2013.**

# Nakam məhəbbət

(Həyat hekayəsi)

**“Eşq qadının həyatında bir romandır, kişidə isə tək bir hissədir.”**

**(Konfutsi)**

**M**ən Ədalətlə bir sinifdə oxuyurdum. O, əlaçı idi, müəllimlər xətrini çox istəyirdi. Riyaziyyat, ədəbiyyat, rus dili və ingilis dili fənlərindən yoxlama yazı işi olanda hamımız Ədalətdən kömək gözləyirdik. Düzü, Ədalət heç kimin qəlbini qırmazdı, özü yazıb qurtaran kimi, uşaqlara kömək edərdi. Müəllimlərin onu dəfələrlə məzəmmət etməsinə baxmayaraq, Ədalət elə həmin Ədalət idi. O mətni həmişə ayrıca vərəqdə yazıb mənə ötürərdi. Ədalət kimya, fizika və biologiya fənlərini daha yaxşı oxuyardı. O, həmin fənlərdən rayon və respublika olimpiadalarında iştirak edərdi. Biz 9 - cu sinifdə oxuyarkən Ədalət kimya fənni üzrə respublika olimpiadasında üçüncü yer tutmuşdu. Məktəbdə hamı onu “Eynşteyn” deyə çağırardılar.

Açığın deyim ki, məndə kimya və biologiya fənlərinə qarşı maraq və həvəsi Ədalət oyatmışdı. O mənə həmişə deyərdi ki, səndən yaxşı həkim olar. Çünki mən də Ədalət kimi bütün insanlarla dil tapmağı bacarırdım, onlara tez isinişirdim. Ən çətin adamla belə, ünsiyyət qurmağı bacarır, onların qəlbinə yol tapa bilirdim. İnsanlarla həmişə təbəssümlə danışardım. Hətta, qızlarımız deyirdi ki, təbəssümlü baxışlarına görə sənə qibtə edirik.

Sinif qızlarımızın bəziləri bir-birindən gizli Ədalətə sevgi məktubları yazırdı. Çox-çox sonralar Ədalətin özü bunları mənə etiraf etdi. Məndə isə Ədalətə qarşı qızlardakı kimi sevgi hissi deyilən şey yox, rəğbət və hörmət hissi vardı. Ədalət heç zaman kimsəni özündən incik salmazdı. Amma

görürdüm ki, o, başqa qızlara nisbətən mənə daha çox diqqət və qayğı göstərir. Hiss edirdim ki, Ədalət mənə qarşı biganə deyil.

Bir dəfə məktəbdən evə gedərkən Ədalət məni ötürməyə icazə istədi. Etiraz etmədim. Həmin gün Ədalət yol boyu mənə kimya və biologiyadan "dərs keçdi." Ədələtin bir xasiyyətindən daha çox xoşum gəlirdi. O, sirr saxlamağı bacarırdı, kimsənin sözünü kimsəyə danışmazdı. "Ötürmə" hadisəsindən sonra Ədalət hər bazar günü bizə gələr, dərslərimizi birlikdə hazırlardıq. Anam da Ədalətin xətrini çox istəyirdi. Çünki o bilirdi ki, məndə dərs oxumaq istəyini Ədalət yaradıb. Get-gedə Ədalətə daha da isinişməyə başlamışdım. İçimdə ona qarşı artıq qəribə hisslər baş qaldırırdı. Etiraf edim ki, əvvəllər belə hisslərdən uzaq idim. Onun danışıq tərzi, davranışı, baxışları, əllərinin hərəkəti, mən nəyisə başa düşməyəndə, gülərək həmin şeyi yenidən izah etməsini bir anlığa yaddaşımda təkrar edirdim. Mən Ədaləti nə qədər çalışırdım ki, əsəbiləşdirim, ancaq o, əsəbiləşmək əvəzinə sadəcə mənə gülümsərdi. Onun mənimlə bu qədər mülayim və xoş rəftar etməsini sonralar anlamağa başladım. Mən də təmkinli olmağı sevərdim. Ədalət mənə demişdi ki, həkim hər şeydən öncə, təmkinli olmalı, çətin vəziyyətdən çıxmaq üçün ağıllı və operativ qərar qəbul etməyi bacarmalıdır. O mənə insanlarla münasibətin düzgün qurulmasından, hər bir adama özünəməxsus yanaşma tərzindən, xəstəyə xəstə kimi deyil, sağlam və normal insan kimi yanaşmadan söz açardı. Mən isə deyərdim: "Ədalət, elə danışırsan sanki artıq orta məktəbi də, ali məktəbi bitirmiş və hansısa böyük bir xəstəxanada uzun illərdən bəri işləyən təcrübəli həkimsən." Bir dəfə ondan bunları haradan oxuduqlarını soruşdum. Dedi ki, zamanı çatanda o, oxuduğu kitabları mənə də verəcək. Nəsə... Ədalət bizdən gedən kimi, birdən-birə evdə özümü tək-tənha hiss etməyə başlayırdım, baxmayaraq ki, atam, anam, bacı və qardaşlarım hamısı evdə, yanımda idilər.

Ədalətin evdə mənimlə dərslərə birgə hazırlaşmağımızı artıq sinfimizin qızları da bilirdi. Ona görə də, onlar məni görən kimi bir-biri ilə pıçıldaşmağa başlayırdılar. Bu pıçıldaşmalar istər-istəməz məni hövsələdən çıxarırdı. Ancaq əsəbiləşən kimi, Ədalətin sözlərini xatırlayır, qızlara qarşı olan hirsim tez də soyuyurdu...

Artıq orta məktəbin sonuncu sinfində oxuyurduq. Ədalətə o qədər öyrəşmişdim ki, onu bircə saat belə görməyəndə darıxırdım. Artıq bu hissin sevgi olduğunu anlamışdım. Dərk edirdim ki, sevgi insana nə göylərdən gələn bir güc, nə də insanlara zorla qəbul etdirilən bir duyğudur. Sevgi qaranlıqda yandırılan məşəl kimidir. O, insana yol göstərir, amma uzaqda nə olduğunu bildirmir. Dərk etdim ki, sevmək, sevdiyin insanın limanı olmaqdır. Sevmək sevdiyin insana bir nəfəs kimi, bir hava, su kimi lazım olmaqdır. Sevmək sevdiyin insanın baxdığı yerdə, susduğu yerdə olmaqdır. Sevmək bir-birinə qəlbən inanmaqdır. Sevmək bir-birinə vurğunluqdur.

Mən başa düşdüm ki, Ədaləti heç kimin sevə bilmədiyi böyük bir qüvvə ilə sevirəm. Çünki mən onun yanında olanda özümü hamıdan güclü hesab edirdim. Bu tükənməz gücü, qüvvəni mənə verən Ədalətin sevgisi, eşqi idi. Ədalətlə aramızda olan isti münasibətlərdən artıq bütün məktəbin xəbəri vardı. Hətta, müəllimlər Ədalətə demişdilər ki, o, həyatda ən düzgün seçimini edib.

Bir dəfə sinif yoldaşım Nazlı mənə:

Mən altıncı sinifdə oxuyanda bəzi şeyləri anlamağa başladım. Düzü, bu da heç məndən olmadı. Sinfimizdəki qızların bəziləri aralarında nə isə pıçıldaşıb gülüşürdülər. Elə bil ki, nə isə yeni bir kəşf haqqında təəccüblə danışırdılar. Bu “kəşf” əlbəttə ki, ancaq qızlara məxsus idi. Sonradan yaxın rəfiqələrimdən biri məni kənara çəkib, onların arasında gedən söhbətdən məni də hali etdi. Həmin söhbətə mən o qədər də əhəmiyyət vermirdim. Çünki vaxtımın əksər hissəsini dərslərimi hazırlamağa və musiqi ilə məşğul olmağa sərf edirdim. Demək istəyirəm ki, həmin günə kimi, yəni qızların o söhbətinə qədər mən belə məsələlər haqqında heç nə təsəvvür etmirdim. O söhbətdən sonra qeyri–ixtiyari mən də bu barədə düşünməyə başladım. Ancaq çox tez də unutdum. Çünki kitabları oxumaq həvəsim böyük idi. Bir müddət keçəndən sonra həmin söhbətlər yenidən beynimdə canlanmağa başladı. Daxilimdə başqa hisslər baş qaldırdı. “Qadınlıq, qızlıq” söhbətləri məni rahat buraxmırdı. Get-gedə oxumağa olan həvəsim sönürdü. Açığını deyim ki, orta məktəbdə oxuduğum vaxtlar o qədər də gözəgəlimli deyildim, ancaq şirin qız idim. Bunu hiss eləyirdim. Müəllimlərim də bu “şirinliyimə” görə məndən xoşları gəlirdi, həm də şıltaq qız idim. Xoşum gələn oğlanları döyürdüm. Nədənsə, onlar xətrimə dəymirdilər. Bəzən deyirlər ki, uşaqlıq məhəbbəti ötəri bir hissdir. Ancaq mən məhz o, ötəri hissə daha yüksək qiymət verirəm. Çünki həmin vaxt hamı təmiz, riyakarlıqdan uzaq olan ülvi arzularla yaşayır, bir-birinə inanır.

O vaxt bir parta yoldaşım vardı. Onu tez-tez döyərdim. Məndən qorxurdu. Sonralar anladım ki, əslində o məndən qorxmurmuş, qız olduğum üçün sadəcə, mənə hörmət edirmiş. Bəlkə, buna görə də, sinifdə hamıdan çox onu istəyirdim. Bircə dəfə də olsun,  o, xətrimə dəyməmişdi. Fuad da zahirən gəşəng deyildi, ancaq suyu şirin oğlan idi. Düzünü deyim ki, ümumiyyətlə, o vaxtlar məni oğlanların gözəlliyi deyil, səmimiyyəti, düzgünlüyü, xoş rəftarı və davranışı maraqlandırırdı.

Yuxarı siniflərdə oxuyarkən valideynlərim ədəbiyyata olan həvəsimi görüb, mənə müəllim tutdular. O zaman instituta biliklə qəbul olanlar az idi, əksəriyyətinin taleyini pul həll edirdi. Valideynlərim də istəyirdilər ki, məhz sonuncu yolla məni instituta qəbul etdirsinlər. Savadsız qız deyildim. Həvəsim olanda dərslərə hazırlaşıb, istədiyim qiyməti ala bilirdim.

Doqquz-onuncu siniflərdə başım dərslərə qarışdığından başqa şeylər barəsində, yəni bu yaşda qızların ən çox fikirləşdikləri “məhəbbət macəraları” barədə düşünməyə vaxtım yox idi.

Məni ədəbiyyatdan imtahana hazırlaşdıran müəllimənin əri institutda dərs deyirdi. Elə onun vasitəsilə də həmin institutun filologiya fakültəsinə qəbul olundum

İnstituta qəbul olandan sonra müəllimən məni qardaşına istədi. Oğlan xoşuma gəlmirdi. Hiss edirdim ki, o da məni istəmir. Amma bir müddət mənimçün gələn digər elçilərə razılıq vermədim. Üç il keçdi. Üçüncü kursda mənim bir kəsirim oldu. Müəllim mənimlə prinsipə düşmüşdü. Nə qədər xahiş-minnət elədiksə, qiymət yazmadı və mən institutdan qovuldum. Sonradan məlum oldu ki, müəllim məni başqa qızla səhv salıbmış. Sən demə, həmin müəllim rektorun adamını kəsməli imiş. Çünki elə hey məndən soruşurdu ki, mən rektorun adamıyam, ya yox! Nə isə, başqasının güdazına getdim.

Bir müddət boş-bekar gəzdim. Vaxtımın çoxunu ərdə olan bacımgildə keçirirdim. Bacım işlədiyindən onun qızını

saxlayırdım. Darıxdığımdan hərdən uşağı da götürüb balkona çıxırdım. Üzbəüz binada yaşayan bir oğlan bloklarının qabağında durub həmişə mənə baxırdı. Elə bil ki, balkona çıxmağımı gözləyirdi. Buna o qədər də fikir vermirdim. Sonradan hiss etdim ki, o, haradasa durub gizlincə biz tərəfə baxır. Çünki mən balkona çıxan kimi, o da dərhal blokun qabağında peyda olurdu. Hərdənbir əli ilə mənə anlamadığım işarələr edirdi. Amma bütün bunlara biganə idim. Bacım işdən qayıdandan sonra yenidən evimizə gedirdim.

Bir axşam yenə bacımgildən çıxıb, metroya tələsirdim. Bayırda yağış yağırdı. Həmin axşam havanın pis olmasına görə bacım evə getməməyi məsləhət gördü. Ancaq mən plaşımı geyinib, "Nə olacaq ki?"- deyib evdən çıxdım. Qonşu binanın yanından keçərkən:

- Qəşənq qız, olarmı sizi metroya kimi ötürüm? - deyə arxadan naməlum səs eşitdim. Geri qanrıldım. Qaranlıq olduğundan onun sifətini aydın görə bilmədim. Heç bir söz demədən addımlarımı yeyinlətdim.

- Deyəsən, tanımadınız, - həmin səsin sahibi təkrarən dilləndi.

Ayaq saxlayıb kimliyini bilmək istədim. O, da durdu. Yazıq bir görkəm alıb mənə baxdı. Birinci mərtəbənin pəncərəsindən düşən işıqda onu tanıdım. Hər gün blokun qabağında durub oğrun-oğrun mənə baxan oğlan idi.

- Siz allah, məni bağışlayın. Belə havada tək getməyinizdən narahat oldum. Düzü, bir neçə dəfə sizə yaxınlaşmaq istəmişəm, ancaq bacarmamışam, - deyə cavan oğlan özündə bir balaca cəsarət tapdı.

- Siz bütün qızları beləcə izləyirsiniz?

- Başa düşmədim? - Oğlan gözlərini döyərək soruşdu.

Daha bir söz deməyib, yoluma davam etdim. Hiss edirdim ki, o da arxamca gəlir. Metroya kimi məni izlədi. Ona gülməyim tutdu.

Ertəsi gün o, yenə də mənə yaxınlaşıb əvvəlcə adımı, sonra da hər gün bacımgilə nə üçün gəlib-getdiyimi öyrənmək

istədi. Bu dəfə onun suallarını cavabsız buraxmadım. O, əvvəlcə özünü təqdim etdi. Mən ondan heç nə soruşmadan Rauf özü haqqında bəzi məlumatlar verdi. Dostlarından, yoldaşlarından danışırdı. Hiss edirdim ki, yalan demir. Çünki, söhbət zamanı ciddi, səmimi görkəm alırdı. Ancaq nədənsə, valideynləri barədə heç nə danışmırdı.

Həmin gündən sonra Raufla tez-tez görüşməyə başladıq. Bir-birimizə elə öyrəşmişdik ki, bir gün görüşməyəndə elə bilirdik ki, aylar keçib. Bir ay olardı ki, görüşürdük. Ciddi oğlan idi Rauf. Zarafatı xoşlamırdı. Mən isə bu bir ay ərzində həm özüm barədə, həm də valideynlərim barədə ona hər şeyi danışmışdım.

Bir gün axşamtərəfi dənizkənarı parkda oturub Raufla şirin-şirin söhbət edirdik. Bu vaxt qarşımızdan bir ana öz qızının əlindən tutub keçirdi. Hər şeydən əvvəl, bu balaca qızın yaşına uyğun olmayan yerişi diqqətimi cəlb etdi. Özümdən asılı olmayaraq Raufa tərəf dönüb:

- Rauf, bir onun yerişinə fikir ver! - dedim. Balaca qız bu zaman anasından ucadan soruşdu:

- Anacan, bəs niyə gəmiyə minmədik? Axı, evdən çıxanda sən dedin ki, gəmiyə minəcəyik.

- Qızım, karusellə çox fırlandıq, ona görə də gəmiyə minməyə vaxtımız qalmadı. Sabah da gəlib gəmiyə minərik. İndi gedək evə.

Raufun sifəti tamam dəyişmişdi. Bulud kimi dolmuşdu. Onun rənginin birdən–birə dəyişməsi məni təəccübləndirdi.

- Rauf, məndən nəyi isə gizlədirsən?!

- Nəyi gizlədəcəyəm ki? - O,üzümə baxmadan dilləndi.

- Mən səndən bir neçə dəfə valideynlərin barədə soruşmuşam. Hər dəfə də suallarımı sükutla qarşılamısan. Niyə valideynlərin barədə mənə bir söz demək istəmirsən? Atan harada işləyir? Anan nəçidir? Bacı-qardaşların varmı?

Rauf fikirli-fikirli dilləndi:

- Əgər bunlar səni bu qədər çox maraqlandırırsa, o zaman söyləyəcəyəm. Atam Neft Daşlarında mühəndis işləyir. Bir

bacım var, ərdədir. Anam isə heç vaxt olmayıb, - deyə Rauf könülsüz halda cavab verdi.

Raufun sonuncu cümləsinə istər-istəməz gülməyim tutdu:

- Necə yəni anam heç vaxt olmayıb? Bəs sən göydən düşmüsən?

- Belə çıxır da. Bəzən həyatda elə an olur ki, insan doğulduğunu da danmaq məcburiyyətində qalır. Yaxşı, dur gedək, bu barədə başqa bir vaxt danışaram, - deyə Rauf gözləmədiyim halda qolumdan tutub ayağa qaldırdı. Mən isə inadkarlıq göstərdim:

- Xeyr, xeyr! Hər şeyi mənə bu gün, bu dəqiqə danışacaqsan, yoxsa bu bizim sonuncu görüşümüz olacaq.

O, əlimdən tutanda birdən-birə bədənimdən qəribə gizilti keçdi. Rauf bilmədim bunu hiss etdi, ya yox. Tez də qolumu buraxdı. Ancaq ürəyimdə onu qınamadım.

- Bağışla, bir az kobudluq etdim, - deyə o, üzürxahlıq etdi. - Yaxşı, əyləş. Əvvələn, sən də ana ilə onun qızı arasındakı danışığın şahidi oldun. Gördünmü, ana verdiyi sözə əməl etməyib. Hələ yalanın nə olduğunu bilməyən o, məsum körpəyə ana yalan danışıb. Ana gərək əvvəlcə uşağın arzusunu yerinə yetirəydi. Məncə, ananın yalan danışması bağışlanmaz qəbahətdir. Belə qəbahətlər gələcəkdə hətta, faciə ilə nəticələnə bilir. Elə xəyanətin özü də yalanın təməli üzərində cücərib boy atır. Ailəmiz haqqında səninlə hər şeyi açıq danışacağam, çünki hər dəfə bu barədə məndən soruşanda, çıxılmaz vəziyyətdə qalıram. Mən indi atamla yaşayıram. Anam atama, eləcə də ailəmizə xəyanət edib. Belələrinə “ana” deməyə dilim gəlmir. Atam on beş gün dənizdə, on beş gün də evdə olurdu. Atam evdə olmayanda, bazarlığı o, edirdi. Məhz həmin günlər evə çox gec gəlirdi. Bir də ki, hər gün bir şeyi bəhanə edərək evdən çıxırdı. Atamın bazarlıq üçün evdə qoyduğu pulun miqdarını mən də bilirdim. Ancaq onun etdiyi bazarlığın dəyəri atamın verdiyi pullardan bir neçə dəfə çox olurdu. Təsadüfdənmi, ya hansısa bir

qüvvənin, bəlkə də mənə məlum olmayan şübhədən o, bazara gedəndə, məni də özü ilə aparmağı təkid edirdim.

Rauf söhbətinə ara verib dənizə baxdı və dərindən köks ötürdü. Ona bu vəziyyətdə yazığım gəldi. Özümdən asılı olmayaraq, əllərini əllərimə aldım. Bu zaman o, gözlərini dənizdən çəkib mənə baxdı:

- Sən çox hissiyyatlı qızsan. Adamın ürəyindəkilərini sanki duyursan. Düzü, buna görə, səndən bir az ehtiyat edirəm. Ancaq səninlə olanda hər şeyi unuduram.

Rauf əllərini əllərimdən çəkib, bir anlığa susdu və düz gözlərimin içinə baxdı. Bu baxışlardan əvvəlcə qorxdum, bir az keçəndən sonra isə daxilimdə qəribə hisslər baş qaldırdı. Bu maqniti dəf etməyə özümdə qüvvə tapa bilmirdim. Rauf da sanki bunu gözləyirmiş. O, qüvvətli qolları ilə məni özünə tərəf çəkərək, ehtiraslı öpüşlərə qərq etdi...

Bir müddət bu odlu öpüşlərdən məst olaraq, onun qolları arasında sakitcə, müqavimətsiz qaldım...

Ertəsi gün onu həmişəkindən daha tez görmək istəyirdim. Mənə elə gəlirdi ki, vaxt ötüb keçmir. Saatın əqrəbləri da çox ləng tərpənir. İçimdə bir təlaş vardı. “ Niyə gəlib çıxmaq bilmir?!”- deyə bacımın dalısıyca deyinirdim. Tez-tez Raufgilin balkonuna baxırdım. Amma o, görünmürdü. Bu vaxt pəncərədən bacımın gəldiyini gördüm. Cəld əynimdəki xalatı çıxarıb, paltarımı geyinməyə başladım. Qapının zəngi çalındı. Tez qapını açdım. Mənim hazır vəziyyətdə olduğumu görən bacım təəccüblə soruşdu:

- Ay qız, bu gün nə olub, belə? Nə tez yığışmısan?
- Bəs sən bu gün niyə gec gəldin? - tələsik soruşdum.
- Nə danışırsan?! Saata bir bax! - Bacım gülərək divardakı saata işarə etdi.
- Divardakı saat düz işləmir! - özümü o yerə qoymaq istəmədim.

Bundan sonra bacım qolumdakı saata baxdı, daha heç nə demədən gülümsünüb, qızını qucağına götürüb öpdü. Ayaqqabılarımı tələsik geyindiyimi görüb soruşdu:

- Çörək yemisən?
- Yemişəm. Uşaqları da yedizdirmişəm. Yaxşı, sağ ol! - deyib tələsik qapıdan çıxdım.

Həyətə düşəndə artıq Rauf bloklarının qabağında dayanıb məni gözləyirdi. O, həmişə arxadan gəlib mənə çatırdı. Bunu mən ona demişdim, çünki bacım bizi pəncərədən görə bilərdi.

Bir az getmişdim ki, o, arxadan yaxınlaşıb qoluma girdi:

- Axşamın xeyir, əzizim!
- Axşamın xeyir! Bəs bu gün niyə görünmürdün? - incik halda soruşdum.
- Bütün günü evdə gah çarpayıda uzanıb sənin barəndə fikirləşirdim, gah da pəncərənin qarşısında dayanıb, otağına baxırdım.

Mənsə hələ danışmırdım.

- Düzünü deyim ki, hələ də dünənki görüşün təsiri altındayam, - deyə o, susduğumu görüb yenidən dilləndi.
- Belə çıxır ki, dünənki görüşdən xeyli məmnun qalmısan. Bəs, o cür görüşlər bir də təkrar olmasa necə? - sınayıcı nəzərlə Raufa baxdım.
- Elə demə, sən Allah! Mənə elə gəlir ki, həyatda nəsə itirmişdim, onu İndi-indi tapıram. Bunu da itirsəm, birdəfəlik həyatın çıxılmaz, qaranlıq dibinə yuvarlanaram, - Rauf dərindən köks ötürdü.
- Demək, sən bu günə kimi bir neçəsini itirmisən, eləmi?
- Dünən mənimlə heç bu cür danışmırdın? Dünəndən bu günə nə dəyişiklik baş verdi ki? Bu gün çox soyuq görünürsən.
- Bəs bilmirsən ki, yaydan sonra payız gəlir, - deyə ciddi görkəm aldım.
- Sənə nə olub belə? Bəlkə, dünən sənə qarşı səhv etmişəm. Nəsə xətrinə dəymişəm? Əgər belə bir şey olubsa, üzr istəməyə hazıram.
- Qorxaq kişilərdən xoşum gəlmir, - deyə mən onu yenidən sancdım.
- Elə mənim də qorxaqlardan xoşum gəlmir.

Rauf qolumu möhkəmcə sıxaraq, sifəti pörtmüş halda özünə tərəf çəkdi.

- Qolumu burax! Bu nə kobudluqdur edirsən, Rauf! – əsəbi halda ona baxdım.

O, tez qolumu buraxdı.

- Bağışla! De görüm, nə olub? Niyə belə danışırsan?
- Heç nə olmayıb. Sadəcə, səni yoxlamaq istədim, - deyə gülümsədim.
- Sən güləndə daha gözəl görünürsən.
- Rauf, dünənki söhbətin yarımçıq qaldı. Ardını danış da.
- Yox, lazım deyil.
- Danış! Mən ki, sənə hər şeyi danışmışam. Ailən haqqında hər şeyi bilmək istəyirəm. Aramızda olan münasibətin gələcəyi bundan çox asılıdır.
- Onsuz da hamısını danışmaq mümkün olmayacaq.
- Eybi yoxdur. Ardını da birisigün danışarsan. Mənimçün bunlar çox maraqlıdır, Rauf , - deyə təkid etdim.
- Yaxşı, - deyə Raufun sifətini elə bil ki, qara bulud örtdü.
- Bir gün anamın tez-tez bazara getdiyini atama söylədim. Atam heç bir söz demədi. Ancaq sifəti dərhal dəyişdi. O, siqaretini götürüb, balkona çıxdı. Həmin axşam çörək də yemədi. Anam atamın o tərəf-bu tərəfinə nə qədər keçdisə, mümkün olmadı. Anam soruşdu.
- Birdən-birə sənə nə oldu belə? Xəstələnməmisən ki?

Atam isə susurdu...

Ertəsi gün səhər tezdən onun harasa hazırlaşdığını gördüm. Haraya gedəcəyini soruşdum. Dedi ki, işə gedir. Dedim ki, işə getməyinə hələ iki gün var. Atam dedi ki, iş yoldaşlarından biri xəstələnib, onun yerinə işə getməlidir. Səsə anam da gözünü ovuşdura -ovuşdura durub gəldi.

- Hara belə? - soruşdu.

Atam onunla daha danışmaq belə istəmirdi. Düzü, onun bu hərəkəti məndə təəccüb doğururdu.

- Bəs, niyə axşam demədin? Yemək hazırlayardım. Bura bax, dünəndən bəri qaş-qabağını tökmüsən. Nə soruşuramsa,

cavab vermirsən. Xeyir ola?! - Anam cavab gözləmədən, əsəbi halda yenidən qayıdıb otağına girdi və qapını da arxasınca örtdü.

Rauf bir qədər susandan sonra:

- Qatar gəldi. Bu artıq üçüncü qatardır ki, minmirsən, gecikərsən, - deyə üzümə baxdı.

- Eybi yoxdur, evdə deyəcəyəm ki, bacımgildə ləngidim. Bu gün söhbətini qurtarmayınca evə gedən deyiləm, - deyə Raufa qəti fikrimi bildirdim.

- Yaxşı, - Rauf söhbətinə davam etdi. - Sonra atam evdən çıxıb getdi. Anam səhər yeməyini verəndən sonra paltarını dəyişməyə başladı.

- Yenə bazara gedirsən? Evdə ki, hər şey var. Atam təzəcə bazarlıq edib ki - dedim.

- Bankaya qoymaq üçün bibər almalıyam. Sən ki, bunu çox xoşlayırsan. Qışda yeyərsən - dedi.

Doğrudan da, bibər tutmasını çox xoşlayırdım. Daha heç nə demədim.

- Saat yarıma qayıdıram, Rauf. Evi yiyəsiz qoyma! - Anam həmişə bazarlıq etdiyi zənbilini də götürüb evdən çıxdı.

Günorta vaxtı idi. Anam bazardan hələ qayıtmamışdı. Divanda uzanıb maqnitafona qulaq asırdım. Bu vaxt qapının zəngi çalındı. Tez durub qapını açdım. Atamı görəndə təəccübləndim. Onun sifəti pötmüşdü, sanki təndirin alovu onun üzünü yalamışdı, rəngi dəyişmişdi.

- Ata, bəs işə getmədin? - tələsik soruşdum.

O, heç nə demədən, əlindəki çantanı yerə qoydu, ayaqqabılarını çıxarıb otağına keçdi. Düşündüm ki, yolda əhvalı dəyişdiyi üçün işə getməyib. Çünki rəngi saralmışdı. Dözə bilməyib arxasınca otağa keçdim.

- Ata, xəstələnməmisən ki? Qızdırman yoxdur ki?

- Yox, Rauf. Qızdırmam yoxdur. Mənə bir ürək dərmanı gətir. Bərk ağrıyır, - deyə atam paltarını soyunmadan çarpayıya uzandı.

Tez dolabdan validol gətirib atama verdim. O, dərmanı dilinin altına qoyub, gözünü yumdu.

Qapının zəngi yenidən çalındı. Bu dəfə gələn anam idi. Atamın işə getmədiyini, qayıdıb gəldiyini ona deyəndə, anamın da rəngi qaçdı.

- Bəs niyə getməyib? Bir şey olmayıb ki? - Anam astadan soruşdu.

- Ürəyi ağrıyır, dərman verdim. İndi çarpayıda uzanıb, - dedim.

Anam bazarlıq etdiyi zənbili mətbəxə apardı. Yenidən atamın yanına getdim. Arxamca anam da otağa girdi.

- Nə olub? Xəstələnmisən?

- Xəstələnməmişəm, şikəst olmuşam. Sən məni ömürlük şikəst etdin, nankor! - Atam bərkdən qışqırdı.

Anam da, mən də atamın bu müəmmalı sözlərindən heç nə anlamamış kimi, təəccüblə gözlərimizi döyə-döyə qaldıq.

Mən onları otaqda qoyub həyətə düşmək istədim, ancaq atam arxadan məni çağırdı:

- Rauf, getmə! Gəl sən də əyləş! Sən artıq uşaq deyilsən. Mən istərdim ki, bu xəyanətkar ananın ittihamında sən də iştirak edəsən! Dönüb anama baxdım. Onun rəngi avazımışdı. Məhz həmin gün dünyalar qədər sevdiyim, məhəbbət bəslədiyim bir adama qarşı məndə birdən-birə nifrət hissi baş qaldırdı. Həmin gün bir ailə səadətinə xəyanətkarlıq nəticəsində həmişəlik nöqtə qoyuldu. O vaxtdan başa düşdüm ki, həyatda təkcə uşaqlar səhv etmirlər. Valideynlərin günahı ucbatından biz övladlar da əzab və iztirab çəkməli oluruq.

Rauf söhbətini bununla tamamladı. Mən başa düşdüm ki, bunları yenidən xatırlamaq onun üçün ağırdır. İndi mənə hər şey aydın oldu. Onu da deyim ki, bu söhbət məni Raufa daha da yaxınlaşdırdı, ona qarşı olan tərəddüdüm yox olub getdi.

Raufla münasibətlərimdə hər şey mənim istəyimlə olurdu. Bəzən o, mənə qarşı həddindən artıq ciddi olurdu. Belə görkəm alanda, ona olan inamım daha da artırdı. Onun qohumu texnikumda müəllim işləyirdi. Rauf da orada

oxuyurdu, axşamlar isə həmin texnikumda gecə növbəsində qalırdı. Bir axşam o məni iş yerini göstərmək məqsədilə texnikuma apardı. Hər şey də elə həmin gecə baş verdi...

Özümə gələndə, artıq hər şey ötüb keçmişdi. Rauf günahkarcasına başını qaldırmadan dodaqaltı mızıldandı:

- İndi başa düşdüm ki, mən sənin həyatında ilk kişiyəm.

Bundan sonra Raufla tez-tez görüşsək də, onunla bir daha intim əlaqədə olmadıq. Daha doğrusu, buna mən razı olmadım. Bir-birimizə o qədər isinişmişdik ki, bircə an da olsa, ayrılmaq istəmirdik. Həmişə bir yerdə olmağı arzulayırdıq.

Bir həftədən sonra Raufun əsgər getmək məsələsi ortaya çıxdı.

Yola düşməzdən bir gün əvvəl yenə də görüşdük. Bu görüş zamanı düzü mən ondan nəsə gözləyirdim. Rauf mənə heç olmasa, bir söz deməliydi. Ancaq o, heç bir söz demədən sağollaşdı və əsgərliyə getdi...

...Yeni ilin sentyabrında yenidən institutun üçüncü kursuna bərpa olundum. Mənə bir neçə dəfə elçi gəldi, razılıq vermədim. Sonra müəlliməm bizə qardaşı üçün elçi gəldi. Ondan keçə bilmədim, çünki onlar instituta bərpa olunmağımdan ötəri çox əziyyət çəkmişdilər.

Onunla nişanlanmağa razılıq verdim. Amma sonra mənə dedilər ki, guya oğlan məni istəmirmiş, bacısının təkidilə mənimlə nişanlanıb. Onun başqa istəklisi varmış. Əlbəttə, bütün bunları çox-çox sonralar, yəni ondan ayrılandan sonra bildim. Onunla görüşlərimizdə mənə qarşı olan soyuqluğunu heç zaman sezməmişdim. Daha doğrusu, o bunu mənə hiss etdirməmişdi. O, saatlarla institutun qabağında durub, dərsdən çıxmağımı gözləyirdi. O vaxtlar ona qarşı bir az şıltaqlıq edirdim. Nə deyirdimsə, hara getmək istəyirdimsə, o, sözsüz yerinə yetirirdi.

Altı aydan sonra Rauf əsgərlikdən məzuniyyətə gəlmişdi. Mənimlə görüş zamanı barmağımdakı nişan üzüyünü görəndə:

- Sən məni belə sevirdin?! - deyib əsəbi halda məndən uzaqlaşdı.

Mən indi başa düşürəm ki, onların hər ikisindən bir müddət sadəcə, xoşum gəlirmiş. Aramızda istək, sevgi deyilən bir şey olmayıbmış. Sonra müəlliməmin qardaşına ərə getdim.

Bir aya kimi bir-birimizlə “mehriban” yaşadıq. Sonradan o, etiraf etdi ki, məni istəmədən alıb. Bu sözdən sonra ona olan münasibətim tamam dəyişdi. Bundan da yaxşı oğlanlar dərdimdən “öldükləri” halda, onun bu sözü mənə bərk toxundu. Dedim ki, bundan sonra necə hərəkət etsə də, ondan zərrəcə olsa inciməyəcəyəm.

- Ayrılsaq da? - O, gülə-gülə soruşdu.
- Ayrılsaq da, - mən də özümü sındırmadan ciddi tərzdə cavab verdim. - Bir də mənim yanımda belə sözlər işlətmə! Mən yalvaran qadınlardan deyiləm. Elə günü sabah gedib, boşanmamız barədə məhkəməyə ərizə verə bilərəm. Məni belə şeylərlə qorxutma! - deyə söhbətə son verdim.

Həddindən artıq təkəbbürlü idim.Ertəsi gün boşanmaq üçün məhkəməyə ərizə verdim. Bundan nə onların ailəsi, nə də ki, bizim ailə xəbər tutdu.

Məhkəmədə fikirləşmək üçün bizə 3 ay vaxt verdilər. Bu müddət ərzində ərim artıq əvvəlki istəklisi ilə görüşürdü. Bunu məndən gizlətmirdi.

Beləliklə, evlənməyimizin altı ayı tamam olan kimi, heç kimin xəbəri olmadan boşandıq. Amma nədənsə ikimiz də ayrılmağımızı gizli saxlamaq istəyirdik. Deyə bilmərəm, bəlkə də peşman olmuşduq. Bundan sonra altı ay da onunla bir evdə yaşadım. Onunla hər cür münasibətləri davam etdirirdik. Bir müddət keçəndən sonra başa düşdüm ki, bu cür münasibətlər çox davam edə bilməz, çünki, artıq o mənim yatağıma ər kimi deyil, “oynaş” kimi girirdi. Ondan artıq iyrənirdim, intiqam almaq istəyilə alışıb yanırdım.

Bundan sonra mən də xoşum gələn kişilərlə görüşməyə başladım. Açığını deyim ki, onun ailəsi xətrimi çox istəyirdi. O isə həmişə evdə elə münasibətlər yaratmağa çalışırdı ki, aramızdakı səmimiyyət pozulsun. O zaman məndə bəzi keyfiyyətlər hələ ki, qalmışdı. Məsələn, kim mənə böhtan

deyirdisə, həmin adamın gizlin hərəkətini nəinki başqalarına, hətta onun üzünə belə vurmurdum. Amma indi elə deyiləm. Çox qürurluyam. Qüruruma heç kəs toxuna bilməz. Qürurumu qoruduğuma görə də ondan boşandım. O zaman mənə bircə söz lazım idi ki, “axı, biz nə üçün boşanaq?” - deyim. Axırda o bunu etiraf etdi. Dedi ki, əgər mən desəydim “xeyr, mən boşanmıram”, onda biz boşanmayacaqdıq. Bəli, mən özümü onun qarşısında sındırmadım.

Onunla ayrılandan sonra xoşum gələn bir neçə oğlanla görüşdüm. Çünki artıq hisslərimi cilovlaya bilmirdim. Düzünü deyim ki, yaxşı kişiyə rast gəlməmişəm. Onların hamısında riyakarlıq görmüşəm. Ona görə də kişilərə qarşı inamım ölüb. Dəfələrlə özümdə inam yaratmağa çalışsam da, sonradan bu inamı pis adamlar yox edib.

Ayrılıb evimizə gələndən sonra ərim əvvəlki istəklisi ilə evləndi. Mənimçün də bir neçə dəfə elçilər gəldi, amma ikinci dəfə ərə getməyi özümə sığışdıra bilmədim.

Ailə münasibətlərimizdə rəfiqəmin mənə qarşı etdiyi xəyanəti isə heç cür unuda bilmirdim. Aramızda heç bir gizli söhbət olmazdı. Bir-birimizə möhkəm inandığımız üçün aramızdan su da keçmirdi. Mən ərə gedəndən sonra o bizə tez-tez gəlirdi, məni darıxmağa qoymurdu. Ərimi mənə tərifləyirdi. Onun xasiyyətinin xoşuna gəldiyini dəfələrlə mənə eşitdirmişdi. Sonralar nədənsə o, bir müddət bizə gəlmədi. Kef-əhvalımı ancaq telefonla soruşurdu. Ondan soruşanda ki, niyə biz tərəflərə gəlmir, deyirdi ki, işi çox olduğundan imkan tapmır. Sonradan aydın oldu ki, o, ərimlə gizli görüşürmüş. Mənim Raufla gəzdiyimi də ərimə o, xəbər vermişdi. Ərim isə sadəcə ondan istifadə edirmiş. Bu məsələlərdən xəbər tutduğumu bilən rəfiqəmin bir daha nə zəng etməyə, nə də mənimlə üz-üzə gəlməyə cəsarəti çatmadı.

Ata evinə qayıdandan sonra ailəmizdə də vəziyyət dəyişdi. Evli qardaşım heç yerdə işləmirdi. Ondan kiçik qardaşım isə narkomaniyaya qurşanmışdı. Atam təqaüdçü idi. Ailədə işləyən yalnız anam idi. Qardaşlarımın dərdi onu rahat

buraxmırdı. Son vaxtlar ürəyi də ağrıyırdı. Başa düşdüm ki, bu cür ailənin ağırlığını çəkmək onun üçün çox çətindir. Bir tərəfdən mən də onlara yük oldum. Özümə iş tapmağa məcbur idim. Düşündüm ki, heç olmasa özüm-özümü dolandıraram. Amma quru maaşla indiki çətin vəziyyətdə dolanmaq, əlbəttə, olduqca ağırdır. Başqa çıxış yolu tapa bilmədim. Mən də başqaları kimi yaxşı geyinmək istəyirdim...

Bir dəfə tikinti trestində katibə işləyən rəfiqəmin yanına getmişdim. Onunla üzbəüz oturub söhbət edirdik. Bu zaman otağa hündürboylu, dolubədənli, yaraşıqlı bir oğlan daxil oldu. Rəisin yerində olub-olmadığını soruşdu. Mən də istər-istəməz qanrılıb ona baxdım. Bunu görən kimi mənə salam verdi. Sonra isə rəisin yanına keçdi. Rəfiqəm dedi ki, indi sən gedən kimi, məndən elə hey sənin barəndə soruşacaq.

O, rəisin yanından çıxıb gedəndə, rəfiqəmi bircə dəqiqəliyə dəhlizə çağırdı. Bir neçə dəqiqədən sonra rəfiqəm gülə-gülə içəri girdi:

- Gördünmü, sənə dedim əl çəkməyəcək. Görən kimi vurulub, - deyə rəfiqəm sağ əlini çiynimə qoydu, - hə, nə deyirsən, xoşun gəldi ondan?
- Hələ demək olmaz. Bu onun imkanlarından asılıdır.
- O barədə narahat olma. İmkanı hər şeyə çatan oğlandır. Bu gün-sabah özü də rəis olacaq, - deyə rəfiqəm göz vurdu.

Oğlanı yoxlamaq məqsədilə rəfiqəmlə xəbər göndərdim ki, razı deyiləm. O isə cavabında bildirir ki, məndən ötrü hər cür şərait yaratmağa hazırdır.

Bundan sonra onunla görüşməyə razı oldum. Həqiqətən də o, mənim üçün hər şey edirdi. Maddi cəhətdən mənə çox köməyi dəyirdi. O, bir müddət məndən evli olduğunu gizlətdi. Sonradan özü hər şeyi açıb söylədi. Mənə elə öyrəşmişdi ki, bəzən görüşmək üçün işini də atırdı. Baxmayaraq ki, onlarda iş rejimi çox ciddi idi. Hətta, bir dəfə qovulma məsələsini kollegiyaya qoymaq istəyirdilər. Prinsipial oğlandı. İstədiyinə nail olmayınca, əl çəkən deyildi.

Onunla tanışlıqdan sonra evə köməyim çox dəyirdi. Üst-başım da düzəlmişdi.

Bir dəfə məni restorana aparmışdı. Daha doğrusu, yaxın tanışlarının birinin toyuna getmişdik. Hamı oturub bəylə - gəlinin gəlməsini gözləyirdi.

Bir azdan "Vağzalı" çalındı. Bir anlıq toy günümü xatırladım və özümdən asılı olmayaraq: " Görəsən, bunların xoşbəxt günləri nə qədər çəkəcək?"- deyə düşündüm. Gəlin doğrudan da, gözəl idi. Bəy isə sakit təbiətli oğlan təəssüratı bağışlayırdı.

Bəylə gəlin oturduğumuz stolun yanından keçəndə, Elçin özündən asılı olmadan: - Gülya?! - deyib başını aşağı dikdi. Sifəti haldan-hala düşdü.

- Nə oldu? Gəlini tanıdın? - soruşdum.

O, dərindən köks ötürdü.

Mən onu rahat buraxmaq istəmədim. Elçini sancmaq məqsədi ilə yenidən soruşdum:

- De görüm, gəlini hardan tanıyırsan? Niyə onu görən kimi sifətin dəyişdi?

- Əgər məni istəyirsənsə, çox xahiş edirəm ki, sənə aid olmayan məsələləri bundan sonra bir daha soruşma. Lazım gələndə özüm sənə bəzi şeyləri deyərəm. Belə məqamlarda məndən nəyisə öyrənmək üçün heç vaxt təkid etmə! - deyə Elçin araq dolu qədəhi başına çəkdi.

Toy yenicə qızışmışdı ki, o, ayağa durub getmək istədiyini bildirdi. Mən də bir söz demədən, onunla birgə toy məclisini tərk etdim.

Tanışlığımızdan ay yarım sonra, həqiqətən, Elçini tikinti trestlərdən birinə rəis təyin etdilər. Rəis olandan sonra bir müddət görüşə bilmədik. Başa düşürdüm ki, işi çox olur. Buna görə Elçini qınamırdım. Söz vermişdi ki, idarədə hər şeyi yoluna qoyandan sonra məni yanında işə götürəcək.

Elçin məni sevdiyini bir neçə dəfə demişdi. Onu da deyim ki, uşaqlarını da çox istəyirdi. Bunu Elçinin söhbətlərindən hiss edirdim. Hətta, bir dəfə dedi ki, uşaqlarsız onun həyatının heç bir mənası yoxdur. Bundan sonrakı ömrünü ancaq uşaqlarına

həsr edəcək. Düzünü deyim ki, Elçinlə birlikdə olandan sonra daha heç kəsə gözümün ucuyla da baxmırdım.

Anam xəstələndiyindən ev işlərini özüm görürdüm. Lazım olanda bazarlığı da mən edirdim.

Bir dəfə bazardan qayıdırdım. Hər iki əlim dolu idi. Bu vaxt yanımda bir "Jiquli" dayandı.

- Görürəm, yükünüz ağırdır, xanım qız. Əyləşin aparaq! - deyə sükan arxasındakı oğlan qımışaraq mənə söz atdı.

Onu tanıdım. Köhnə tanışlardan idi.

- Yaxşı oldu, yüküm onsuz da ağırdır, - deyə mən razılaşaraq qabaqdakı oturacaqda əyləşdim. Çünki arxada tanımadığım oğlanla qız oturmuşdu.

- Çoxdandır görünmürsən? Haralarda olursan? Deyəsən, daha bizləri bəyənmirsən? Nə tez unutdun o, gözəl günləri, ay etibarsız! - Yalçın maşına əyləşən kimi soruşdu.

- İşləyirəm! - dedim.

- Bilmək olarmı, harada?

- Xeyr, bu "sekret"dir. Daha köhnə körpüləri sel apardı, - deyə ciddi tərzdə cavab verdim.

- Nə olar, səninçün yeni körpülər tikərik.

Artıq evimizin yanına çatmışdıq. Maşından düşməzdən qabaq Yalçın bildirdi ki, çimərliyə gedirlər. Yaxşı olardı ki, mən də gedim. Razı olmadım. Arxadakı oğlanla qız da söhbətə müdaxilə etdilər. Çox yalvar-yaxardan sonra razılıq verdim.

Həmin gün hava, doğrudan da, çox bürkü idi. Nəfəs almaq olmurdu. Onlar məni maşında yarım saat gözləməli oldular. Rəfiqəmgilə getmək bəhanəsiylə birtəhər evdən çıxa bildim. Buzovna tərəfə getməyi qərara aldılar. Dedim ki, evə tez qayıtmalıyam, Buzovna çox uzaqdır.

- Maşın olandan sonra nə uzaq, nə yaxın? Buzovna uzaq olsa da, "zato" sakitlikdir. Bizə də ki, sakit bir guşə lazımdır, - deyə arxada oturan oğlan dilləndi.

Arxada oturan oğlanın yol boyu elə bil ki, dili açılmışdı. Elə hey ağzına gələni üyüdüb tökürdü.

Buzovnaya gəlib çatdıq. Burada da adam az deyildi. Ancaq Yalçın maşını adam az olan yerə sürdü.

- Biz elə bildik ki, buralarda adam az olur. Sən demə, Bakının hamısı burada imiş, -Yalçın əsəbi halda dilləndi

Axır ki, bir münasib yer tapıb maşını saxladılar.

Bizdən sol tərəfdə heç kəs yox idi, ancaq iri sal daşlar vardı. Sağ tərəfimizdə, bizdən təxminən yüz metr aralıda bir qızla oğlan əl-ələ verib, sahil boyu gəzişirdilər. Oğlan şalvarının balağını dizinə qədər çırmamışdı, qız isə ayaqyalın idi. Bir az aralıqda ağ rəngli “QAZ-31” dayanmışdı. Görünür, onlarınki idi. Hərdən qızın gülüşləri aydınca eşidilirdi.

- Hə, qızlar, siz süfrəni hazırlayın, biz də suya baş vurub gəlirik, -Yalçın tez soyunub yoldaşıyla dənizə tərəf qaçdı.

Onlar hər şeyi maşından çıxarıb qumun üstünə yığmışdılar. “Səfər”ə yaxşı hazırlıq görmüşdülər, lazım olan hər şeyi almışdılar. Bir sözlə, bugünkü istirahət üçün yaxşıca xərc çəkilmişdi.

Qız özünü mənə Aybəniz kimi təqdim etdi. Danışığından yelbeyin qız olduğunu dərhal duydum. Hər deyilən sözə, yeri gəldi-gəlmədi ucadan gülürdü.

Oğlanlar dənizdən çıxana kimi, biz süfrəni hazırlamışdıq. Yalçın stəkanlara araq süzdü. İçməyəcəyimi bildirdim. Aybənizin yenə gic gülməyi tutdu.

- A..a..., burada nə var ki, niyə özümüzü kişilərdən əksik hesab etməliyik? Onlar araq içirlər, biz də içərik, - dedi.

Mən isə qəti etiraz etdim.

- Yaxşı, bu məsələni də həll edərik. Şampanımız da var,- Yalçın dilləndi. - Tofiq, maşından şampanı gətir!

- Gəlin ilk qədəhləri xanımların sağlığına içək! Onlarsız bizim bir günümüz olmasın! - deyə Tofiq heç kəsə imkan vermədən sağlığı deyib, araq dolu stəkanı birnəfəsə başına çəkdi.

Heç Aybəniz də Tofiqdən geri qalmadı. Mənsə şampandan azca içib, stəkanı yerə qoydum.

Sağlıqlar uzandıqca, araq şüşələri boşalıb qumun üstünə atılırdı. Artıq üç butulka boşalmışdı.

Tofiq birdən ayağa qalxaraq, Aybənizin qolundan tutdu və hər ikisi ləngər vura-vura sol tərəfdəki böyük sal daşların arxasına keçdilər...

Yalçın hələ yeməklə məşğul idi. Mən isə dəniz sahilində əl-ələ tutub gəzən, özlərini bəlkə də dünyanın ən xoşbəxt adamları hesab edən bayaqkı gənclərə tamaşa edirdim. Bu vaxt Yalçın da baxdığım səmtə tərəf dönüb rişxəndlə:

- Gəlsənə, bu iki yetimi də çağıraq, bir az bizimlə vursunlar, - dedi.

- Niyə elə deyirsən, Yalçın?

- Görmürsən, " kraxabor" un yekəsidir. O maşının sahibi, gərək o qız üçün burada restoran açaydı. O isə qızın başını uşaq kimi sokla aldadır, - Yalçın ucadan güldü.

- Nə olsun ki... Ancaq onlar qibtə ediləsi gənclərdir.

- Bunların nəyinə qibtə edilməlidir? Olsa-olsa maşınlarına, - deyə Yalçın ağzını büzdü.

Mənsə onun bu danışıqlarından get-gedə əsəbiləşirdim. Sərxoş olsa da, bunu dərhal hiss etdi. Məni qucaqlayıb öpməyə başladı.

- Yaxşı, bəsdir, - deyə onun qolunu boynumdan çıxarıb kənara itələdim.

- Necə yəni bəsdir?! Mən ki, sənə hələ bir şey etməmişəm,- Yalçın ikinci dəfə məni qamarladı.

- Bundan başqa heç bir şey olmayacaq! - ona xəbərdarlıq etdim.

- Bəs onda bura niyə gəlmişik? - Yalçın bu dəfə bir az ağır tonla soruşdu.

- Sərinləməyə, bir də ki, təmiz dəniz havası udmağa!

- Yox, səhv edirsən, əzizim. Mən maya batıran oğlanlardan deyiləm, - deyə o, pələng kimi üstümə sıçradı.

Bərkdən qışqırdım.

- Bağırma, onsuz da köməyə gələn olmayacaq. Səsinə heyifin gəlsin,- deyə hırıldadı.

Müqavimət göstərmək istəsəm də, getdikcə gücümün tükəndiyini hiss edirdim. Yalçının əlini möhkəmcə dişlədim. O,

bərkdən qışqırdı, qolları boşaldı. Bundan istifadə edib, onu kənara itələdim və ayağa durub, qızla oğlan tərəfə qaçmağa başladım. Arxadan üstümə elə bil ağır ağac düşdü. Üzüquylu yıxıldım. Var gücümlə:

- Kömək edin! - qışqırdım. O, əlinin arxasıyla alnımdan ağır bir zərbə endirdi. Düzü, kiminsə köməyimə gələcəyinə inanmadım. Artıq hər cür müqavimətin faydasız olduğunu hiss edirdim. Bu yandan da aldığım zərbədən süstləşdim. Heç nə hiss etmirdim. Birdən kimsə bu "ağacı" üstümdən götürüb kənara atdı.

Deyəsən, həmin oğlan idi. Əlini mənə tərəf uzatdı:

- Qalxın, bu əclaf sizə heç bir şey edə bilməz, - deyə əlimdən tutub ayağa qaldırdı.

Sanki bütün bunları yuxuda görürdüm.

Bu zaman Yalçın ayağa qalxıb oğlanın üstünə cumdu:

- Alə, niyə gedib öz yalını yemirsən? Başın gicişir? İndi sənə göstə...

Yalçın sözünü tamamlaya bilmədi. Oğlan ani bir zərbə ilə onu yerə sərdi.

- Siz daha bunlarla qala bilməzsiniz. Gəlin, bizimlə şəhərə gedək. Bir də belə alçaqlarla bayıra çıxmayın! - deyə xilaskarım maşına tərəf addımladı. - Cəmilə, qızı da maşına gətir, - o, əsəbi halda qıza bildirdi.

- Arif, sən neylədin?! - Cəmilə təşviş içində soruşdu.

- Narahat olma, heç nə olmaz. Bir azdan özünə gələcək, - Arif qızı sakitləşdirdi.

Arif maşını işə saldı. Bu vaxt Yalçının yoldaşı əlində bıçaq bizə doğru qaçırdı. Mən Arifi tələsdirdim.

- Arif qardaş, siz allah bir az tez olun. Onlar sərxoşdurlar. Heç nədən bir iş çıxar.

- Narahat olma. Belə küçüklərin qabağından qaçmaq, kişilikdən deyil. İcazə verin, onun da payını verim. Ondan sonra rahat yolumuza davam edərik, - deyə Arif maşından düşərək, ona tərəf qaçan Tofiqə sarı yeridi.

Mən arxadan:

- Onda bıçaq var, axı! - həyəcanla qışqırdım.

Arif cavab əvəzinə əlini yellədi.

Tofiq Arifə çatan kimi əlindəki bıçağı fırlatdı. Arif cəld aşağı əyildi. Bu zaman Tofiq top kimi qalxıb yerə sərildi. Sonra Arif heç nə olmamış kimi, asta addımlarla gəlib maşına oturdu. Cəmilə təlaş içərisində soruşdu:

- Onlara bir şey olmaz ki?!

- Dedim ki, narahat olmağa dəyməz! - Arif bizi bir daha arxayın saldı.

Maşın şəhərə doğru istiqamət götürəndə Arifin gözü Aybənizə sataşdı.

- Bəlkə, o qızı da götürək? - deyə güzgüdən bizə baxdı.

- Yox, yox, lazım deyil. Elə o da həmin bezin qırağıdır, - tez dilləndim.

Arif maşının sürətini artırdı.

İnanın ki, Ariflə Cəmilə indiyə kimi xatirimdən çıxmayıb və bundan sonra da çıxmayacaq. Həyatımda müəyyən dönüşün yaranmasına səbəb məhz Ariflə Cəmilə olubdur. Sən demə, həyatda yaxşı adamlar da varmış, həm də bir-birlərini dəlicəsinə sevən sevgililər də. Sadəcə olaraq, onları görmək lazımdır.

Arif məni evimizə kimi gətirdi. Sağollaşıb maşından düşəndə, o mənə vizit kartını verdi:

- Nə çətinliyin olsa, mənə zəng edərsən, - deyə qayğıkeşliklə dilləndi.

- Hə, hə, nə lazım olsa, utanıb eləmə. Arif səninçün hər şey edər, - Cəmilə də nişanlısının sözlərini təsdiqlədi.

Özümü saxlaya bilməyib dilləndim:

- Heç bilmirəm, sizə necə təşəkkür edim. Bu ani tanışlıqla siz indiyə kimi mənim həyatımda dərin bir iz qoydunuz. Çalışacağım ki, bu izi həmişə qoruyub saxlayım. Çünki sizin münasibətlərinizdən indiyə kimi dərk edə bilmədiyim çox şey götürdüm. Əminəm ki, sizinlə bu tanışlığın gələcək həyatıma çox böyük müsbət təsiri olacaq.

- Çalışın ki, hisslərin heç vaxt ağlını üstələməsin. Çünki həyatda ən böyük qəbahətlər hisslərin ağlı üstələməsi ucbatından baş verir. Yaxşı, salamat qal! Lazım olsa, biz yenə də görüşərik. Bizi özünə yad adamlar hesab etmə! Həyatda hər şey ola bilər. Bugünkü hadisəni isə çalışın ki, tez unudasan. Çünki iyrənc əməllər barəsində düşünməyə dəyməz, - deyə Cəmilə maşının açıq pəncərəsindən əlini uzadıb qolumdan tutaraq özünə tərəf çəkdi və üzümdən öpdü. Mən də doğma bacım kimi onun boynunu qucaqlayıb, hər iki yanağından öpdüm.

Maşın yerindən tərpəndi. Bir müddət yerimdəcə dayanıb onların arxasınca baxdım. Bir anlığa Cəmiləyə “paxıllığım” tutdu.Yol boyu bir-birləriylə elə söhbət edirdilər ki, kənardan baxan sanardı ki, bunlar sadəcə iş yoldaşlarıdır. Elə olurdu ki, Arifin fikirləri ilə Cəmiləninki düz gəlmirdi. Bu zaman gülə -gülə hər ikisi mənə müraciət edirdilər. Mənsə: “ Hər halda ikinizin eyni fikrə gəlməsi daha yaxşı olardı”, - deyə onları “sülhə” dəvət edirdim. Hiss edirdim ki, onlar bu söhbətlərlə həm də mənim fikrimi dağıtmaq istəyirlər. Ariflə Cəmilə eyni zamanda bi-biri ilə səmimi yoldaş və dost kimi rəftar edirdilər. Bir sözlə, onların bu münasibəti məni valeh etmişdi. Nə yaxşı ki, həyatda belə gənclərimiz də var. Həyatda əlini hər şeydən üzəndən sonra Arif və Cəmilə kimilərə rast gələndə, adamın itmiş inamı yenidən özünə qayıdır.

...Bir müddət sonra Arifi yoxlamaq istədim. Daha doğrusu, vəziyyət elə gətirdi ki, yoxlamalı oldum. Belə söz verib, sonra dediyindən qaçan kişiləri çox görmüşdüm. Bu dəfə isə Arifi sözdə deyil, iş görə bilməsində sınamaq istədim. Qardaşımın dolaşıq bir işi var idi. Köhnə tanışlardan söz verənlər olsa da, bunu həll edə bilmədilər. Düzünü deyim ki, buna görə onlar məndən “nəsə” umurdular. Mənsə onları rədd etdim. Həmin vaxt kişilərə olan nifrətim daha da artdı. Birdən yadıma Arifin verdiyi “vizit kartı” düşdü.Telefon nömrəsini tapdım. Düzü, o vaxtdan bəri etibarsız çıxdığım üçün özümü danladım.

Arif özü də vəzifə sahibi idi. Harada işləməsini mətləbə dəxli olmadığı üçün demək istəmirəm.Telefonda əvvəlcə məni tanımadı. Onu qınamaq olmazdı. Çünki ilk tanışlıqdan xeyli vaxt keçmişdi. Tanışlıq verəndən sonra çox sevindi. Dedi ki, zəngimi çox gözləyiblər. Kef-əhvaldan sonra çəkinə-çəkinə nə üçün zəng vurduğumun səbəbini ona söylədim. Arif isə cavabında " narahat olma, düzələr" - dedi. Həqiqətən də iki gündən sonra qardaşımın məsələsini Arif həll etdi. Bundan sonra Arifə olan hörmətim birə min artdı və Arifgillə əlaqələrimi möhkəmlətdim. Tez-tez onlara gedib-gəlirdim. Hər dəfə də ora gedəndə, Cəmilə əldən-ayaqdan gedirdi. Cəmilənin bu hörməti qarşısında xəcalət çəkirdim. Bəzən elə olurdu ki, Arif işdən gələnə kimi Cəmilə məni buraxmırdı. Onların mənə qarşı olan bu xoş münasibətin səbəbini bilmirdim. Düşünürdüm ki, yəni mən başqa " planetə" düşmüşəm? Sanki, yaşadığım bu cəmiyyətin adamlarına onların qətiyyən oxşarlığı yox idi. Son zamanlar onlara o qədər isinişmişdim ki, bir gün Cəmiləni, ya da Arifi görməyəndə özümə yer tapa bilmirdim.

Elçin ilə hələlik gec-gec görüşürdük. Hər dəfə də söz verirdi ki, tezliklə məni yanına işə götürəcək.

Bir gün yenə də Cəmiləgildə idim. Gec olduğundan ayağa durub evə getməyə hazırlaşırdım ki, telefon zəng çaldı. Cəmilə dəstəyi qaldırıb:

- Yəqin Arifdir, - dedi. Doğrudan da Arif idi. Cəmilə telefonda mənim də onlarda olduğumu bildirdi.

Cəmilə ilə sağollaşıb getmək istəyəndə:

- Hara gedirsən? Arif tapşırdı ki, səni heç yerə buraxmayım. On-on beş dəqiqədən sonra gələcək, - Cəmilə gülə-gülə əlimdən tutub yenidən kresloya oturtdu.

Cəmilə mətbəxə keçdi. Gördüm ki, yenidən yemək hazırlamağa başlayır. Bir az qabaq nahar etmişdik. Başa düşdüm ki, bu hazırlıq Arif üçündür. Cəmilə etiraz etsə də, yemək hazırlamaqda ona kömək etməyə başladım. Bir azdan Arif gəldi, yanında da bir oğlan.

Arif mənimlə həmişə səs-küylə görüşürdü. Bu dəfə də elə oldu:

- Haralardasan, ay qız? Niyə bizləri gec-gec yad edirsən? Bəlkə, qəlbinə kimsə dəyib? - zaraftla Cəmiləyə göz vurdu.

- Niyə elə deyirsiz, Arif? İnanın ki, sizə elə öyrəşmişəm ki, bir gün görməyəndə elə bil nəyisə itirmişəm.

- Zarafat edirəm, qəlbinə dəyməsin.Tanış ol, dostum Azərdir, - deyə yanındakı oğlanı təqdim etdi.

Hamımız süfrə başına əyləşdik.

Azərlə tanışlığım o gündən başladı. İlk baxışdan xoşum gəlmişdi. Rəftarı, davranışı onun yüksək mədəniyyətə malik olmasından xəbər verirdi. Həmin axşam məni evimizə də Azər gətirdi.

Yol boyu bircə kəlmə də olsun dinib-danışmadı. Maşını evimizin yaxınlığına çatmamış saxlatdırdım.

- Məncə, hələ dediyiniz ünvana çatmamışıq, - deyə Azər dilləndi.

Hiss etdim ki, şəhəri yaxşı tanıyır. Maşının qapısını açmaq istərkən:

- Zəhmət olmasa, dayanın! - deyə Azər çevrilib mənə tərəf baxaraq cəld maşından düşdü və gəlib oturduğum tərəfdən qapını açdı.

- İndi buyurun! - deyə gülümsəyərək, maşından düşməyə kömək etmək üçün əlini mənə tərəf uzatdı.

- Çox sağ olun, - deyib mən də nəzakət xatirinə onun əlindən tutub maşından düşdüm.

- Bəlkə evə kimi sizi ötürüm? - Azər bu dəfə yavaşca soruşdu.

- Yox, yox.Yaxşı deyil, qardaşlarım küçədə olarlar, - dedim.

- Yaxşı necə istəyirsiniz. Bəs, biz bir də nə vaxt görüşəcəyik? - Yol boyu bir kəlmə belə danışmayan Azərin dili sanki indi açılmışdı.

- Deyə bilmərəm, - mən də özümü o yerə qoymadım.

- Mən çox istərdim ki... - Azər fikrini tamamlaya bilmədi.

- Məni görmək istəsəniz, Arifgillə əlaqə saxlayarsınız, - deyə xətrinə dəymək istəmədim.

- Çox yaxşı. Mən elə hər gün Ariflə bir yerdə oluram, - Azər sevincək bildirdi.
- Gecəniz xeyrə qalsın!
- Xeyrə qarşı! - Azər yerindən tərpənmədən cavab verdi.

Onun mənimlə uşaqcasına etdiyi rəftara gülməyim tutdu. Əslində bu onun mənə qarşı göstərdiyi alicənablıq idi. Nədənsə həmin gecə səhərə kimi gözümə yuxu getmədi. Azər ilk dəqiqədən məndə qeyri-adi təəssürat oyatmışdı. Daxilimdə nədənsə başqa bir hiss də baş qaldırmışdı. Yəni ona başqa oğlanlara baxdığım kimi baxa bilmirdim.

Azərlə tanışlığımızdan iki gün sonra Elçin məni yanında işə götürdü. İş vaxtı özünü elə aparırdı ki, məni guya heç tanımır. Onunla görüşlərimiz işdən sonra olurdu. Hər dəfə də məni restorana aparırdı. Tezliklə ayrıca ev alacağına da söz vermişdi. Bir neçə həftə sonra o, verdiyi vədinə əməl etdi. Metronun yaxınlığında ikiotaqlı mənzilin açarını mənə verəndə, sevindiyimdən uşaq kimi onun boynuna sarıldım:

- Ay Allah! Gör bir sən neyləmisən! Elçin... Ay Elçin, axı, mən sənə necə təşəkkür edim?! - qəhərləndim.
- Yavaş, ay qız. Mən nə etmişəm ki! Bu mənim borcumdur. Hə, yaxşı, düzünü de görüm, bu sevincin təkcə evə görədir? - deyə Elçin sınayıcı nəzərlərlə mənə baxdı.
- Sən nə danışırsan, Elçin? Guya səni nə qədər sevdiyimdən xəbərin yoxdur? Belə sözlərlə xətrimə dəyirsən, - sifətimi turşutdum.
- Yaxşı, yaxşı. Səninlə zarafat da eləmək olmur, - bu dəfə Elçin məni qucaqlayıb öpdü. - Amma təzə evin qonaqlığını sən verəcəksən.
- Qonaqlıqdan qaçan deyiləm, - deyib Elçinin üzündən öpdüm.

Bir müddət gizlicə Elçinlə təzə evdə yaşadıq. Ailəmizin bundan xəbəri yox idi. Çünki gecələr evimizə gəlirdim. Başqa yerdə evimin olduğunu heç kim bilmirdi.

Bir gün Elçin dedi ki, artıq o, yoldaşı ilə boşanmaq qərarına gəlib. Uşaqları isə özü saxlayacaq. Əgər onu həqiqətən

sevirəmsə, uşaqlara doğma övladlarım kimi baxmalıyam. Elçinin bu şərtlərini böyük həvəslə qəbul etdim.

Bu söhbətdən bir neçə gün keçmişdi.Yaxın rəfiqələrimdən biri yanıma gələndə Elçin onu gördü.

Bir az keçəndən sonra mənə telefonla bildirdi ki, “rəfiqəni də götür, işdən sonra restorana gedəcəyik”. Mən də rəfiqəmi evə getməyə qoymadım. Dedim ki, Elçin bu axşam bizə qonaqlıq vermək istəyir. Səbinə buna etiraz etmək istədi, amma xahişimdən keçə bilmədi.

Həmin axşam restorandan çıxanda, Elçin əvvəlcə məni evimizin yanında düşürtdü. Sonra isə Səbinəni apardı. Rəfiqəm bir az uzaqda olurdu.

Ertəsi gün səhər tezdən telefon zəng çaldı. Elçin hələ gəlməmişdi. Dəstəyi qaldırdım. Azər idi. Telefonumu Cəmilədən öyrənmişdi. Nə vaxt görüşə biləcəyimizi soruşdu. Dedim ki, heç cür imkanım yoxdur. Onun telefon nömrəsini aldım və zəng vuracağımı bildirdim. Dəstəyi yerinə təzəcə qoymuşdum ki, Elçin içəri girdi. Gülə-gülə salam verib əlindəki şokalad qutusunu stolumun üstünə qoydu.

İki gündən sonra Səbinə yenə yanıma gəlmişdi. Elçin həmin vaxt nazirlikdə idi.

- Elçinə inanırsanmı?- Səbinə birdən-birə soruşdu.
- Əlbəttə, inanıram. Necə ki? Aramızda olan münasibəti təkcə sən bilirsən, Səbinə. Bu yaxınlarda evlənməyi də qərarlaşdırmışıq.
- Bunları mən də başa düşürəm. Səndən indiyə kimi heç bir şey gizlətməmişəm. Ancaq onu deyim ki, Elçindən xoşum gəlmədi, - deyə Səbinə ciddi tərzdə bildirdi.
- Nə olub ki, Səbinə? Deyəsən, səndə söz var? - təlaşla soruşdum.
- Elçin məni evə aparanda bəzi hərəkətlərindən xoşum gəlmədi. Düzü, bunu ondan gözləmirdim. Bunu səndən gizlətsəydim, özümü sənin qarşında günahkar hesab edərdim. Görünür, kişilərə etibar yoxdur.

Rəfiqəmdən bu sözləri eşidəndə dünya başıma fırlandı. Səbinə ilə aramızda olan söhbəti Elçinin üzünə vurmadım.

Bundan sonra Azərlə görüşməyi qərara aldım. Elçin artıq günü - gündən gözümdən düşürdü.

Bir dəfə Azər mənimlə ailə həyatı qurmaq fikrində olduğunu bildirdi. Elçinin acığına Azərlə evlənməyə razılıq verdim.

Elçin Azərlə tanışlığımdan sonralar xəbər tutmuşdu.

Azər toyumuz üçün hər şeyi hazırlamışdı. Bu işdə Ariflə Cəmilə yaxından köməklik göstərirdilər. Hamıdan çox sevinən də onlar idi. Ancaq həmin gün, gəlinlik paltarını geyindiyim gün hər şeyi alt - üst etdim. O, gözəl insanların arzularını ürəklərində qoydum.

Həmin gün Azəri çıxılmaz vəziyyətdə qoyub, Elçinin aldığı evə qaçdım və oradan da köhnə sevgilimə - qisas almaq istədiyim Elçinə zəng vurdum. Həmin an özümlə bacara bilmədim. Azərin paklığı, alicənablığı qarşısında xəcalət çəkdim. O cür təmizqəlbli insanı aldatmaq istəmədim. Baxmayaraq ki, onun keçmişindən xəbərim yox idi. O, mənə dəfələrlə xatırlatmışdı ki, onu adamların keçmişi qətiyyən maraqlandırmır.

İndi-indi anlayıram ki, əvvəldən axıra kimi səhv addımlar ata-ata getmişəm. Daha doğrusu, hisslərimin əsiri olmuşam. Axı, o zaman təmiz hisslərlə yaşayırdım. Hamıya inanırdım. Amma indi...

Bütün bunlara görə özümə haqq qazandırmaq istəmirəm. Çünki birinci dəfə səhv addımı doğrudan da, bilmədən, adamlara inandığım üçün atmışdım. Düzdür, bu addımı atmamaq da olardı. İndi görürəm ki, səhvlərin çoxusu sadəlövhlüyümdən olub. İndi heç kimə inanmıram. Qəlbim intiqam hissi ilə alışıb yanır, kişilərdən intiqam almağa başlamışam. Demək olar ki, kişilərin əksəriyyəti şorgözdür. Buna görə də, onları hər vasitə ilə qarşımda alçaltmaqdan zövq alıram. Elə gün olurdu ki, üç-dörd kişini aldadıb, barmağıma dolayırdım. İndi özümə də nifrət edirəm.

Qızlarımıza əsas məsləhətim budur ki, hisslərinin əsiri olmasınlar! Çox arzulardım ki, onları aldatmasınlar! Əslində qızlar oğlanlardan təmiz olurlar. Qızların əksəriyyəti oğlanlarla münasibətlərini son nəticəyə görə qururlar. Son nəticə isə ailədir.

Elə qəşəng, şirindil oğlanlar var ki, sadəlövh yox, hətta ayıq-sayıq qızları minbir dillə aldadır, ailə quracaqlarına inandırırlar. Sonra bir müddət gəzib aradan çıxırlar. Amma, həmin oğlanlar bu zaman doğma bacılarını gözlərinin qabağına gətirmirlər. Sonra yeni oğlan peyda olur. Yenə də aldanmaq, onun iztirabları başlayır. Yara sağalanda, digəri meydana çıxır... O da...

Adam fikirləşir ki, bəs biz neyləyək ki, bu əxlaqsız, etibarsız oğlanların ucbatından "gəzəyən" qızlara çevrilirik. Axı, biz xoşbəxt ləkəsiz, başıuca necə ailə həyatı quraq?!.

Hansısa qəşənq və şirindil oğlan da onun bacısını yoldan çıxardır və sonra siqaret kötüyü kimi hara gəldi tullayır.

Oğlanlar var ki, əlli-altmış qızla gəzib aldatdıqlarını fəxrlə deyirlər...

# İkinci hissə

***Məhəbbət və nifrət eyni ürəkdə qoşa qaynayan iki çeşmədir. Birinin dili şirin, digərininki acı da olsa, hərəsi bir dərdə şəfa verir.***

...**B**ir həftə olardı ki, Elçin Sevda adlı bir qızı da işi götürmüşdü. Zahirən çox cəlbedici, sakit təbiətli bu qıza açığı paxıllığım da tuturdu. Çox danışmağı da xoşlamırdı Sevda. Həmişə fikirli olardı. Bu qızın gözlərinin dərinliklərində kədər bir topa bulud kimi yığılıb qalmışdı. Məni Sevdaya yaxınlaşdıran da elə onun kədərli gözləri oldu. Özümdən asılı olmadan Sevdaya qarşı nədənsə rəğbətim artırdı. Onunla söhbətləşmək üçün fürsət axtarırdım. Bu qızın "sirli dünya"sına olan marağım məni rahat buraxmırdı.

Bir axşam restoranda şam edərkən Elçindən soruşdum:

- Təzə işçindən razısanmı?
- Nə manada deyirsən?
- Elə hər mənada.
- Hər mənada nəsə demək, hələ çox tezdir.
- Belə çıxır ki, təzə ceyranı hələ "dişinə vura" bilməmisən?
- Bura bax, qurtar bu tikanlı sözləri! Yenə başlama! O qızı yaxın dostumun xahişi ilə işə götürmüşəm. Düzünü bilmək istəsən, Sevda sən düşündüyün qızlardan deyil. Bir il olar ki, ərini nahaqdan tutublar. Kimsə ona şər atıb. On üç yaşlı bir qızları da var. Təmiz ailədəndir. Əvvəlki iş yerində müdir onu gözümçıxdıya salıbmış. Sən demə, Sevdadan xoşu gəlirmiş. Qız bunu bilən kimi, ərizəsini yazıb işdən çıxıb. Bu qədər, əzizim. Məlumatım səni qane etdimi? Bilirəm, onsuz da Sevdadan hər şeyi öyrənəcəksən.
- Məlumatına görə çox sağ ol. Ancaq son zamanlar səndə bəzi dəyişikliklər görürəm. Hər dəfə səndən bir şey soruşanda, nədənsə məcburiyyət qarşısında qalmış adamlar tək cavab verirsən. Görünür, get-gedə səninçün adiləşirəm.

- Burax, bu boş söhbətləri! Sən soruşdun, mən də sənə ətraflı məlumat verdim. Daha bunu başqa yerə yozmaq nə üçün?

Bundan sonra Elçindən heç nə soruşmadım. Hiss edirdim ki, yenə nəsə soruşsam, əsəbiləşəcək...

Bir gün işdən çıxandan sonra Sevdayla yarım saatlıq yol-yoldaşı oldum. Onsuz da bu qaradinməz qızla ikilikdə söhbət etmək üçün fürsət axtarırdım. Fikrimdə tutmuşdum ki, Elçinin mənə söylədiklərinin nə dərəcədə doğru olub-olmadığını Sevdadan öyrənim.

- Sevda, bizə işə girən gündən sənə fikir verirəm. Həmişə kədərli, dalğın görünürsən. Elə bil dəryada gəmin qərq olub. Mən deyib-gülən adamam. Yanımda kimsə qaşqabaqlı, dinməz oturanda, özümü çox narahat hiss edirəm. Bir neçə dəfə səninlə söhbət etmək istəmişəm, ancaq imkan olmayıb. Düzünü deyim ki, məndə sənə qarşı nədənsə, heç kəsə bəsləmədiyim rəğbət hissi oyanıb. Biz qadınlar dərdimizi-sərimizi kiməsə danışmayınca rahat ola bilmirik, - deyə Sevdayla söhbətə ilk olaraq mən körpü salmalı oldum.

- Rəna, (bu hissədə adının çəkilməsinə özü razı oldu - C.Z.) mənim qaşqabaqlı görünməyimə baxmayaraq, yoldaşlığı, dostluğu lazımınca qiymətləndirməyi bacarıram. O ki, qaldı həmişə kədərli olmağıma, məncə indi dərdsiz, qəmsiz adam tapmaq olmaz. Rəna, sənin o fikirinlə razıyam ki, bu ağır günlərdə bir-birimizin dərdinə, sərinə şərik olmasaq, onda laqeydlik hamımızın axırına çıxa bilər. Məni ən çox dəhşətə salan tanış-bilişlərin, dost-yoldaşların arasında inamın, etibarın get-gedə itməsidir. Axı, adamları bir-birinə yaxınlaşdıran, çətinlikləri birgə aradan qaldırmağa imkan yaradan əsas şərtlərdən biri elə inamdır.

Zənnimdə yanılmışdım. Onun ağıllı mühakimələri məni susmağa məhkum etmişdi. Artıq avtobus dayanacağına gəlib çatmışdıq. Düzü, bu gün Sevdadan belə tez ayrılmaq istəmirdim.

- Sevda, maraqlı adama oxşayırsan. Səninlə söhbət etmək mənə xoşdur, - deyə onu yenidən söhbətə çəkmək istədim.

- Rəna, maraqlı adamlar həyatda çoxdur. İndiki zəmanədə isə dediyin maraq dünyasının qapıları çoxlarımızın üzünə bağlanıb.
- Sevda, indi kimə təmiz qəlblə, xoş niyyətlə yaxınlaşırsan, bunun əvəzində həmin adamdan pislikdən savayı heç nə görmürsən. Çünki bu cür alçaq niyyətli əməllərin dəfələrlə şahidi olmuşam. Hətta, ən çox inandığım, etibar etdiyim yaxın rəfiqəm belə, son anda mənə xəyanət edib. Bundan sonra kimə inanasan?! Kimə ürəyini açıb, sirr verirsən əvəzində çirkin niyyətlərlə qarşılaşmalı olursan. Bizləri aldatmaq çox asandır. Həyat boyu buraxdığımız səhvlərin əzabını ömürlük çəkməli oluruq.
- Səni başa düşürəm. Görürəm ki, dərdlisən. Sabah işdən çıxandan sonra bizə gedərik. Oturub dərdləşərik. Rəna, bir şeyi demək istəyirəm. Bunu həmişə götür-qoy etmişəm. Hansısa filosof deyib ki, insan yalanı həqiqət bilir. Odur ki, həqiqət yalan cildində gizlənməli olur və çox vaxt təsirsiz qalır. Bunu yalnız fəhmlə duymaq gərəkdir. Açığını deyim ki, qızlarımız səhv addımları nəticəsində aldanırlar.Hamını qınamaq olmur, axı. Bu gün düşündüyümüz kimi deyil, həyatın məcbur etdiyi kimi yaşayırıq. Nə isə... Deyəsən, çox danışdım, - deyə Sevda gülərək sözünü tamamladı.
- Nə danışırsan, Sevda? Sənin söhbətin mənə çox xoş gəlir, - deyə onu inandırmaq istədim.

Bu vaxt Sevdanın gözlədiyi avtobus gəldi.
- Yaxşı, Rəna. Sabah görüşərik, - deyə o, tələsik avtobusa mindi.

Həmin gecə heç cür Sevdanın söhbətinin təsirindən çıxa bilmirdim. Onun doğrudan da ağıllı, hissiyyatlı bir qadın olduğuna inandım. İlk baxışdan məndə qaradinməz təəssüratı oyatmış Sevda, indi birdən-birə gözümdə tamam başqalaşmışdı.

Ertəsi gün işdən çıxandan sonra Sevda məni evlərinə dəvət etdi. Qapını üzümüzə orta yaşlı, gülərüz, mehriban bir qadın açdı.

- Salam!
- Xoş gəlmisiniz, qızım. Keçin içəri, səhv etmirəmsə, adınız Rənadır, Sevda ilə bir yerdə işləyirsiniz, - deyə o, məni içəri - qonaq otağına dəvət etdi.
- Düz tapmısınız. Deyəsən, Sevda mənim barəmdə artıq sizə danışıb.
- O qədər də yox. Dünən demişdi ki, bu gün evə iş yoldaşımla gələcəyəm.
- Rəna, tanış olun. Fəridə xanım mənim qayınanamdır.
- Sevda,qayınana sarıdan deyəsən, bəxtin yamanca gətirib, - mən gülərək zarafat etmək istədim.
- Düz deyirsən, Rəna. O cəhətdən mən xoşbəxtəm. Biz bu evdə gəlin-qayınana kimi deyil, ana-bala kimi dolanırıq, - deyə Sevda ciddi görkəm aldı.
- Yaxşı, yaxşı. Siz keçin əyləşin, işdən gəlmisiniz. Mən bu dəqiqə sizə çay gətirim, - deyə Fəridə xanım tez mətbəxə keçdi. Sevda arxadan:
- Anacan, bəs Zərifə haradadır? - soruşdu.
- Otağındadır,qızım, dərslərini hazırlayır. Gəldiyinizdən xəbəri yoxdur. Deyəsən, ingilis dili ilə məşğuldur.
- Rəna, sən əyləş, mən bu dəqiqə, - Sevda tələsik qonşu otağa keçdi.

Evdə səliqə-səhman göz oxşayırdı. Qonaq otağı xüsusi zövqlə bəzədilmişdi. Divardakı xalçanın üstündə iki böyüdülmüş şəkil asılmışdı. Onlardan biri Sevdanın gəlinlik paltarında əri ilə, ikincisi isə onun gözəl bir qızla çəkdirdiyi şəkil idi.

- Rəna xala, xoş gəlmisiniz, - deyə Sevdanın qızı gülə -gülə yanıma gəlib, əlini mənə uzatdı.
- Zərifə?! Maşallah, düşündüyümdən də gözəl qızsan. Neçənci sinifdə oxuyursan, Zərifə? - deyə onu qucaqlayıb hər iki yanağından öpdüm.
- Altıncı sinifdə.
- Dərslərini yaxşı oxuyursanmı?
- Bəli.

- Yaxşı, Zərifə balam, xalanla görüşdün, indi otağına keç, dərslərinlə məşğul ol, - Sevda meribancasına qızının başını tumarladı.
- Yaxşı, sağ olun, Rəna xala, - Zərifə mənimlə sağollaşıb otağına keçdi.
- Sevda, niyə qoymadın Zərifə ilə bir az oturub söhbət edək? Maşallah, böyük qızdır.
- Rəna, Zərifə bundan sonra səni o qədər yorsun ki, axırda özün ondan qaçmaq istəyəcəksən. Hər şeylə maraqlanan qızdır. Onun suallarından lap boğaza yığılmışam. Bir az da qalsaydı, üstünə ağılagəlməz suallar yağacaqdı.
- Nə olsun ki? Əksinə, mənim belə uşaqlardan xoşum gəlir.
- İndi keçək mətbəxə. Anam bizi gözləyir.

Mətbəxə keçdik. Fəridə xanım əməlli-başlı süfrə açmışdı.
- Bu nə əziyyətdi çəkmisən, Fəridə xala?- deyə dil-ağız elədim.
- Nə əziyyəti var, qızım? Birinci dəfədir ki, bizə gəlirsiz. Buranı öz eviniz bilin. Sevdanın yoldaşı, mənim də canım-ciyərimdir. Heç nədən çəkinməyin. Nuş olsun! - deyə Fəridə xanım bizi mətbəxdə ikilikdə qoymaq istədi. Mən isə:
- Bəs siz, Fəridə xanım? Bizimlə əyləşmək istəmirsiz? - soruşdum
- Qızım, sən heç narahat olma. Biz Zərifə ilə yenicə yemişik. Siz söhbət edin. Mən görüm Zərifə balam dərsləriylə nə edir, - deyə Fəridə xanım nəvəsinin yanına keçdi.
- Rəna, o, həmişə belədir?!
- Sevda, doğrudan da gözəl qayınanan var. Həm özü gözəldir, həm də xasiyyəti.
- Rəna, inanırsanmı, bu evə gəlin gəldiyim gündən ondan bircə kəlmə də olsa, acı söz eşitməmişəm.Yoldaşımla bəzi məsələlərdə mübahisəmiz düşəndə də, o, ikimizi də sakitləşdirməyə çalışıb. Hətta, səhv məndə olanda belə, oğlunu günahkar çıxarırdı.

- Gördüm, Sevda. Yaxşı adamlar elə ilk baxışdan tanınır. Sevda, bilirsən səndən nə soruşmaq istəyirdim? O, şəkildəki qız kimdir?
- Bu barədə sonra, Rəna. İndi başla görək, - ilk olaraq Sevda əlini süfrəyə uzatdı.
- Sevda, bəs ərin işdən nə vaxt qayıdır? - Bu dəfə Elçinin Sevdanın əri barəsində söylədiklərinin nə dərəcədə doğru olub-olmadığını öyrənmək istədim.

Sevda bu sualı gözləmədiyindən tutulan kimi oldu. Azca fikrə getdi. Sifətinin rəngi dəyişdi. Yersiz sual verdiyim üçün özüm də utandım.
- Rəna, heç nəyin üstündə Samiri səkkiz aydır ki, tutublar. Bu barədə yuxarılara dəfələrlə şikayət etməyimə baxmayaraq, heç bir nəticəsi olmayıb. Axırda hüquq qəzetlərinin birində şikayət ərizəmi çap elətdirməyə nail oldum. Bu yaxınlarda Samirin işinə Ali Məhkəmədə baxılacağı barədə mənə rəsmi cavab gəlib. Bu müddət ərzində Samirlə bircə dəfə görüş almağa imkanım olub. Nələrlə rastlaşmadım?! Danışılası deyil, Rəna. Allah heç kəsi həbsxana qapısına salmasın. Adamın orda günahsız yerə yatması ən böyük acıdır, ən böyük dərddir. Bu pis zəmanədə ailə-uşaq nə çəkir, onu başına gələn bilir. Sonra da görüşə gedirsən, anadan əmdiyin süd burnundan gəlir. Pulun da gedir, abrın da. Yenə kişi xeylağı dözə bilir. Vay onda ki, dustağın arvadı, bacısı görüşə gedə. Əgər o, gözəgəlimlidirsə... Nəsə...
- Vay-vay, ay Rəna, heç onların Allahdan qorxusu yoxdur bəyəm?!
- Eh, sən nə danışırsan. Onlarda qorxu-filan hardaydı!
- Samir mənə bir də o tərəflərə gəlməməyi tapşırdı. Tam dərəbəylikdir. Hər kəs öz kefinin bəyidir. Qanunları da istədikləri kimi fırladırlar. Onu da deyim ki, bu barədə bir məqalə yazıb qəzetə verdim. Ancaq həmin məqaləni çap etmədilər. Dedilər ki, buna görə başımıza oyun açarlar. Ancaq başqa bir hüquq qəzetində çap elədilər. Görünür, dünya yaxşı adamlardan xali deyil. Danışdıqca adamın dərdi təzələnir...

Yeməyimizi yedikdən sonra Sevda dedi:
- Yaxşı, Rəna, keçək albomdakı şəkillərə baxaq. Bəlkə, bir az fikrimiz dağıldı.

Yenidən qonaq otağına keçdik.
- Bu qızı deyirdim, Sevda. O sənin nəyindir?- divardakı şəkilə işarə etdim.
- O mənim rəfiqəm idi, - deyə sanki Sevdanın boğazında nəsə ilişib qaldı.

Sevda mebelin siyirməsindən qalın bir albom çıxarıb stolun üstünə qoydu. O, albomdakı şəkillərlə bir-bir məni tanış etməyə başladı. Çox yerdə Sevdanın əri Samirlə rəfiqəsinin birlikdə çəkdirdikləri şəkillərə rast gəldim.
- Bilirəm, Rəna, soruşacaqsan ki, bəs niyə əksər şəkillərdə rəfiqəm Samirlə bir yerdədirlər? Mən sənə hər şeyi danışacağam. Çünki buna söz vermişdim. Ötən dəfə rəfiqənin sənə etdiyi xəyanəti eşidəndə düzü, çox da təəccüblənmədim. Belə hadisələrin mən də şahidi olmuşam. Çoxları deyir ki, indi əsl dost, yoldaş yoxdur. Mən bu fikirlə qətiyyən razı deyiləm. Həyatda əsl dost da var, əsl yoldaş da. Sadəcə olaraq, bunu qazanmaq çətindir. Biz Zərifə ilə həyatda dost, əsl rəfiqə idik. O, hətta öz xoşbəxtliyini də mənə qurban verdi. Özü isə ...

Bu yerdə Sevda sözünün gerisini gətirə bilməyib, ağlamağa başladı. Onu sakitləşdirmək üçün cəhd göstərmədim. Düşündüm ki, qoy ürəyini boşaltsın. Bəlkə, bir az yüngülləşər.
- Zərifə həyatda hər şeyini mənə əmanət qoyub getdi, - deyə Sevda gözlərinin yaşını silərək təəssüflə bildirdi. - Mən də həmişə çalışmışam ki, onun əmanətlərini lazımınca qoruyub saxlayım. Zərifənin mənə həyatda qoyub getdiyi ən böyük əmanət Samirdir.

Sevda sözünü tamamlaya bilmədi. Onu qəhər boğurdu. Ayağa qalxıb otaqda azca gəzindi.
- Rəna, məni bağışla. Bütün olanları yenidən xatırlamaq mənimçün çox çətindir. Çünki həmin anları yaşamaq, mənə daha çox əzab verir, - Sevda gözlərinin yaşını silərək əlavə etdi.

- Sevda, bəlkə söhbətimizi başqa bir vaxt davam etdirək.
- Yox, Rəna. Bunu onsuz da danışmağa söz vermişdim. Məgər gedəcək yerin var? Əgər evdən narahat olarlarsa, zəng et ki, bizdəsən. Evdən razı olsalar, elə gecəni də bizdə qalarsan.

Mən gecəni qalmağa etiraz etdim. Amma evə zəng vurdum ki, bir az gec gələcəyəm, narahat olmasınlar.

Bir azdan Fəridə xanım bizimçün yenə də çay gətirdi.
- Bu nə zəhmətdir çəkirsən, ay Fəridə xanım. Bizə lap xəcalət verirsiniz - dedim.
- Xəcalətli düşməniniz olsun, qızım! Siz işinizdə olun. Sevda, qonağı darıxmağa qoyma, - deyə Fəridə xanım gülümsəyərək, yenidən o biri otağa keçdi.
- Rəna, biz Zərifə ilə bir yerdə oxuyurduq, həm də yataqxanada bir otaqda qalırdıq. Hamı bizim dostluğumuza həsəd aparırdı. Çünki bir-birimizə möhkəm inanırdıq.

Samirlə Zərifə bir-birini dəlicəsinə sevirdilər. Qrupumuzun uşaqları bu sevgiyə qibtə edirdilər. Onlar doğrudan da, bir-biri üçün yaranmışdılar. Samirlə Zərifə hər cəhətdən bir-birilərini tamamlayırdılar. Deyirlər ki, sevənlər qısqanc olurlar. Ancaq mən nə Samirdə, nə də Zərifədə heç vaxt qısqanclıq hiss etmədim. Onların bir-birilərinə olan inamı qısqanclıq hissini tamam yox etmişdi. Nə Samir, nə də Zərifə məndən heç nə gizlətmirdilər. Bütün söz-söhbətlərimiz bir yerdə olardı. O zaman Samir hər ikimizin havadarı idi. Bizi birlikdə dərsə gətirir, dərsdən sonra da yataqxanaya aparırdı. Dərslərə başımız qarışdığından gəzməyə ancaq istirahət günləri vaxtımız olurdu. Nəhayət, bir gün Samir dözə bilməyib dedi:
- Olmazmı bir qədər az oxuyasınız? Onsuz da müəllimlərin çoxu oxuyanla, oxumayan arasında fərq qoymur.

Samirin sözündə həqiqət var idi. Biz gecə-gündüz yatmayıb, imtahanlara hazırlaşırdıq, o biri qızlar isə istədikləri kimi gəzir, əylənirdilər, imtahanqabağı bircə dəfə də olsa, kitab üzü açmırdılar. Amma imtahanda bizdən aşağı qiymət almırdılar. Onlardan imtahana niyə hazırlaşmadıqlarının

səbəbini soruşanda: “Day-dayımın canı sağ olsun, o ola-ola gözlərimizi indidən niyə xarab edək? Bircə dəfə zəng etməklə “zaçotnik” də istədiyimiz qiymət yazılır,” - deyə cavab verirdilər.

Oğlanlar bizi rahat buraxmırdılar. Bizə “cüt sonalar” deyirdilər. Zərifə heç vaxt söz altında qalmazdı. Deyirdi ki, “oğlanların cavabını dərhal vermədinsə, sonra onların əlindən rahat ola bilməyəcəksən.”

Bir sözlə, Zərifə çoxlarını elə ilk andaca pərt edib, yola salırdı. Bu cəhətdən o məni də həmişə oğlanlardan xilas edirdi. Zərifə gözəl idi. Ona görə də oğlanlar ona biganə qala bilmirdilər. “Gözəllik başa bəladır”, deyirlər.

Samirin oğlanlarla mübahisəsi həmişə Zərifənin üstündə olurdu.

Bir dəfə dərsdən yataqxanaya ikilikdə getməli olduq. Həmin gün Samir nədənsə, bizi ötürməyə gəlməmişdi. İnstitutun qabağında on dəqiqəyə kimi Samiri gözləməli olduq.

- Yaxşı, gedək, Zərifə. Artıq gecdir. Yəqin işi olub ki, gələ bilməyib, - dedim. Qrup yoldaşım Eldar bizim dayanıb Samiri gözlədiyimizi görəndə ayaq saxladı:

- Görürəm ki, Samir bu gün gecikib. Bəlkə sizi bu gün mən ötürüm?

- Yox, yox, Eldar, sən zəhmət çəkmə. Çox sağ ol. Samir gələcək, - deyə Zərifə etiraz etdi.

Bir qədər də gözləyəndən sonra Zərifə dilləndi:

- Gedək, Sevda. Deyəsən, Samir bu gün gələsi olmadı. Ancaq Samir demişdi ki, gələcəyəm.

Qış olduğundan hava tez qaralmışdı. Hiss edirdim ki, Samirin gəlməməsi Zərifəni bərk narahat edib.

Biz bir az getmişdik ki, ağ rəngli bir “Volqa” maşını düz bizim yanımızda dayandı. Fikir vermədik. Ancaq maşın dayanan kimi, bir oğlan düşüb qarşımızı kəsdi.

- Gözəllər, əvvəlcə axşamınız xeyir olsun. İkincisi, biz sizin qulluğunuzda hazırıq. Hara deyirsiniz, apara bilərik. Sizin kimi gözəllərin belə bir havada piyada getməsinə heç cür razı ola

bilmərik, - deyə özündən razı oğlan əda ilə bizə maşına oturmağı təklif etdi.

- Cavan oğlan, əvvəla, ünvanı səhv salmısan, ikincisi də yolumuzdan çəkil! - deyə Zərifə əsəbi halda dilləndi.

- Zərifə xanım, daha əsəbiləşmək nə üçün? - Oğlan gülümsədi.

- Adımı hardan bilirsən? - Zərifə təəccüblə soruşdu.

- Mən sizin barənizdə çox şey bilirəm, Zərifə xanım. Sizi görəndən bəri gecələr yuxum ərşə çəkilib.

- Bilirsən, onları özünə saxla, lazım olar. O ki, qaldı yuxunuzun pozulmasına, məsləhət görürəm ki, “Sedalgin” qəbul edəsiniz, - Zərifə rişxəndlə dilləndi.

- Paho, həkimliyin də varmış ki! Amma dərman təyinatın düz olmadı. Mənim dərmanım sedalgin yox, Zərifəgindir.- Oğlan elə bil hazırcavablığından həvəslənib ucadan güldü.

Və o, əl atıb Zərifənin sol qolundan yapışdı.

- Niyə naz edirsən, ay gözəl? Səninçün nə desən edərəm. Gəl, sən məni rədd etmə, - deyə oğlan həddini aşmaq istədi.

Bu zaman Zərifə dartınıb onun əlindən çıxdı və var gücü ilə oğlanın sifətinə bir sillə vurdu.

- Əclaf! Sənə demədimmi yolumuzdan çəkil! - Zərifə bərkdən qışqırdı.

Bu vaxt yoldan ötənlər istər-istəməz ayaq saxlamalı oldular.

- A-a-z, sən məni vurursan?!

Oğlan sözünü tamamlaya bilmədi. Hansısa güclü zərbədən yerə sərildi. Adamlar çoxaldığından aradan çıxmağa çalışırdıq ki, bu vaxt Samirin səsini eşitdik:

- Alçaq, nakişi! İş o yerə çatıb ki, qızlara əl qaldırırsan? - deyə Samir qışqırdı.

- Ə-ə, sən kimə əl qaldırırsan? - ikinci oğlan cəld maşından düşüb Samirin üstünə cumdu.

Samir ani olaraq gözlənilməz zərbə ilə onu da yerə sərdi. Bu zaman hardansa iki nəfər milis işçisi peyda oldu.

Zərifə ilə mən Samirin qoluna girdik.

- Gəl gedək, Samir. Daha bəsdir, heç nədən işə düşərik, - deyə biz Samiri aparmağa çalışdıq.
- Bir dayanın görək, bu əclaflar sizdən nə istəyirdilər, - Samir inadkarlıq göstərdi.

Özündən razı oğlan yerdən qalxan kimi, əlini arxa cibinə aparıb bıçaq çıxardı.
- İndi sənə göstərərəm, küçük, - deyə Samirin üstünə cumdu.

Bu vaxt milislər onu qamarladılar. Hamımız milis şöbəsinə getməli olduq. Orada hər birimiz izahat yazdıq. Bizim yanımızdan keçərkən özündən razı oğlan ayaq saxlayıb, qəzəb dolu baxışlarla Samiri süzərək onu hədələdi:
- Yaxşı, səninlə bizimki qalsın sonraya! Bu heyfi səndə qoymayacam! Harda olsan, səni tapıb hökmən borcunu qaytaracağam!

Bu hadisə ilə əlaqədar Samirin başı çox ağrılar çəkdi. Sonradan aydın oldu ki, həmin oğlanın atası "Qorotdel"də işləyirmiş. Onların ən böyük zərbəsi mənə də dəydi. Bunları deməkdə əsas məqsədim odur ki, Samirin bu gün heç nədən həbsxanada yatmağının əsas səbəbi də həmin hadisə ilə bağlıdır. Həmin oğlan o vaxtlar Samiri öldürməyə bir neçə dəfə cəhd göstərmişdisə də, baş tutmamışdı. Samir həmişə ehtiyatla hərəkət edirdi, onların qurduğu tələyə düşmürdü. Oğlanın bir neçə dəfə cinayət əməli törətməsinə baxmayaraq, həmişə cəzasız qalırdı. Çünki yuxarıdan zəng olan kimi, onu dərhal buraxırdılar.

Böyüklərin uşaqları üçün hər yerdə yaşıl işıq yanırdı. Bu ənənə elə indinin özündə də davam etməkdədir. "Yuxarılar" üçün qanunlar sanki onlara məxsus tərzdə cilalanır.
- Sevda, sən dedin ki, onların ən böyük zərbəsi sənə də dəyib. Bunu nə mənada deyirsən?
- Rəna, Samirin yanındakı bu oğlanı görürsənmi? - Sevda Samirlə birgə çəkilən gəşəng bir oğlanın şəklini mənə göstərdi.
- Bu oğlan mənim nişanlım idi. Sonuncu kursun axırlarında toylarımız bir yerdə olacaqdı. Həmin vaxtlar özümüzü necə də xoşbəxt sanırdıq. Dördümüz də gözəl arzularla yaşayırdıq.

Rauf Samirin ən yaxın dostu idi. Bizi elə bir-birimizlə Samir tanış etmişdi. Hələ Raufla tanış olmazdan əvvəl, Samir həmişə zarafatyana mənə deyərdi: “ Mən heç vaxt yol verməyəcəyəm ki, sənin kimi gözəl bir qız başqasına qismət olsun. Tezliklə səni özünə layiq bir oğlanla tanış edəcəyəm. Görəcəksən ki, həyatda necə təmiz qəlbli, sadə, ağıllı, xoşxasiyyət oğlanlar var” . Zərifə də Samirin sözünə qüvvət verirdi: “ Samir düz deyir, Sevda. Biz istəyirik ki, gələcəkdə səni qəlbən sevən, başa düşən, qədrini bilən oğlanla həyat qurasan. Bu cəhətdən Rauf əsl sənə layiq oğlandır. İndi o, Moskvada aspiranturada oxuyur. Bu ayın axırlarında gələcək”.

Raufun həqiqətən də gözəl xasiyyəti var idi. Onunla bütün fikirlərimiz, demək olar ki, üst-üstə düşürdü. Dünyagörüşlü oğlan idi. Tezliklə onunla nişanlandıq. Nişan günü Samirlə Zərifə çox sevinirdilər. Amma... Haradan biləydik ki, bu sevinc çox uzun sürməyəcək, - deyə Sevdanın sifəti yenidən dəyişdi. Sanki bir topa qara bulud günəşin üzünü tutdu. Bir müddət danışmadı, dərin fikrə getdi. Hiss etdim ki, Sevda indi öz aləmindədir. Mənim burada olmağımı da unudub. Ona mane olmaq istəmədim. Sevda haldan-hala düşdü. İstər-istəməz araya çökmüş sükutu pozmağa çalışdım:

- Yaxşı, Sevda. Görürəm ki, keçmişi xatırlamaq sənin üçün çətindir. Əgər bilsəydim ki, sənə bu qədər əzab verəcəyəm, bütün bunları danışmağına heç razı olmazdım, - deyə Sevdanı fikirlər məngənəsindən xilas etmək istədim.

- Eybi yoxdur, Rəna. Məni bağışla. Nə qədər çalışıram ki, hissə qapılmayım, mümkün olmur.Özümdən asılı deyil. Dönə-dönə həmin anları yaşamağa məcbur oluram. O günləri xatırlamaq bir tərəfdən mənə rahatlıq, məmnunluq gətirir, digər tərəfdən isə əzab verir.

- Sevda, səninçün nə qədər ağır olsa da, bunu səndən soruşmalıyam. Nəyə görə Raufla ayrılmalı oldunuz? Düzünü deyim ki, bu məsələdə mənim üçün çoxlu müəmmalı şeylər ortaya çıxır.

- Darıxma, Rəna. Sənin üçün heç nə qaranlıq qalmayacaq. Bu axşam hər şey sənə aydın olacaq. Söz vermişəmsə, buna hökmən əməl edəcəyəm, - Sevda ağır-ağır dilləndi. - Raufla xoş günlərimiz çox da uzun sürmədi. Bir ay olardı ki, nişanlanmışdıq. Rauf evdəkilərin də xoşuna gəlmişdi. Toylarımızın bir gündə, bir yerdə olması ideyasını da Samir irəli sürmüşdü.

Bir axşam Zərifə mənə dedi:

- Sevda, nədənsə Samir barəsində çox narahatam. Qəlbimə sızıb, elə bil ki, nəsə olacaq. Son günlər tez-tez qorxulu yuxular görürəm. Ötən gecə görürəm ki, həmin oğlan Samiri tapança ilə vurub öldürür. Nə qədər qışqırıramsa, heç kəs köməyə gəlmir. Bilirəm, onlar Samirdən əl çəkməyəcəklər.

Onlar Samirə heç nə edə bilməzlər, Zərifə. Sən heç narahat olma. Samir ehtiyatlı oğlandır. O ki, qaldı qorxulu yuxular görməyinə, bu da fikirli yatmağınla bağlıdır. Belə fikirləri birdəfəlik başından çıxart, - deyə Zərifəyə təskinlik verdim.

Son vaxtlar Zərifə onda kəskin ağrıların olmasını da mənə söyləmişdi. Nə qədər çalışdımsa, onu həkimə apara bilmədim. "Həkimlik nə var ki? Tezliklə ötüb keçəcək", - deyə məni narahat olmağa qoymurdu. Zərifə mənə möhkəm tapşırmışdı ki, bu barədə Samirə bircə kəlmə də söz deməyim. Beləcə, bir müddət Zərifədəki ağrıları hamıdan gizli saxladıq. Bəlkə də, bu, bizim ən böyük səhvimiz idi.

Dərsdən sonra hər gün bizi Raufla Samir qarşılayırdılar. Maraqlı filmlər olanda axşam seanslarına birgə gedirdik. Rauf mənə qarşı həddindən artıq diqqətli və qayğıkeş idi. Məndə çatışmayan bir şey olanda, Raufun nəzərindən yayınmazdı. Qrupdakı qızlarımızın ad günlərində və institutda keçirdiyimiz gecələrdə Samirlə Rauf həmişə iştirak edirdilər. Raufun mədəni rəftarı qızların çoxunun xoşuna gəlirdi. Bəzən qızlar zarafatyana mənə söz atırdılar: "Sevda, Raufdan möhkəm yapış, yoxsa əlindən alarıq. Raufun "müştəri"ləri günü-gündən çoxalır". Mən isə bunları dostcasına deyilmiş, səmimi sözlər kimi qəbul edirdim. Ancaq sonradan mənə məlum oldu ki,

qızlarımızdan birisi Raufa doğrudan da vurulubmuş. Həmin qız guya hansısa mövzunu başa düşməkdə çətinlik çəkdiyini Raufa bildirib. Sonra da Raufdan ona kömək etməyi xahiş edərək, nişanlımı evlərinə dəvət edib. Rauf da qıza məmnuniyyətlə kömək edəcəyinə söz verib. Ancaq Rauf qızın niyyətini başa düşəndən sonra, onu özündən incik salmamaq şərti ilə çox mədəni tərzdə cavabını vermişdi. Ertəsi gün qız hərəkətinə görə Raufdan üzr istəməli olub. Bunu sonralar bildim. Deyəsən, əsas məsələdən kənara çıxdım.

Bir gün xəstə olduğum üçün dərsə gedə bilməmişdim. Müəllimdən icazə almağı da Zərifəyə tapşırmışdım. Həmin axşam Zərifə dərsdən evə gələndə, onun üzündə həyat nişanəsindən əsər-əlamət yox idi. Sifəti meyid rəngində idi. O mənə diqqətlə baxdı və özünü saxlaya bilməyib, hönkürtü ilə ağlamağa başladı. Sonra özünü üstümə ataraq, məni möhkəm-möhkəm qucaqladı. Heç nə anlamadım. Tez soruşdum:

- Zərifə, sənə nəsə olub?
- . . .
- Səninləyəm, de görüm nə olub?
- . . .

Mən soruşduqca Zərifə daha da bərkdən, hönkürtü ilə ağlayırdı. Düşündüm ki, bəlkə yenə də ağrıları tutub. Sonradan fikirləşdim ki, Zərifənin ağrıları tutanda əksinə, onun azca da olsa, səsi çıxmırdı. O, ağrıdan ilan kimi qıvrılanda belə, səsini eşitməmişdim. Dərmanı içəndən sonra sakitləşirdi. İndi isə Zərifənin hönkürtüsü aləmi götürmüşdü. Birdən - birə içimdə şübhə oyandı: “ Deməli, nəsə baş verib?!” - deyə həyəcanlandım.

- Zərifə, bir dayan görüm. Özünü ələ al! Ürəyim dayandı, axı! De görüm, nə hadisə baş verib? - deyə ucadan qışqırdım.

Bundan sonra Zərifə azca sakitləşdi. Ayağa qalxıb bir stəkan su gətirdim. Zərifə suyu içəndən sonra bir az özünə gəldi. O, başını qaldırıb üzümə baxdı:

- Sevda, Rauf...

Zərifə sözünün gerisini gətirə bilməyib, hönkürtü vuraraq, yenidən boynuma sarıldı.

- Rauf?! De görüm, Raufa nə olub? - yenidən qışqırdım.
- Sevda, Raufu maşın vurub, xəstəxanadadır, - deyə Zərifə zorla dilləndi.

...Mən xəstəxanaya çatanda, Rauf artıq keçinmişdi. Zərifə olmasaydı, bəlkə də özümü öldürəcəkdim. O məni bircə an da olsa, tək buraxmırdı.

Həmin günlərdə Raufun dostları da mənə həyan dururdular. Heç cür unuda bilmirəm onu. Çox ağırdır mənimçün o günləri xatırlamaq, Rəna.

- Yaxşı, Sevda, başa düşürəm səni. Məni daha çox səninlə Samirin münasibəti maraqlandırır.
- Rəna, həyatda bəzən elə anlar olur ki, öz istəyinin əleyhinə getməyə məcbur olursan. Mən də hər şeyi rəfiqəmə, onun ruhunun şad olmasına qurban vermək məcburiyyətində qaldım. Ancaq onu da deyim ki, buna görə peşman deyiləm. İndi Raufun ətrini Samirdən alıram, ona görə Rauf mənimçün heç vaxt ölməyib, onu həmişə yanımda hiss edirəm. Raufdan sonra heç cür özümü ələ ala bilmirdim. Bəzən Zərifə yatmadığımı görüb yuxu dərmanı verirdi mənə. Əcaib yuxular görürdüm, tez-tez diksinib ayılırdım. Hiss ediridim ki, get-gedə məndə insanlara qarşı soyuqluq, biganəlik yaranmağa başlayır, heç kimə qaynayıb-qarışa bilmirdim. Məndə baş verən bu dəyişikliklər Samirlə Zərifənin nəzərlərindən qaçmırdı. Onlar hər şeyi hiss edirdilər. Elə buna görə də məni bircə an da olsun, yalqız buraxmaq istəmirdilər, hara gedirdilərsə, məni də özləri ilə aparırdılar. İndi başa düşürəm ki, bu gün həyatda yaşamağım üçün Samirlə Zərifəyə borcluyam. Çünki Raufdan sonra yaşamamağa and içmişdim. Ancaq andıma xilaf çıxdım. Bunun səbəbkarı isə rəfiqəm oldu.

Bir gün Zərifə dedi ki, dərsə gedə bilməyəcək, özünü yaxşı hiss etmir. Həkimə gedəcəyini bildirdi. Mən də onunla getmək istədiyimi deyəndə, qəti etiraz etdi, dərsdən qalmamağımı

məsləhət gördü. Onu da əlavə etdi ki, həkimə getdiyini Samirə deməyim.

Həmişə olduğu kimi, dərsdən çıxanda Samir məni qarşıladı, Zərifəni soruşdu. Dedim ki, Zərifə üçün bu gün icazə almışam, özünü bir balaca narahat hiss edirdi.

- Necə narahat hiss edirdi?! Bəs sənə bir söz demədi ki, nə olub?- Samir təəccüblə soruşdu.

- Narahat olma, elə ciddi bir şey yoxdur. Əgər inanmırsansa, gəl gedək, özün gör,- deyə Samiri sakitləşdirməyə çalışdım.

- Sevda, məndən nəsə gizlədirsiniz, çünki bu birinci dəfə deyil.

- Ay Samir, axı səndən nəyi gizlədəcəyik?

- Hiss edirəm ki, Zərifə xəstəliyi barədə məndən nəsə gizlədir.

- Yaxşı, səndən gizlətdi, məndən ki, heç nəyi gizlətməz. İstəyirsən and içim, - deyə Samirin şübhələrinə son qoymaq istədim.

- Lazım deyil, Sevda. İnanıram hər ikinizə...

Biz otağa girəndə, Zərifə çarpayıda uzanıb kədərli bir musiqiyə qulaq asırdı. Samiri görcək, hönkürərək onun boynuna sarıldı.

- Zərifə, nə olub? - Samir Zərifənin əllərini yavaşca boynundan götürüb əlləri içərisində sıxaraq soruşdu.

O, göz yaşlarını silib, gülümsəyərək:

- Narahat olmağa dəyməz. Əyləşin, nahar hazırlamışam. Bilirdim ki, hökmən gələcəksən - dedi.

Zərifə stolu hazırlamağa başladı. Həmin gün rəfiqəm olduqca şən görünürdü. Samiri gülərüzlə yola salandan sonra narahat halda soruşdum:

- Həkimə getməmişdin?!

- Getmişdim. Dedi ki, bir balaca soyuqdəymən var.

Sən demə, bu rəfiqəmin mənə dediyi sonuncu yalanmış.

Xərçəng xəstəliyinə tutulduğundan xəbəri varmış. Son ana qədər bu barədə nə mənə, nə də Samirə heç nə deməyib. Biz bunu sonralar bildik.

Ertəsi gün dərsdən çıxıb üçümüz evə gəlirdik. Yolda Zərifə dedi ki, kitab mağazasına baş çəkək. O burada bir şəkil görüb, bu gün onu almalıdır. Mağazaya girdik.

- Samir, bax bu şəkili mənə al, - deyə əli ilə “ Məcnun Leylinin qəbri üstündə” adlı şəkilini göstərdi.

Samir heç vaxt Zərifənin sözünü yerə salmazdı. Bu dəfə də təəccüblə çiyinlərini çəkib:

- Əgər xoşuna gəlirsə, demək o, sənin olmalıdır, - deyə Samir şəkili aldı.

- Daha nə istəyirsən, əzizim? İstəyirsən mağazanın bütün şəkillərini alım səninçün, - deyə Samir kədərlə şəkli o tərəf-bu tərəfə çevirən Zərifənin könlünü almaq istədi.

Sonra dərindən ah çəkib şəkili bükdü.

- Bəs sənin üçün nə alım, Sevda? - Samir mənə tərəf çevrilərək soruşdu.

- Heç bir şey, Samir. Zərifə demişkən, sənin sağlığın elə bizim üçün bəsdir, - deyə mən çıxış qapısına tərəf addımladım.

Samir arxadan qolumdan tutdu:

- Bura gəl, görüm! Əgər mənə bir şəkil aldırmasan, səndən möhkəm inciyəcəm. De görüm, hansı şəkil ürəyindən keçir?

- Ürəyimdən heç nə keçmir, Samir. Sən Allah, gəl gedək, - deyə bu dəfə mən Samirin qolundan yapışdım.

- Sevda, Samirin xasiyyətini bilmirsən? Onsuz da səndən əl çəkən deyil. Yaxşısı budur, hansı şəkil könlünə yatır, onu göstər Samirə, - deyə Zərifə də təkid etdi.

Məcbur olub hind artisti Rişi Kapurun şəklini göstərdim.

Samir şəkili alana kimi Zərifə mağazadan çıxıb, küçədə bizi gözləyirdi. Küçəyə çıxanda, o bizə baxıb gülərək:

- Bir-birinizə necə də yaraşırsınız! - deyərək yaxınlaşıb hər ikimizin əlindən tutdu.

Düzü, rəfiqəmin bu sözündən incidim.

- Bu nə sözdür, Zərifə? - soruşdum.

- İncimə, Sevda. Zarafat etmək istədim. Sənə də söz demək olmur. Hər şey xətrinə dəyir, - Zərifə tezcə könlümü aldı.

Bir səhər mağazadan çörək alıb qayıdanda, gördüm ki, Zərifə divara vurduğu həmin şəkilin qarşısında dayanıb, gözləri də qızarıb. Məni görcək, tez gözlərini ovuşdurdu.

- Nə olub, Zərifə? - soruşdum.

- Heç, elə-belə. Bu şəkli çox görmüşdüm, Sevda. Hələ orta məktəbdə oxuyanda ədəbiyyat kitabında da rast gəlmişdim. Ancaq bu səhnə indiki qədər mənə heç cür təsir etməmişdi. Sanki Leylinin yerində özümü görürəm indi, - deyə dərindən köks ötürdü.

- Nə danışırsan, Zərifə? Son günlər səni heç tanıya bilmirəm. Elə bil ki, əvvəlki Zərifə deyilsən, çox kövrək olmusan. Bəlkə, bunun səbəbini rəfiqənə anladasan. Biz ki, indiyə kimi bir-birimizdən heç nəyi gizlətməmişik, - deyə ilk dəfə olaraq ciddi tərzdə Zərifənin düz gözlərinin içinə baxdım.

- Mənə bu cür niyə baxırsan, Sevda? Bilmirsən ki, həyatda iki nəfər istədiyim adam varsa, onun da biri sənsən.Sadəcə olaraq, elə şeylər var ki, onların mənalarını indi-indi dərk etməyə başlayıram. Bir də onu da anladım ki, həyatda elə hadisələr olur ki, o, təkcə sənin özünə aid olur və bu qeyri-adi hadisələrdən heç kəs xəbər tutmamalıdır. Əlbəttə ki, müəyyən müddətə qədər.

- Mən səni anlaya bilmədim. Son zamanlar deyəsən, filosofluğa meyl edirsən, - zarafatca bildirdim. - Yox, yox, deyəsən yavaş-yavaş başa düşürəm. Axır vaxtlar səndəki bu dəyişikliklərin səbəbi ancaq məhəbbətin gücündən irəli gəlir. Çünki yalnız dərindən sevənlər həyatın dərkolunmaz tərəflərini dərk edib anlaya bilirlər, - deyə əlavə etdim.

- Sən həmişə haqlı olursan, Sevda. Ancaq bu dəfə deyəsən, sən mənə çox-çox uzaqlardan nəzər yetirdin.

Nəsə... Daha bu barədə bəsdir. Yaman acmışam, gəl yeməyimizi yeyək, - Zərifə bu müəmmalı söhbətə yekun vurdu.

- Səni yormuram ki, Rəna? - Sevda qayğıkeşliklə soruşdu.

- Sən nə danışırsan? Əksinə, indiyə kimi bu qədər şirin və maraqlı söhbət eşitməmişdim. Bu gün mən sənin və eləcə də Zərifənin barəsində hər şeyi bilməyincə evə gedən

deyiləm.Görürsən də, necə səbirsizliklə səni dinləyirəm, – deyə Sevdaya söhbətini yarımçıq saxlamamağı xahiş etdim.

- Yaxşı, onda yaddaqalan və təsirli məqamları sənə danışacağam. Çünki baş verən hadisələrin hamısını ardıcıllıqla nəql eləsəm, gərək biz bir neçə gün beləcə vaxt keçirək. Bir də ki, dedim axı, həmin anları yenidən yaşamaq mənim üçün çox çətindir.

- Səninlə razıyam, qadası. Yadda qalan ən maraqlı məqamlarını danış, - Sevda ilə ümumi razılığa gəldik.

- Ertəsi gün Samir konsertə üç bilet almışdı, - Sevda söhbətinə davam etdi. - Zərifə heç cür gözləmədiyimiz halda konsertə getməyəcəyini bildirdi. Əvvəl elə bildik ki, zarafat edir.

- Yaxşı, bir az cəld olun, gecikirik, - Samir bizi tələsdirdi.

- Mən getmirəm, Samir. Nədənsə, özümü pis hiss edirəm. Yaxşı olar ki, Sevda ilə ikiniz gedin, - Zərifə mənə tərəf çevrilərək , yalvarış dolu nəzərlərlə üzümə baxdı.

Onun getməyəcəyi halda, mən də getməyəcəyimi bildirdim.

- Sənə nə olub, Zərifə? - Samir soruşdu.

- Heç nə olmayıb, əzizim. Sən heç narahat olma. Sadəcə, özümü yorğun hiss edirəm, bir az yatıb dincəlmək istəyirəm. Bir bura gəl , - deyə Zərifə Samiri azca kənara çəkdi. İlk dəfə idi ki, onlar mübahisə edirdilər.

Bir azdan Samir əsəbi halda mənə yaxınlaşıb, qoluma girərək dedi:

- Sevda, bu gün konsertə Zərifəsiz getməli olacağıq.

- Yox, Samir. Zərifə getmirsə, mən də gedə bilmərəm, - etiraz etdim.

Fikirləşdim ki, yəqin rəfiqəmin yenə ağrıları tutub, amma bu dəfə mənə demək istəmir. Zərifə etiraz etdiyimi görüb güldü:

- Heç inana bilmirəm ki, sən Samirin sözünü yerə salarsan. Məndən nigaran olma, hər şey yaxşıdır. Bilirəm, narahatsan, amma narahat olası bir şey yoxdur. Zərifə, Samirin xətrinə dəymə, get onunla, - rəfiqəm məni zorla Samirlə konsertə getməyimi təkid etdi.

Çıxılmaz vəziyyətdə qalmışdım.Nə edəcəyimi bilmirdim. Getməsəm, həm Zərifə, həm də Samir inciyəcəkdilər. Mən bunu nəzərə alıb, Samirin təklifini qəbul etdim. Düzünü deyim ki, Samirlə olanda heç vaxt darıxmırdım. Çünki o, şən, zarafatcıl və eyni zamanda çox ciddi oğlandı.Həmin axşam konsertdən qayıdandan sonra Zərifəni evdə çox qəmqin gördüm. Kefini bir az qaldırmaq istədim. Amma gördüm ki, rəfiqəm mənimlə incimiş adamlar kimi danışır. Gözləyirdim ki, içəri girəndə, Zərifə konsertin necə keçdiyindən, Samirdən söz salacaq. Buna görə onu qınamadım. Düşündüm ki, axı onun nişanlısıyla konsertə getmişdim. Zərifəni belə görəndə, özümü qınadım. Fikirləşdim ki, getməməliydim, Zərifə məni Samirə qısqandığı üçün belə hərəkət edir. Ancaq bir azdan düşüncələrimdə yanıldığımın şahidi oldum. Zərifə dedi ki, yenə də mədəsinin ağrısı tutmuşdu. Ona görə bir az kefsizdir. Sonra o məndən yanında oturmağımı xahiş etdi.

- Sevda, bunu səndən çoxdan soruşmaq istəyirdim. Bizim necə rəfiqə olduğumuzu çoxları bilirlər. Biz bunu aramızda olan etibar və inamın sayəsində qazanmışıq. Bilirəm ki, sən mənim həyatda ancaq xoşbəxt olmağımı arzulayırsan...

- Bu nə sözdür, Zərifə? - deyə rəfiqəmin sözünü kəsdim.

- Dayan bir, hövsələn olsun, hələ fikrimi sənə çatdırmamışam, - deyə Zərifə onu axıra kimi dinləməyi məsləhət gördü.

- Sevda, düzünü de görüm, Samirlə ailə həyatı qurmağıma dəyərmi?

- Zərifə, elə qəribə sual verirsən ki, necə yəni Samirlə ailə həyatı qurmağa dəyərmi?! Bu məsələni artıq həll etmişik. Sən həyatda ən xoşbəxtlərdən birisən. Çünki sənin Samir kimi gözəl, nəcib, qayğıkeş, diqqətli və xeyirxah bir həyat yoldaşın olacaq. Gələcəkdə mən də bu xoşbəxt ailə ilə fəxr edəcəyəm. Hələ toyunuzda gör bir nə edəcəyəm?! - deyə Zərifəni qucaqladım.

- Sevda, onu demək istəmirəm. Deyirəm ki, əgər sən mənim yerimdə olsaydın, Samirlə ailə həyatı qurardınmı? Sən mənim

canım, bu suala düzgün cavab ver, - Zərifə gözlərimin içinə baxdı.

Rəfiqəmin gözlənilməz sualından tutuldum. Necə cavab verəcəyimi bilmədim. Düşündüm ki, bəlkə Zərifə məni sınamaq istəyir.

- Zərifə, çətin sual qarşısında qoyursan məni, - bir xeyli susandan sonra dilləndim.

- Sevda, bu sualı başqa yerə yozma. Bu cavabın mənim üçün böyük əhəmiyyəti var. Ona görə də, bu barədə riyakarlığa lüzum yoxdur, - Zərifə mənalı nəzərlərlə mənə baxdı.

- Əlbəttə, Samirlə ailə həyatı qurardım,- deyə özüm də istəmədən rəfiqəmdən “xilas” olmağa çalışdım.

- Düzdür, Sevda. Samir gözəl insandır. Ancaq deyəsən, bu xoşbəxtlik mənə nəsib olmayacaq. - O, dərindən köks ötürüb, ayağa durdu.

- Sən nə danışırsan, Zərifə? Axır vaxtlar doğrudan da, tanınmaz olmusan, çox bədbinləşmisən. Mətləbə dəxli olmayan, qeyri-adi ifadələr işlədirsən. Bütün bunlar sənin təbiətinə yad olan xüsusiyyətlərdir. Artıq məndə şübhələr baş qaldırıb. Çünki hiss edirəm ki, məndən nə isə gizlədirsən.

Zərifə bərkdən güldü:

- Sizdən nəyi gizlədəcəyəm? Mənim sizdən gizlədiləsi nə sirrim ola bilər ki? Mən yenə də əvvəlki Zərifəyəm. Ancaq son vaxtlar həyat mənə əvvəlkindən daha şirin gəlir. Bəzən də həyatın bu şirinliyinə təəssüflənirəm.

- Zərifə, səni heç cür tanıya bilmirəm, - mən də ayağa qalxıb stolun üstünü sahmana saldım.

Həmin axşam Zərifə çox danışdı. Söhbətinin əsas qayəsini də kədər, qüssə, ayrılıq notları təşkil edirdi.

Yay semestri başa çatmışdı. İmtahanları verib, iki aylıq Bakıdan ayrılırdıq. Hər kəs öz rayonuna yola düşməyə hazırlaşırdı. Zərifə məndən bir gün əvvəl yola düşəcəkdi. Onu yola salmağa Samir də gəlmişdi. Rəfiqəm nədənsə dinib, danışmırdı. Samirin zarafatlarına bir o qədər də məhəl

qoymurdu. Gözlərində sanki bir həsrət vardı. Samir dözə bilməyib dedi:
- Günəşin üzünü yenə də qara buludlar alıb.
- Düz deyirsən, Samir. Deyəsən, günəşin bir daha bu qara buludlar arxasından çıxa bilməyəcək, - deyə Zərifə dərindən köks ötürdü.
- Sənə nə olub, canım? Axı, mən səni son vaxtlar heç cür başa düşə bilmirəm. Əvvəllər səndən heç vaxt bu cür bədbin fikirlər eşitməzdim. Hiss edirəm ki, məndən nəsə gizlədirsən, amma bir-birimizdən heç bir şey gizlətməməyə and içmişdik., - deyə Samir təkidlə Zərifədən nəyisə öyrənmək istədi. Rəfiqəm isə bütün bunların müqabilində yavaşca əyilib Samirin üzündən öpdü. Sonra gülərək əlavə etdi:
- Mən indi başa düşürəm ki, həyat necə də gözəl imiş. Ancaq nədənsə həyatın bu gözəlliyini, şirinliyini son anda duyuruq. Sən demə, həyatın gözəlliyini insan son məqamda dərk edir, onun şirinliyini son anda görə bilir. Bu gözəlliyi isə hər ikinizə əmanət qoyub gedirəm.
- Yenə də başladı... Zərifə, de görək, sənin nəyin var ki, bizə demək istəmirsən? - soruşdum. - Biz yenə də heç nə anlaya bilmirik. Bu cür söhbətlər ancaq əbədi ayrılan sevgililər arasında olur. Biz isə bir-birimizdən cəmisi iki ay müddətinə ayrılırıq. Onu da bilmək olmaz. Bir də gördün ki, iki gündən sonra Samir sizin qapınızı döyür.
- Yaxşı, avtobus yola düşür,- Zərifə hər ikimizi qucaqlayıb öpdü.

Bizdən ayrılıb avtobusa minmək istədi, amma o, bir anlığa ayaq saxlayıb, yenidən geri qayıtdı. Və astadan dedi:
- Siz həqiqətən də bi-birinizə çox yaraşırsınız!

Sonra Zərifə gülərək heç bir cavab gözləmədən, yola düşməkdə olan avtobusa mindi. O, pəncərədən bizə əl elədi. Onun gözləri dolmuşdu.

Sən demə, bu bizim vida görüşümüz imiş...

Yay tətilində bir-birimiz üçün darıxdığından biz həmişə məktublaşırdıq. Birinci məktubu da Zərifə yazardı. İki həftə idi

ki, kəndə gəlmişdim. Amma rəfiqəmdən məktub gəlmirdi. Narahat olmağa başladım. Məcbur olub Zərifəyə birinci mən məktub yazmalı oldum, ancaq ondan cavab gəlmədi.

Fikirləşdim ki, bəlkə məktubum çatmayıb. İkincisini yazdım. Yenə də cavab üçün iki həftə gözləməliydim. Zərifədən yazdığım məktublara cavab almayanda, narahat olmağa başladım. Yəqin etdim ki, rəfiqəm məndən nəyə görəsə inciyib.

Dərslərin başlamasına iki gün qalmış Bakıya gəldim. Zərifə həmişə məndən bir gün tez gəlirdi Bakıya. Amma bu dəfə gecikmişdi.

Axşam Samir gəldi. Fikirli görünürdü. Zərifənin hələ gəlib çıxmadığını söyləyəndə, o, dərindən köks ötürərək, günühkar adam kimi, başını aşağı dikərək astadan dilləndi:

- Sevda, rəfiqən daha gəlməyəcək. O bir də bu otaqda səninlə birlikdə olmayacaq, çünki Zərifə indi bizdən çox-çox uzaqlardadır.

- Başa düşmədim, Samir. Zərifə harasa gedib?!

"Demək Zərifə yay tətilini evdə olmayıb, ona görə də məktublarım cavabsız qalırmış,"- deyə düşündüm.

- Sevda, demək istəyirəm ki, Zərifə bir daha geri qayıtmayacaq,- Samir sözünü yarımçıq kəsərək, cibindən bir məktub çıxarıb mənə uzatdı.

Mən heç nə anlamayaraq, tələsik məktubu açıb ürəyimdə oxumağa başladım. Zərifə yazmışdı:

***"Mənim əzizlərim! Sizi ürəyimdəkilərlə tanış etmək üçün gücüm ancaq buna çatdı. Bilirəm, bu sətirləri oxumaq sizin üçün ağır olacaq. Bir zamanlar özümü dünyanın ən xoşbəxti sanırdım. Çünki Samir kimi bir oğlan gələcək həyat yoldaşım olacaqdı, Sevda kimi də etibarlı, məni özüm kimi anlayan bir rəfiqəm vardı. İndi hər ikinizdən əlim üzülür, sizinlə qalmaq, sizi itirməmək imkanım xaricindədir. Çünki bu dəhşətli xəstəlikdən xilas olmaq onsuz da mümkün deyil. Bunu hər ikinizdən gizlədirdim. Hardan biləydim ki, taleyimə qaçılası, mümkün olmayan bir xəstəlik düşəcək? İndi anlayıram ki, sonradan heçlik***

***dünyasının sakini olmaq kimi bir bəladan qorunmaq, xoşbəxt anlarımın ömrünü uzatmaq üçün həmin anlara bir az şadlıq qatmaq lazım imiş. Təəssüf ki, bunu gec dərk etdim. Həyatda tamamilə xoşbəxt olmaq mümkün deyilmiş.***

***Bu xəstəlik sizi məndən, məni isə bu gözəl dünyadan ayırır. Sizi dünyalar qədər sevdiyim üçün bu xəbərlə məyuslaşacaq çöhrənizi görmək istəməzdim. Son zamanlar birdən–birə dəyişməyimin səbəbi də bu idi. Sizi bilərəkdən özümdən usandırmaq, uzaqlaşdırmağı düşünərək, bununla da itki yükünün ağırlığını bir az azaltmaq istəyirdim. Buna görə məni bağışlayın. Sizin hər ikinizə vəsiyyətim, hər ikinizdən son xahişim budur: Evlənin! Sizin xoşbəxtliyiniz mənim xoşbəxtliyimdir. O vaxt ruhum şad və rahat olar ki, siz bir–birinizə qovuşasınız. Əgər bu vəsiyyətimi yerinə yetirməsəniz, ruhum həmişə narahat olacaq və siz də həyatda xoşbəxtliyin nə olduğunu heç vaxt bilməyəcəksiniz. Ona görə də, siz həm xoşbəxt olmaq üçün, həm də ruhumun rahat olması naminə ailə həyatı qurmalısınız! Axı, siz həqiqətən də bir–birinizə yaraşırsınız. Son vəsiyyətimə əməl etməyi unutmayın!***

***Əlvida, mənim əzizlərim!***

***Ruhu həmişə sizinlə olacaq, Zərifə”.***

Məktubun sonuncu cümləsini oxuyandan sonra həyəcandan huşumu itirmişəm. Gözlərimi açanda gördüm ki, qızlardan biri başımın üstündə dayanıb. Sol tərəfimdə isə Samir stulda əyləşib, əllərimi ovuşdurur. Otaq adamla dolu idi. Qızlar da ayaqlarımı ovuşdururdular. Məlum oldu ki, özümdən getmişəm. Samir tez qonşu otaqlardan qızları səsləyib, özü isə təcili yardıma zəng etməyə qaçıb.

Zərifənin yoxluğuna inana bilmirdim. Öz-özümə təsəlli verirdim ki, hardansa bir-iki günə Zərifə də gələcək, yenə də birlikdə gülə-gülə dərsə gedəcəyik. Ancaq bu dərs ilinin ilk

gününü həmin yolları Zərifəsiz addımlamaq mənimçün çox çətin idi. Göz yaşlarımı saxlaya bilmirdim. Hər dəfə sevinclə qarşıladığımız dərs gününü bu dəfə dərin hüzünlə keçirdik. Uşaqların çoxu Zərifənin ölümünə inana bilmirdi. Qrupumuzun tələbələri iki günlüyə dekanlıqdan Zərifənin valideynlərinə başsağlığı vermək üçün rayona getməyə icazə aldı. Samir də bizimlə getdi.

Uşaqlar məni Zərifənin qəbri üstündən zorla ayırdılar.

Zərifənin anası məni kənara çəkib, qızının ölüm ayağında dediyi sözləri mənə çatdırdı.

